# Regionun neft şirkətləri yeni əməkdaşlıq qurur



Səhifə ⇨ 2

Xalqın qəzeti!

# Xalq qəzeti

№ 49 (30743) 5 mart 2025-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Paşinyanın regional kommunikasiyalar “yuxusu”

**Ermənistanın baş naziri Nikol Paşinyan özünün jurnalist keçmişini yada salaraq məqalə yazıb. Onun seçdiyi sərlövhə belədir: “Ermənistan və Azərbaycan arasında kommunikasiya kanalları haqqında”.**




Bəribaşdan bir məqamı vurğulayaq: Rəsmi İrəvan hazırda tutduğu destruktiv mövqeyində qaldıqca sərlövhənin özündə ehtiva etdiyi anlam Ermənistan üçün yalnız yuxu olacaq. Elə Nikolun yazdıqları da yuxudur.

Əlbəttə, o, sadəlövh deyil, konkret məqsədləri var. Məqsəd vasitəyə bəraət qazandırır ki, bu barədə sonda söz açacağıq. Hələlik isə mətləbə keçək.

### Nikol öhdəliyini danır

N.Paşinyan məqaləsində Azərbaycan tərəfinin Ermənistanın kommunikasiyaların açılması ilə bağlı öhdəliklərini yerinə yetirmədiyini bildirməsi üzərində dayanır və bu yanaşmanın, guya, düzgün olmadığını vurğulayır. Nikol məsələnin Bakı və İrəvan arasında problematik mahiyyət daşıdığını açıqlayaraq yazır ki, “Ermənistanın birtərəfli öhdəliyi yoxdur”. Onun sözlərindən belə çıxır ki, hər iki tərəf bir-biri üçün bütün nəqliyyat və iqtisadi kommunikasiyaları açmağa mükəlləfdir. Hələ erməni baş nazirin mövqeyini vay-şivən salmaqla əsaslandırması da var: “Bu gün Azərbaycanda nə bir nəqliyyat, nə bir yol, nə bir dəmir yolu, nə bir boru xətti, nə bir elektrik xətti, nə bir kabel, nə də iqtisadi kommunikasiya nə Ermənistana, nə də Ermənistandan keçənlərə açıqdır”.

*(ardı 3-cü səhifədə)*

## Diplomatikliyə nə ehtiyac?

*Rusiya XİN-in erməni mediasına cavabı ilə bağlı bəzi xatırlatmalar*



**Rusiya Xarici İşlər Nazirliyinin informasiya və mətbuat departamenti Ermənistanın “Verelq” analitik informasiya mərkəzinin Azərbaycanda məhkəməsi davam edən ermənilərlə bağlı sorğusunu cavablandırıb. Daha doğrusu, Rusiya XİN erməni mediasının Moskvanın tərəflər arasında vasitəçilik təcrübəsinə söykənmiş sualına nəzərən Qarabağın keçmiş separatçı rejiminin rəhbərlərinə qarşı Bakıdakı məhkəmə prosesinin insan hüquqlarının, guya, kobud surətdə pozulması faktı olmasına dair sualına münasibət bildirib. Əvvəlcədən deyək ki, münasibət kifayət qədər diplomatikdir.**

Erməni mediası bəribaşdan, necə deyərlər, əl yeri qoyub. Yəni məhkəməsi davam edən şəxslərin Rusiya vətəndaşı olmadıqlarını vurğulayıb. Kremlin baş diplomatik idarəsinin cavabında da mövcud məqam ilk növbədə yada salınıb. Mövzuya “Biz əvvəlki brifinqlərdə bu mövzuya münasibət bildirmişik. Düzgün qeyd etdiyiniz kimi, adıçəkilən şəxslər Rusiya vətəndaşları deyillər” şəklində yanaşma onu göstərir ki, rəsmi Moskva məsələyə, belə demək mümkünsə, öz işi kimi baxmır. Amma Moskva artıq sıradan çıxmış vasitəçilik missiyasında israrlı olduğunu göstərməyi də yaddan çıxarmır.

*(ardı 3-cü səhifədə)*

## Ədalət yarımçıq olmur!

**Bütün müharibələr sülhlə başa çatıb. Amma bu zaman sülhün qarşısına ədalət təyinini əlavə etməyə ehtiyac duyulur. Yəni, baş verənlərin bir daha təkrarlanmayacağına təminatı yalnız ədalətli sülh verə bilər.**



Qədim yunan filosofu Ərəstun deyirdi ki, ədalət ilk növbədə dövlətdən gəlmədir. Çünki hüquq dövlətin ictimai nizamıdır. İnsan cəmiyyətinin formalaşması ilə təməli qoyulan ədalət anlayışı ibtidai cəmiyyətlərdəki mifoloji təsəvvürlərdən günümüzdəki ali hüquqi-fəlsəfi kateqoriyaya qədər uzun nizamlanma yolu keçib. Bu yolun qan-qada, məhrumiyyətlərlə müşayiət olunduğu məlum həqiqətdir. Çox uzağa getməyək, elə yaxın tarixə nəzər salaq. Yuqoslaviyanı misal çəkə bilərik. Serbiya hərbçiləri, terrorçuları 30 il bundan əvvəl Serebrenitsa şəhərində soyqırımı törətdilər. Deyton sazişinə görə, Bosniyada sülh əldə olunsa da, müharibə cinayətkarları unudulmadı, onlar beynəlxalq axtarışa verildilər. Serb separatçılarından bir neçəsi tutularaq mühakimə olundu. Yuqoslaviyanın keçmiş rəhbəri Miloseviç, eləcə də Karaciç, Mladiç kimi hərbi canilər layiq olduqları cəzalara məhkum edildilər.

Yəni, ədalət müəyyən mənada öz yerini tutdu. Cəmiyyətdə də belədir. İnsanlar arasında mübahisəli məsələlərdə düzgün və qərəzsiz qərar vermək yalnız ədalətli olmaqla mümkündür. İnsan ədaləti düşünərək yaradır. Ədalətli düşüncə dünyamızı təkmilləşdirir, doğru və yanlışı bir-birindən ayırmağı bacarır, hadisələrə daha geniş prizmadan baxmağı təlqin edir. Bu prinsip ölkələrarası münasibətlərdə də keçərlidir. Söhbət Ermənistan və Azərbaycan arasında dörd ildən çoxdur gözlənilən ədalətli sülhün əldə olunmasından gedir.

“Sülh üçün səyləri təqdir etmək tam mənzərəni kölgədə qoymamalıdır. Ədalət axtarışı müharibə cinayətlərində, etnik təmizləmədə, hərbi təcavüzdə, işgəncələrdə və digər ağır cinayətlərdə ittiham olunan və ya məhkum edilən hər kəs üçün cavabdehlik tələb edir”. **Bu sözləri Azərbaycanın Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə BMT-nin insan haqları üzrə ali komissarı Volker Türkün müraciətini “X” sosial şəbəkədə şərh edərkən bildirib.** XİN rəsmisi çox doğru olaraq ədaləti cavabdehlik məsuliyyətinin şərtləndirdiyini xatırladır və aydın məsələdir ki, bu zaman Azərbaycana qarşı hərbi cinayətlərdə təqsirləndirilən şəxslərin Bakıda davam edən məhkəmə prosesini nəzərdə tutur.

*(ardı 4-cü səhifədə)*

## Orta Dəhlizin beynəlxalq daşımalarda çəkisi artır



Səhifə ⇨ 7

## Gürcüstan “xarici agentlər”i şəffaflaşdırır



Səhifə ⇨ 8

## Ağdərəlilər də ağ günlərinə qovuşurlar



**Tərifini çox eşitsəm də, Ağdərənin qeyri-adi dərəcədə gözəl təbiətini, sıx meşələrini, nəhəng Sərsəng su anbarını ilk dəfə ötən ilin yayında, yenicə “Xalq qəzeti”nin bölgə müxbiri təyin edildiyim vaxt əraziyə tanışlıq səfərim zamanı görmüşdüm.**

(ardı 11-ci səhifədə)

## Azərbaycan beynəlxalq aləmdə idman dövləti kimi tanınır



Səhifə ⇨ 9

## ABŞ-ın hərbi yardımı dayandırması Ukraynanı çətin duruma salacaq



Səhifə ⇨ 11

# Prezident İlham Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 4-də D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi İsiaka Abdulqadir İmamı qəbul edib.**

Ölkəmizin D-8 İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olması ilə bağlı qəbul edilən yekdil qərara görə üzv dövlətlərə minnətdarlığını bildirən Prezident İlham Əliyev tamhüquqlu üzv kimi Azərbaycanın bu təsisatın inkişafı ilə bağlı səylərini əsirgəməyəcəyini vurğuladı. Dövlətimizin başçısı D-8 İqtisadi Əməkdaşlıq Təşkilatı yaranandan bəri ona qoşulan ilk ölkənin Azərbaycan olmasından məmnunluğunu bildirdi. Prezident İlham Əliyev bu qərarı, eyni zamanda, üzv ölkələr tərəfindən Azərbaycana göstərilən hörmət və həmin ölkələr arasında böyük dostluğun nümunəsi kimi qiymətləndirdi. Dövlətimizin başçısı qeyd etdi ki, D-8 ölkələri ilə Azərbaycanın qarşılıqlı milli maraqlara əsaslanan səmərəli konstruktiv ikitərəfli münasibətləri mövcuddur. Azərbaycanın aidiyyəti qurumları ilə təşkilat arasında əlaqələrin yaradılmasının önəminə toxunan dövlətimizin başçısı onun coğrafiyasının Xəzər dənizi və Qafqaz regionuna genişlənməsinin əhəmiyyətini vurğuladı. Prezident İlham Əliyev bu xüsusda təşkilatın bölgəyə yaxınlaşmasında regionun mühüm ölkəsi kimi Azərbaycanın rolunu qeyd etdi.

Dövlətimizin başçısı Baş katib İsiaka Abdulqadir İmamın ölkəmizə səfərinin səmərəli olacağına ümidvarlığını ifadə etdi.

Qəbula görə minnətdarlığını bildirən D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi Azərbaycanın bu təsisata üzv olması və müqəddəs Ramazan ayı münasibətilə təbriklərini çatdırdı. Qonaq, eyni zamanda, COP29-da Azərbaycanın uğurlu sədrliyi ilə bağlı dövlətimizin başçısını təbrik edərək, ölkəmizin sədrliyi çərçivəsində COP29-da iqlim gündəliyi üzrə ciddi qərarların qəbul olunduğunu vurğuladı.

D-8-in dünyada 1,2 milyard əhalisi olan üzv dövlətləri əhatə edən böyük iqtisadi və ticari potensiala malik təsisat olduğunu deyən Baş katib onun fəaliyyətinin əsasında ölkələr arasında iqtisadi-ticari münasibətlərin inkişafının dayandığını qeyd etdi. Qonaq əminliyini bildirdi ki, Azərbaycan təşkilatın daha da inkişaf etdirilməsinə, gündəlikdə duran məsələlərin həyata keçirilməsinə öz əsaslı töhfəsini verəcək.

Görüşdə D-8 çərçivəsində enerji, iqlim fəaliyyəti, ticarət, kiçik və orta sahibkarlığın inkişafı, gənclər, media və qarşılıqlı maraq doğuran digər istiqamətlərdə əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

# Prezident İlham Əliyev "Tatneft", "KazMunayQaz" və "Uzbeknefteqaz" şirkətlərinin rəhbərlərini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 4-də Rusiyanın "Tatneft" şirkətinin baş direktoru Nail Maqanovu, Qazaxıstanın "KazMunayQaz" şirkətinin İdarə Heyətinin sədri Asxat Xassenovu və Özbəkistanın "Uzbeknefteqaz" şirkətinin İdarə Heyətinin sədri Baxodirjon Sidikovu qəbul edib.**

Dövlətimizin başçısı bu gün çoxtərəfli əməkdaşlığın yeni mərhələsinin başlandığını deyərək, bunun üçün hazırlıq işlərinin uğurla aparıldığını vurğuladı. Azərbaycan, Rusiya, Qazaxıstan və Özbəkistanın neft şirkətləri arasında çox sıx istehsalat münasibətlərinin artıq qurulduğunu məmnunluqla qeyd edən Prezident İlham Əliyev ikitərəfli formatda bir sıra layihələrin həyata keçirildiyini dedi, bu xüsusda səyləri birləşdirməyin önəminə toxundu.

Dövlətimizin başçısı birgə istehsal və dost ölkələrə sifarişlərin həyata keçirilməsi baxımından da dördtərəfli əməkdaşlığın rolunu qeyd etdi.

Söhbət zamanı yeni yaradılan əməkdaşlıq formatının perspektivləri barədə fikir mübadiləsi aparıldı, onun ölkələrimiz arasında iqtisadi sahədə əlaqələrin daha da genişlənməsi işinə töhfə verəcəyinə ümidvarlıq ifadə olundu. Vurğulandı ki, bu format çərçivəsində şirkətlər arasında fövqəladə halların aradan qaldırılması və birgə reaksiya qruplarının yaradılması, rəqəmsal texnologiyalar və proqram təminatı sahələrində işlərin optimallaşdırılması, müştərək satınalmaların təşkili, habelə müxtəlif sənaye sahələrinin inkişafı üzrə əməkdaşlıq nəzərdə tutulur.

Qeyd edildi ki, bu yeni əməkdaşlıq formatı digər xarici şirkətlərin qoşulması üçün də açıqdır.

*AZƏRTAC*

# Naxçıvan şəhərində ictimai nəqliyyatın tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında

*Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, iqlim dəyişikliyinə qarşı mübarizə və ekoloji dayanıqlılığın artırılması üçün ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinin dövriyyəsinin stimullaşdırılması və istifadəsinin genişləndirilməsi məqsədilə **qərara alıram:**

**1.** Naxçıvan şəhərinin ictimai nəqliyyat sistemində sərnişin daşımalarının yalnız elektrik mühərrikli avtobuslarla təşkili məqsədilə 60 ədəd elektrik mühərrikli avtobusun alınması və enerjidoldurma cihazlarının quraşdırılması, habelə həmin avtobuslara xidmət səviyyəsinin yüksəldilməsi üçün depo (qaraj) infrastrukturunun təkmilləşdirilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 93-VIIQ nömrəli Qanunun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 dekabr tarixli 268 nömrəli Fərmanının 1.12.4.4.12-ci abzasında nəzərdə tutulmuş vəsait hesabına nizamnamə kapitalının artırılması yolu ilə "BakuBus" Məhdud Məsuliyyətli Cəmiyyətinə 33.449.000,0 (otuz üç milyon dörd yüz qırx doqquz min) manat vəsait ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 4 mart 2025-ci il**

# F.H.Nağıyevə şiddətli töhmət elan edilməsi haqqında

*Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri Fuad Hümbət oğlu Nağıyevə işində yol verdiyi nöqsanlara görə şiddətli töhmət elan edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 4 mart 2025-ci il**

# Birinci vitse-prezident Mehriban Əliyevanın Od çərşənbəsi ilə bağlı paylaşımı



**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Od çərşənbəsi ilə bağlı sosial şəbəkə səhifələrində paylaşım edib.**

Paylaşımı təqdim edirik: "Uca Allah mərhəmətini xalqımızdan heç zaman əsirgəməsin! Od çərşənbəniz mübarək!".

# Türkiyə spikeri azərbaycanlı həmkarını təbrik edib

**Martın 4-də Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuş Milli Məclisin sədri Sahibə Qafarovaya zəng edərək mübarək Ramazan ayının başlaması münasibətilə təbriklərini çatdırıb.**

TBMM-in sədri bu mübarək ayın qardaş Azərbaycan xalqına və müsəlman dünyasına sülh, əmin-amanlıq, xeyir-bərəkət gətirməsini diləyib.

Telefon danışığı zamanı qardaş ölkələrimiz arasında münasibətlər, o cümlədən parlamentlərimizin əməkdaşlığı məsələləri haqqında da fikir mübadiləsi aparılıb, qanunverici orqanlarımızın həm ikitərəfli, həm də beynəlxalq parlament təşkilatlarında yüksək səviyyədə əməkdaşlığından razılıq ifadə olunub.

# Hikmət Hacıyevin Fələstin səfiri ilə görüşü



**Fələstin Dövlətinin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Nasser Abdul Kərim ilə Azərbaycan Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ilə vida görüşü baş tutub. Bu barədə Fələstin Dövlətinin Azərbaycandakı səfirliyi məlumat yayıb.**

Səfir Azərbaycanda diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar göstərilən səmimi qəbula görə H.Hacıyevə öz təşəkkürünü bildirib.

Görüş zamanı həmçinin iki dost ölkə, Fələstin və Azərbaycan arasında dostluq və əməkdaşlıq münasibətlərinin əhəmiyyəti və gələcək perspektivlər barədə geniş fikir mübadiləsi aparılıb.

*XQ*

# İƏT Baş katibi Xarici İşlər Nazirliyində

**Xarici işlər naziri Ceyhun Bayramov İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi İsiaka Abdulqadir İmam ilə görüşüb.**

Söhbət zamanı Azərbaycanın D-8-ə üzvlüyündən irəli gələn əməkdaşlıq məsələləri, habelə regional və beynəlxalq təhlükəsizlik vəziyyəti müzakirə olunub. Nazir Ceyhun Bayramov D-8-in ötənilki sammiti çərçivəsində ölkəmizin quruma üzv seçilməsinin Azərbaycanın artan regional və beynəlxalq nüfuzunun, habelə Təşkilat tərəfindən göstərilən etimadın təcəssümü olduğunu məmnunluqla qeyd edib. Üzvlüyümüzün öz növbəsində D-8-in tarixində ilk genişlənmə olaraq tarixə düşdüyü, öz növbəsində ölkəmizin təmsilçiliyinin, o cümlədən Təşkilatın coğrafiyasının genişlənməsində mühüm rol oynadığı qeyd edilib.

Tərəflər, eyni zamanda, D-8 çərçivəsində müxtəlif, o cümlədən siyasi, iqtisadi, ticarət, energetika, nəqliyyat, kommunikasiyalar, humanitar, təhsil və s. sahələr üzrə əməkdaşlıq üçün geniş potensialın mövcud olduğunu qeyd edərək, bu istiqamətdə gələcək planlar üzrə müzakirə aparıblar. Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

*XQ*

(əvvəli 1-ci səhifədə)

# Paşinyanın regional kommunikasiyalar “yuxusu”



Qeyd edək ki, N.Paşinyanın qaldırdığı vay-şivən reallığın təhrifinə, yaxud yeni reallıq formalaşdırmağa yönəlib. Onun bu “məqsədinin” digər təzahür formaları var, əvvəllər də olub. Məsələn, Nikol ötənilki açıqlamalarının birində öz imzasının da yer aldığı 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın Ermənistanı məğlub dövlət kimi qələmə vermək üçün əsas yaratmadığını dilə gətirmişdi və mövqeyində qalır.

Ancaq hər kəsə bəllidir ki, üçtərəfli bəyanat İrəvan qarşısında öhdəlik müəyyənləşdirir. Fikrimizin təsdiqi üçün sənədin 9-cu bəndini diqqətə çatdıraq: “Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanları həyata keçirirlər. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək”.

Digər tərəfdən, öhdəliyin bilavasitə Ermənistanın üzərinə qoyulması amili də var. Bunun sübutu isə Prezident İlham Əliyevin üçtərəfli bəyanatın imzalanmasından sonra xalqa müraciətində səsləndirdiyi fikirlərdir: “Digər önəmli məsələ, xüsusilə qeyd etmək istəyirəm ki, Naxçıvan Muxtar Respublikasının Azərbaycanın əsas hissəsi ilə əlaqəsi bu sənəddə təsbit edilir. Həm bütün kommunikasiyaların, yolların açılması, eyni zamanda, burada göstərilir ki, yeni nəqliyyat kommunikasiya infrastrukturu yaradıla bilər və yaradılmalıdır. Biz bunu əlbəttə ki, çox dəstəkləmişik. Deyə bilərəm ki, mənim təkidimlə bu bənd bu bəyanata salındı. Çünki birbaşa Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bu bəndin əlaqəsi yoxdur. Ancaq mənim təkidli tələblərim şadam ki, qəbul olundu. Beləliklə Naxçıvan Muxtar Respublikasını Azərbaycanla, Azərbaycanın əsas hissəsi ilə quru yollarla birləşdirmə istiqamətində tarixi addım atıldı. Çünki mənfur düşmən 1990-cı illərin əvvəllərində və ondan da bir qədər əvvəl Naxçıvanı faktiki olaraq mühasirəyə almışdı. Bütün kommunikasiya xətləri kəsildi, - çünki o vaxt Azərbaycanın əsas hissəsindən oraya enerji resursları ötürülürdü, - faktiki olaraq Naxçıvan Muxtar Respublikası çox ağır vəziyyətdə qalmışdı. Eyni zamanda, Ermənistan ərazisindən oraya hücumlar da edilirdi. Dəfələrlə demişəm, məhz ulu öndər Heydər Əliyevin cəsarəti və fəaliyyəti nəticəsində Naxçıvan işğal altına düşmədi. Erməni vandallarının belə planları da var idi”.

Bəli, Prezident İlham Əliyev üçtərəfli bəyanatın 9-cu bəndinin özünün şəxsi təkidinin nəticəsi olduğunu vurğulayıb. Nəzərə alsaq ki, ümumən torpaqlarımızın işğaldan azad edilməsi dövlətimizin başçısının təkcə təkidi deyil, eyni zamanda, prinsipiallığının və qətiyyətinin nəticəsi idi, o zaman belə düşünmək mümkündür ki, Ermənistan hazırda öz öhdəliklərini yerinə yetirməsi üçün də, yumşaq desək, təkid lazımdır. Mövcud məqam barədə Paşinyan düşünməli, keçmişi danmamalı və məcbur etməməlidir ki, ona 44 günlük müharibə dönəmində kənar dövlətlərə necə yalvardığını xatırladaq.

## Naxçıvan yolunda “erməni qanqalı”

N.Paşinyan məqaləsində onu da bildirib ki, Ermənistanın bütün yolları Azərbaycana açıqdır. “Hələ 2022-ci ildə hökumət Ermənistan–Azərbaycan sərhədində üç sərhəd-keçid məntəqəsinin açılması ilə bağlı qərar layihəsini dövriyyəyə gətirmişdi ki, bu da Azərbaycanın yük və minik avtomobillərinin Ermənistana daxil olmasına, məsələn, Naxçıvana və Türkiyəyə getməsinə imkan verəcək”, – deyən baş nazirin manipulyasiya yolu tutduğu aşkardır. Məgər, o fərqində deyil ki, məsələ rəsmi İrəvanın qəbul etdiyi hansısa qərarla tənzimlənə bilməz? Yaxşı fərqindədir, sadəcə, reallıqları söz oyunu ilə təhrif edir, öz aləmində diplomatik davrandığını sanır.

Əslində, N.Paşinyanın yazdıqları mətləbə yaxınlaşma və tez bir zamanda ondan uzaqlaşmaq mahiyyəti daşıyır. Mahiyyət nəyə hesablanıb? Məsələn, Nikol Ermənistanın haqqında söz açdığı qərarının qəbulunu əsaslandırarkən bildirir ki, Naxçıvana daxil olmaq üçün heç bir infrastruktur yoxdur, onu qurmaq lazımdır və bu işi, kifayət qədər, tez görmək olar. Ancaq baş nazir həmin infrastruktur hazır olanadək başqa yolu təklif edir. “...İndi fiziki infrastrukturun hazırlığı baxımından, məsələn, yük maşınları Kornidzor keçid məntəqəsi vasitəsilə, Laçın–Kornidzor hissəsi ilə Ermənistan Respublikasının ərazisinə daxil ola, Ermənistan-Türkiyə sərhədinə qədər yollarımızla hərəkət edərək, Marqara keçid məntəqəsindən Türkiyəyə daxil ola bilərlər. Eyni şey əks istiqamətdə də mümkündür. Bu cür tranzit yüklərin daşınması üçün fiziki infrastruktur hazırdır. De-yure qərar qəbul etmək qalır. Azərbaycan və Türkiyədə maraq olarsa, qərarı qəbul etməyə hazırıq”, –deyən müəllif bildirdiklərinin kökündə dayanan məqsəd Azərbaycanın Naxçıvana quru yolunu kəsməkdir. Yəni, baş nazir hər vəchlə çalışır ki, ölkəmizin əsas hissəsi ilə Naxçıvan arasında əlaqə olmasın.

## Türkiyə amili, Marqara ümidi

Digər tərəfdən, görünür, Paşinyan Türkiyə ilə sərhədlərin açılmasına fokuslanır, nəinki Azərbaycanla normallaşmaya. Onun Marqara sərhəd-buraxılış məntəqəsi üzrə hərəkəti təmin etmək istəyi bundan qaynaqlanır. Sən demə, ölkəmizdən daşınan yüklər Laçından Marqaraya, oradan isə Türkiyəyə daşına bilərmiş. Görəsən, Nikol fərqindədirmi ki, hazırda da Azərbaycandan qardaş ölkəyə Gürcüstan vasitəsilə daşımalar həyata keçirilir. Qazaxdan Sarpa (Gürcüstan-Türkiyə sərhədinə - red.) qədər məsafə 6 saatdır. Laçından Marqaraya məsafə isə 5 saat. Yəni, elə bir ciddi fərq yoxdursa, Azərbaycan Türkiyəyə doğru daşımalarda nəyə görə Gürcüstandan yox, Ermənistandan keçidə üstünlük verməlidir? Həm Nikol Marqara ilə bağlı çox da ümidlənməməli, Avropadakı dostlarının çağırışlarına inanıb oyun qurmamalıdır. Çünki Türkiyə Ermənistanla sərhədlərin açılmasında Azərbaycanın mənafeyini əsas götürür və bu, birmənalıdır.

Təhlükəsizlik zəmanəti deyilən vəzifə də var ki, Nikol məqaləsində bunu “həll edir”. Ermənistanın yükdaşımalarda təhlükəsizliyi təmin edəcəyini vurğulayan Paşinyan “çıxış yolu” tapır. Onun mövzuya dair yazdıqları, bir növ, uşaq başı aldatmağa oxşayır: “Lakin azərbaycanlı sürücülər və yük maşınları üçün psixoloji çətinliklər yaranarsa, o zaman bu yükdaşımalar Ermənistan yollarında həmişə sürmüş və fəal surətdə sürməkdə davam edən Türkiyə TIR-ları tərəfindən təşkil oluna bilər. Digər ölkələrin yük maşınları da eyni şeyi edə bilər”, – deyən erməni baş nazir o qədər primitiv hiyləgərliyə baş vurur ki, heyrətlənməmək mümkünsüzdür. Göründüyü kimi, o, kommunikasiyaların açılması məsələsinə, tamamilə, yeni ovqat gətirmək niyyətindədir. İrəvanın 44 günlük müharibədən sonra formalaşmış regional düzənə meydan oxumaq, onu dəyişdirmək istəyinin daha bir təzahürü də budur.

## Naxçıvana yol və erməni məkri

Yuxarıda üçtərəfli bəyanatın 9-cu bəndini diqqətə çatdırdıq. Qeyd edək ki, Nikol məqaləsində irəli sürdüyü digər fikirlərlə də sənədin mahiyyətinə qarşı çıxıb. Söhbət təhlükəsizlik zəmanətindən düşmüşkən, baş nazirin sözlərinə görə: “Ermənistan heç vaxt yazılı və ya şifahi öhdəlik götürməyib, heç vaxt razılaşmayıb və hətta özünün suverenliyinin, yurisdiksiyasının və ya ərazi bütövlüyünün hansısa şəkildə məhdudlaşdırılmasına, o cümlədən Ermənistan Respublikasının ərazisi vasitəsilə Qərbi Azərbaycandan Naxçıvan Muxtar Respublikasına əlaqə məsələsi ilə bağlı razılığa gələ biləcəyinə eyham vurmayıb”.

Deməli, Paşinyan Naxçıvana yolu “bağlamaqla” məşğuldur və bu azmış kimi, o, Azərbaycanın digər əraziləri ilə muxtar respublikamızı birləşdirən yolun regional kommunikasiyaların açılmasında alt mövzu olduğunu vurğulayıb. Əlbəttə, Paşinyan başlıca mövzunun məhz Naxçıvana yol olduğunu çox yaxşı anladığın sübuta yetirir. Məsələn, yazır ki, rəsmi İrəvan bu məsələdə, guya, son dərəcə yaradıcı və çevik davranıb: “2022-ci ildə Azərbaycanın narahatlığına cavab olaraq, sərhəd-keçid məntəqələrində malların və vətəndaşların pasport, gömrük və digər nəzarət funksiyalarının beynəlxalq ixtisaslaşmış təşkilata verilməsini qarşılıqlı prinsip əsasında təklif etdik. Azərbaycan buna razı olmadı”.

Suverenlik və ərazi bütövlüyündən danışmaq hara, təhlükəsizliyin beynəlxalq şirkətə həvalə olunması hara? Təbii, Azərbaycan Ermənistanın perspektivi şübhəli təklifinə müsbət reaksiya verə bilməzdi. Axı ölkəmiz nəyə görə İrəvanın təklifinə razı olmalıdır? Ortada üçtərəfli bəyanat var. Sənəddə çox aydın şəkildə Naxçıvana yolda maneəsizlik amili vurğulanıb. Hələ biz Rusiya Federal Təhlükəsizlik Xidmətinin funksiyasını bir kənara qoyuruq. Halbuki, məsələ önəmlidir. Çünki üçtərəfli bəyanat məhz Moskvanın təşəbbüsü ilə ərsəyə gəlmişdi. Başqa sözlə desək, Rusiya Ermənistanı Azərbaycanın əlində qalıb məhv olmaqdan xilas etmişdi. Hazırda ağız dolusu təhlükəsizlikdən danışan Paşinyanın bütün bunları, habelə Qərbdəki dostlarının kara gəlməməsini “unutması” isə son dərəcə təhlükəlidir.

## “Ermənistandan Ermənistana yol”?

Qeyd edək ki, N.Paşinyan ötən həftə Ermənistan parlamentində jurnalistlərin suallarını cavablandırarkən, ölkəmizin Naxçıvana yolla bağlı irəli sürdüyü “Azərbaycandan Azərbaycana yol” (heç bir gömrük və sərhəd nəzarəti olmayan yol - red) məntiqinə qarşı olaraq “Ermənistandan Ermənistana yol” ideyasından söz açmışdı. Hərçənd, indi onun Ermənistanın ərazi bütövlüyünün və suverenliyinin toxunulmazlığı klişesinə baş vurması şübhəli durum yaradır. Yəni, demək çətindir ki, rəsmi İrəvan Azərbaycanın digər əraziləri ilə Naxçıvana yolun sərhəd və gömrük nəzarəti olmadan açılmasına paralel Mehri-Yerasx marşrutunun da eyni qaydada fəaliyyət göstərməsinə razıdır.

Əlbəttə, Mehrini Yerasxla birləşdirən yol Naxçıvandan keçsə, bu, Ermənistan üçün sərfəlidir. Hərçənd, o yolun hansı strateji anlam daşıdığı elə də müəyyən deyil. Ancaq Paşinyan əbəs yerə məsələni gündəmə gətirməz. Şübhəsiz, baş nazirin bildirmək istədiyi nə isə var. O zaman onun nə demək fikrində olduğunu təxmin edək.

Bir halda ki, Nikol Ermənistanın ərazi bütövlüyü və suverenliyi klişesini qabardır, deməli, o, Mehri-Yerasx marşrutunu gündəmə gətirməklə, əslində, Azərbaycan qarşısında yeni tələb qoyur. Yəni, Ermənistanın iki bölgəsini birləşdirən yolun Naxçıvan keçidini müəyyənləşdirir. Bunun, bir növ, Bakının öhdəliyi kimi qeydə alınmasına çalışır. Halbuki, belə çalışma mənasızdır. Çünki əgər Ermənistan ərazi bütövlüyü və suverenliyi klişesindən kənar dayansa, müvafiq surətdə “Azərbaycandan Azərbaycana yol” məntiqi həyata vəsiqə qazansa, bu, hər bir halda etimad mühiti formalaşdıracaq, dövlətlərarası münasibətlər qaydasına düşəcək. O zaman istəristəməz Ermənistanın Mehridən Yerasxa getmək üçün Naxçıvandan keçməsi mümkün duruma gələcək.

Bir nüansa da diqqət yetirək. Mehridən Yerasxa yol indi də var və ermənilər həmin yolda hərəkət edirlər. Naxçıvan erməni avantürasına görə Azərbaycanın digər ərazilərindən ayrı düşüb. Deməli, heç bir halda “Azərbaycandan Azərbaycana yol”a qarşı “Ermənistandan Ermənistana yol” təşəbbüsü irəli sürülə bilməz.

## Naxçıvana İrandan yol

Məlumdur ki, Ermənistan Naxçıvana yolun maneəsizliyi prinsipini qəbul etməsə, Azərbaycan qədim diyarımıza yolun İran variantı üzərində dayanacaq. Bununla əlaqədar rəsmi Tehranla razılıq da mövcuddur. Axı işğal illərində vətəndaşlarımız Naxçıvana doğru məhz İslam respublikası ərazisindən hərəkət edib, heç bir təhlükəsizlik sıxıntısı yaşamayıblar.

Yəni, Naxçıvana İrandan yola dair müsbət presedent var. Bunu Paşinyan bilir və ona görə məqaləsində Azərbaycanın İran seçimi barədə qeydlər aparır. Daha doğrusu, o, ölkəsinin Tehranın Naxçıvana yol baxımdan şərtlərinin eynisini təmin etməyə hazır olmasından söz açır. Amma çox nahaq yerə. Birincisi, Azərbaycan üçün İran Ermənistan deyil, ümumən, Ermənistan İran ola bilməz. İkincisi, Tehran Naxçıvana yolda sərhəd və gömrük nəzarəti tətbiq etsə də, bu, ölkəmizə məqbuldur. Çünki birincinin təhlükəsizlik təminatlarına etimad nəinki var, eyni zamanda, məsələ tarixi əhəmiyyət daşıyır. Ermənistana isə inam yoxdur və bu da tarixə söykənir. Güman edirik, təkcə ötən əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəllərində Naxçıvana gedən yoldakı qatarlarımızın Mehri ərazisində necə daşa basıldığını xatırlatmaq kifayətdir.

## Məqsəd “vasitəyə” bəraət qazandırmaz!

Sonda bir suala aydınlıq gətirək. N.Paşinyan bu məqaləni nə üçün qələmə alıb? Hesab edirik ki, ayının min oyunu bir armudun başında olduğu kimi, Nikolun da “cəfəngiyatı” hər şeyin Azərbaycanın razılığından asılı olduğunu bildirməyə yönəlib. Yəni, İrəvan sülhün regional kommunikasiyaların açılması kimi əsas seqmenti ilə razıdır, qalır Bakının məsələyə müsbət yanaşması.

Aydındır ki, yuxarıda diqqətə çatdırdığımız məqamlara görə ölkəmizin Paşinyanın yazdıqlarına kompleks şəkildə pozitiv yanaşması mümkünsüzdür. Şübhəsiz, Nikol bunun fərqindədir. Ancaq əvvəldə də vurğuladığımız kimi, məqsəd vasitəyə bəraət qazandırır. Ermənistanın məqsədi sülhdən yayınmaq, Paşinyanın məqaləsi isə vasitədir. Yəni, rəsmi İrəvan Azərbaycanı barış mühitinin formalaşmamasına görə günahkar çıxarmağa çalışır.

## Konpensasiya və ya təzminat

Ən sonda onu da deyək ki, Naxçıvana yol Ermənistan üçün otuz ilə yaxın həyata keçirdiyi işğalçılıq siyasətinin, bir növ, konpensasiyasıdır. Bir ölkə gəlib digərinin ərazisini ələ keçirsin, əhalisini qovsun və bunun müqabilində heç bir təzminat ödəməsin? Dünyada belə təcrübə yoxdur! Yaxşı olar ki, Paşinyan yuxusunu qələmə almaqdansa, reallıq hissini bərpa etsin. Qərbin müxtəlif kluarlarında, anti-Azərbaycan dairələrində hazırlanan planların reallaşdırılmasına cəhd göstərməsin. Nəzərə alsın ki, indiyədək özgəsinin ipi ilə quyuya enmək erməni avantürizminin davamı baxımından heç bir fayda verməyib, əksinə, zərər gətirib. Ermənistanın növbəti zərəri qarşılaması mümkünsüzdür. Çünki bunun miqyası daha böyük olacaq.

*Əvəz CAHANGİROĞLU*
*XQ*

(əvvəli 1-ci səhifədə)

# Diplomatikliyə nə ehtiyac?

Rusiya XİN humanitar məsələlərin ikitərəfli Ermənistan–Azərbaycan danışıqlarının gündəliyinə salınmasının Bakı ilə İrəvan arasında etimad mühitinin yaradılmasına töhfə verəcəyinə əminliyini açıqlayıb. İlk baxışdan, bu fikirdə elə bir fərqli nüans nəzərə çarpmır. O anlamda ki, həqiqətən, iki Cənubi Qafqaz ölkəsi arasında etimad mühitinin formalaşmasına ehtiyac var. Şübhəsiz, bu mühit sülhün uzunmüddətli kazusu kimi də çıxış edir. Hesab edək ki, humanitar məsələlərin də Azərbaycan–Ermənistan danışıqlar prosesində yer alması önəmlidir.

Humanitar məsələlərin arealı isə həddən artıq genişdir. Məsələn, bilinməlidir ki, erməni quldurları 1992-ci ilin fevralında Rusiyanın 366-cı motoatıcı diviziyasının köməyi ilə qətlə yetirdikləri Xocalı sakinlərini toplu halda harada basdırıblar? Axı, Xocalı faciəsi nəticəsində itkin düşmüş dinc azərbaycanlıların sayı yüzlərlə, hətta minlərlədir. Xocalı sakinləri tək deyillər, bu kateqoriyadan olan digər vətəndaşlarımız da var. Yəni belə məsələlər Azərbaycan–Ermənistan danışıqlarının predmetinə çevrilə, təmasların humanitar aspektini müəyyənləşdirə bilər.

Ancaq indiki halda Rusiya XİN-in “humanitar məsələlərin ikitərəfli Ermənistan-Azərbaycan danışıqlarının gündəliyinə salınması” məntiqi bir qədər qəribə gəlir. Diplomatiklik də elə bununla bağlıdır. Birincisi, yuxarıda da vurğuladığımız kimi, erməni mediasının sualı konkret olaraq Bakıda məhkəməsi davam edən şəxslərlə əlaqədardır. Yəni humanitar məsələlər dedikdə, nədənsə, məhz həmin şəxslərin vəziyyətləri üzərində dayanılır. Onların isə erməni tərəfin iddiasının əksinə olaraq, hansısa problemləri yoxdur. Güman edirik ki, Moskva da belə demək mümkünsə, problem axtarışına çıxmır.



Azərbaycan məhkəməni həm beynəlxalq humanitar hüququn, həm də ölkəmizin qanunvericiliyinin bütün normalarını gözləməklə həyata keçirir. Ümid edirik ki, mövcud məqam, həm də məhkəməsi davam edən ermənilərin dinc azərbaycanlılara qarşı olmazın cinayətlər törətməkdə təqsirləndirildikləri Rusiyada nəzərə alınır. Əlbəttə, həmin cinayətlərin Rusiyanın sabiq rəhbərliyinin “xeyir-duası” ilə gerçəkləşdirilməsi də faktdır. Humanitar baxış nöqteyi-nəzərindən Moskvanın elə bunu düşünməsi kifayətdir. Düşünürmü?

İkincisi, Rusiya XİN açıqlamasında “humanitar məsələlərin ikitərəfli Ermənistan-Azərbaycan danışıqlarının gündəliyinə salınması” mövqeyini ortaya qoyarkən, bildirir ki, bu, Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladıqları üçtərəfli razılaşmalardan qaynaqlanır. Anlayırıq, Moskva, üçtərəfli Bəyanat məntiqinə sadiqdir. Amma söhbət Ermənistan rəhbərliyinin qətiyyən məhəl qoymadığı sənəddən gedir. Görəsən, mövcud məqam Rusiyanı düşündürürmü? Düşündürsə də, duruma qarşı çıxacaq mexanizmi yoxdur.

Ancaq Rusiya XİN-in açıqlamasından elə başa düşülə bilər ki, “qaçqınların hüquqlarına hörmət, mədəni, tarixi və dini irsin qorunması, hərbi əməliyyatlar zamanı itkin düşənlərin axtarışı, məhbusların mübadiləsi kimi məsələlərin həllinin zəruriliyi ilə bağlı öhdəliklərimizi təsdiq edirik” fikri üçtərəfli bəyanatlar məntiqindən qaynaqlanır. O zaman birinci qaçqınların hüquqlarının qorunması məsələsi üzərində dayanaq.

Bəli, üçtərəfli Bəyanatın qaçqınların qayıdışı məntiqi mövcuddur. Bu məntiqə görə, 44 günlük müharibə zamanı Qarabağı tərk etmiş ermənilər Rusiya sülhməramlılarının vasitəsilə bölgəyə qayıdırlar. İndi, tutalım, Xocalıda məskunlaşma var. Axı mövcud proses heç də üçtərəfli bəyanatla reallaşmadı. Təcrübə göstərdi ki, həmin sənədin qaçqınların qayıdışı müddəası yalnız hərbi əməliyyatlar zamanı Qarabağı tərk etmiş ermənilərə şamil edildi, öz dədə-baba yurdundan qovulmuş və otuz ilə yaxın müddətdə məcburi köçkün həyatı yaşamış azərbaycanlılara yox! Yanaşma nə dərəcədə ədalətlidir?

(ardı 4-cü səhifədə)

# Ermənistanın baş naziri “məğlub” damğasından qurtulmağa çalışır

## *İrəvanın COP29-a gəlməməsi ikitərəfli sülh danışıqlarının dinamikasına zərbə vurdu*

**Ermənistanın Azərbaycanla sülhə gəlməsi hay cəmiyyətinin ona nə dərəcədə hazır olmasından birbaşa asılıdır. Nikol Paşinyan hakimiyyəti bu problemi həll edə biləcəkmi? 2024-cü ildə bu sualın cavabına yaxınlaşan İrəvanı kənar güclər yolundan sapdırdılar. Rəsmi İrəvan sülhə hazır olduğunu bəyan etsə də, Ermənistan cəmiyyətində fərqli ovqatın hökm sürdüyü sirr deyil. İkitərəfli danışıqların dinamikasına xarici amillərin təsiri də müşahidə olunmaqdadır. Bu və digər suallara Qafqaz Siyasi Analiz Mərkəzinin direktoru Əhməd Əlili ilə söhbətimizdə aydınlıq gətirməyə çalışdıq.**



***– Əhməd bəy, son vaxtlar Ermənistanla sülh danışıqlarının dinamikasında hiss olunan durğunluğun səbəbləri barədə nə deyərdiniz?***

– Əvvəlcə onu qeyd edək ki, Ermənistan nümayəndə heyətinin SOP29-a gəlməməsi 2024-cü il ərzində ikitərəfli sülh danışıqlarının dinamikasına ciddi zərbə vurdu. Rəsmi İrəvan bu məsələdən sabotaj məqsədilə istifadə etməyə, bir sıra məsələlərdə Azərbaycandan güzəştlər qoparmağa çalışırdı. Azərbaycan isə BMT-nin İqlim Sammitindən sülh bayramı kimi yararlanmaq niyyətində idi. Yəni, dünyaya göstərmək istəyirdi ki, Azərbaycan–Ermənistan münasibətlərindəki gərginlik keçmişdə qaldı. Artıq iki ölkə sülh istiqamətində müəyyən irəliləyişə nail olmuşdu. Amma Ermənistan rəsmilərinin sammitə gəlməməsi sülh prosesində süstlüyün yaranmasına səbəb oldu. Məhz bu səbəbdən Azərbaycanın mövqeyində 2011-2014-cü illərdə müşahidə olunan durum özünü göstərdi. O zaman Bakı “danışıqlar naminə danışıqlar” prinsipindən imtina etmişdi.

2024-cü ilin noyabrından etibarən Azərbaycan həmin mövqedən çıxış edir və sözünün üstündə durur. Bundan sonrakı çağırışlar Ermənistan tərəfindən cavablandırılmalıdır. Top onların meydançasındadır. Hiss olunurdu ki, Ermənistanın hərbi-siyasi rəhbərliyi tez-tez beynəlxalq konfranslarda müxtəlif bəyanatlar verməklə Azərbaycandan ictimai reaksiya qoparmağa çalışır. Fəqət, Bakı buna sükutla cavab verirdi ki, bu da İrəvan isteblişmentində gərginliyin artmasına səbəb olurdu. Həmin gərginlik özünü çeşidli formalarda göstərirdi. Misal üçün, İrəvan ATƏT-in Minsk qrupu ilə bağlı Bakının irəli sürdüyü təklifi dinləməyə hazır olduğunu bildirdi. Bu, artıq gecikmiş jest idi. Azərbaycan tərəfinin Paşinyan komandasına susmaqla psixoloji təsiri hətta Hayastan rəhbərliyinin konstitusiyada dəyişikliyə hazır olduğu barədə bəyanat verməsi ilə nəticələndi. Doğrudur, bunlar sülh danışıqlarında pozitiv gözləntilərə yol açdı. Nəticədə Azərbaycan Xarici İşlər Nazirliyi sülh sazişi ilə bağlı Ermənistanın son təkliflərinə öz cavabını göndərdi.

***– Sazişin mətnində öz əksini tapmayan prinsipial məsələlərin sonrakı mərhələyə saxlanılması nəticəyə təsir göstərə bilərmi?***

– Məsələ ondadır ki, Zəngəzur dəhlizinin açılmasının, eləcə də Bakı üçün vacib digər məsələlərin müzakirəsi danışıqlardan sonraya razılaşdırılmışdı. Belə yanaşma 2024-cü ildə danışıqlarda müşahidə olunan pozitiv dinamikanın nəticəsində formalaşmışdı. O mərhələdə iki ölkə arasında hər hansı çərçivə sənədinin imzalanması gözlənilirdi ki, bundan sonra COP29-un tribunasından dünyaya sülh müjdəli mesajlar veriləcəkdi. İrəvanın təqsiri ucbatından bu plan alınmadı. İndiki şəraitdə Azərbaycan tərəfi yenə də dediyiniz prinsipial məsələləri sonraya saxlamaq niyyətindədirmi? Bu, olduqca vacib sualdır. Bəli, COP29-a qədərki reallıq sammitdən sonrakı reallıqdan tamamilə fərqlənir. Çox güman ki, Azərbaycan özü üçün strateji əhəmiyyət daşıyan bir sıra məsələlərin uzun müddətə saxlanmasında maraqlı deyil.

***– Sizcə, ikitərəfli danışıqlar prosesində İrəvana kənar təzyiqlər davam edirmi?***

– Əgər Azərbaycanın yaratdığı psixoloji gərginliyi kənar təsir hesab etmək olarsa, bunun ciddi effekt yaratdığını deyə bilərik. Eləcə də Avropa İttifaqının Ermənistandakı mülki monitorinq missiyası özünün test-sınaq mərhələsini yaşamaqdadır. Narahatedici amil odur ki, həmin missiyanın orada olması Ermənistanı Azərbaycanla mövcud problemlərin həllindən, xüsusilə də sülh prosesindən kənarda saxlayır. Bu o deməkdir ki, guya, Aİ Ermənistana daha yaxın mövqe sərgiləyir, onun emissarları bu ölkənin ərazisindədirlər və “binokllu diplomatlar” şərti sərhədin o üzündən Azərbaycanın mövqelərini müşahidə edirlər. Əslində, bu, olduqca incə və psixoloji məqamdır. Yəni, bütün bunların məcmusunu İrəvana kənar təzyiqlər kimi qəbul edə bilərik. Psixoloji “savaş” ortadadır. Sanki, “gözünü ilk qırpanın” kim olacağını gözləmə prinsipi aparılır. Keçən il gördük ki, bu qarşılaşmada “gözünü ilk qırpan” tərəf Ermənistan oldu. Həm də bunun iki dəfə şahidi olduq. Birincı “qırpma” ATƏT-in Minsk qrupu ilə bağlı məsələdə, ikinci isə konstitusiyaya dəyişiklik məsələsində özünü göstərdi. Ona qədər ölkəsinin ana qanununa heç bir dəyişikliyə ehtiyac duymadığını bəyan edən Paşinyan bunun hansı problemlərə aparılb çıxara biləcəyini anladı.

***– Tərəflərin beynəlxalq məhkəmələrə qarşılıqlı iddialardan imtinası Azərbaycanın Ermənistandan təzminat tələbindən əl çəkməsi anlamına gəlirmi?***

– Bu, hələlik qeyri-müəyyənlik içində olan məsələlərdəndir. Söhbət ondan gedir ki, Ermənistan tərəfi beynəlxalq məhkəmələrə ümumi xarakterli müraciətlərdən geri çəkiləcəyi ilə bağlı bəyanat verib. Amma burada bəzi məqamlar ona gətirib çıxarıb ki, bunun hüquqi tərəfinin necə reallaşacağı hələ məlum deyil. Məsələn, mümkündür ki, Ermənistan hökuməti məhkəməyə müraciət etməsin, amma xaricdəki diaspor nümayəndələri belə bir addım ata bilərlər. Hələlik təzminat tələbi ilə bağlı bəzi məqamlar açıq qalmaqdadır. Belə hesab edirik ki, Azərbaycanın siyasi rəhbərliyi bu məsələyə yanaşmada da konkret və aydın mövqe ortaya qoyacaq.

***– Paşinyan danışıqlarda daha çox hansı güzəştlərə ümid edir?***

– Ermənistan baş nazirinə elə güzəştlər lazımdır ki, o, daxili auditoriyaya uduzmadığını göstərə bilsin. Nikol Paşinyan 2020-ci il müharibəsində uğradığı ağır məğlubiyyəti Robert Koçaryan və Serj Sarkisyanın ayağına yazmağa çalışır ki, ictimaiyyətə özünün deyil, məhz onların uduzduğunu nümayiş etdirsin. Yəni, ictimai rəyi inandırmaq istəyir ki, onlar həm diplomatik müstəvidə, həm də hərbi sahədə vəziyyəti elə bərbad günə qoymuşdular ki, onun Azərbaycan Ordusuna müqavimət göstərmək gücü olmayıb. Ona görə indiki şəraitdə Paşinyanın Azərbaycanla elə bir razılaşmaya ehtiyacı var ki, hər hansı piar kampaniyada özünü qalib tərəf kimi göstərməyi bacarsın. Belə hesab edə bilərik ki, Ermənistan baş naziri üçün güzəştin real effekti, konkret nəticəsi o qədər də maraqlı deyil. Ondan ötrü güzəştin ictimai tərəfi, rəsmən elan olunmayan, daxili auditoriyaya onu qalib kimi təqdim etməyə imkan verən görünməyən tərəfi daha cəlbedicidir.

***– ABŞ-da yeni hakimiyyətin Qafqaz siyasətində hansı korrektələri etməsi gözləniləndır?***

– İndiki vəziyyətdə bu məsələ tam aydın deyil. Çünki ABŞ-ın Rusiya, Yaxın Şərq, o cümlədən Türkiyə ilə münasibətləri aydınlaşandan sonra Cənubi Qafqazla bağlı siyasətinin konturlarının görünəcəyinə ümid bəsləyə bilərik. Bunların baş vermədiyi indiki durumda Ağ evin Qafqaza münasibəti qeyri-müəyyən məsələ olaraq qalır. Donald Tramp Administrasiyasının bu məsələlərə yanaşması ondan ibarətdir ki, qısa müddət ərzində, o, dövlətin bürokratik institutlarının gücünü bir nöqtəyə yönəltməyi bacarıb. Bizə görə, Trampın Cənubi Qafqaza münasibəti qısamüddətli olacaq. Azərbaycan ictimaiyyəti hazır vəziyyətdə bunu gözləyir.

***Söhbəti qələmə aldı:***
***İmran BƏDİRXANLI***
***XQ***

# Ədalət yarımçıq olmur!

**(əvvəli 1-ci səhifədə)**

A.Hacızadə şərhini maraqlı paradiqma ilə tamamlayır: “Həqiqəti bərqərar etmək, qurbanlara ədaləti çatdırmaq və qanunun aliliyini təmin etmək üçün beynəlxalq





hüquqi standartlara riayət etməklə ədalətli məhkəmə araşdırması vacibdir. Yalnız həqiqəti söyləməklə, yaraları sağaltmaqla sülh və barışıq cəzasızlığa qalib gələ bilər”.

Bəli, bəşəriyyətin birgəyaşayış qaydalarına, beynəlxalq hüquq normalarına əməl etməklə ədaləti tam bərpa etmək, möhkəm sülhə gəlmək mümkündür. Bu zaman cəzasızlıq mühitinin ləğv edilməsi isə başlıca şərtlərdən sayılır.

**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi icmalçı Elxan Şahinoğlu**



mövzu ilə bağlı XQ-yə açıqlamasında bildirdi ki, sülh sazişinin imzalanması, eləcə də digər məsələlərin həlli buna qədər törədilən cinayətlərin unudulması, yaxud arxa plana keçməsi demək deyil: “Dünyanın tarixi onu göstərir ki, müharibələrə rəvac verənlər, hərbi cinayətlər törədənlər bütün hallarda məsuliyyət daşımalıdırlar. Elə götürək Birinci dünya müharibəsini. Onun təşəbbüskarlarından biri o zamankı Almaniya hökuməti idi. Müharibənin yekunlarına uyğun olaraq, reparasiya ödəməyə məkum edildi. Yəni, bu ölkə bəzi ərazilərini itirdi. İkinci dünya müharibəsinin başlanmasının səbəbkarı yenə Almaniya idi. Amma sonluq necə oldu? Nürnberq Məhkəməsi təşkil edildi və cinayətkarlar cəzalandırıldı. Bu dəfə də ortaya reparasiya məsələsi atıldı. Nəticədə Almaniya bir neçə yerə parçalandı. Bu, ölkənin törətdiyi cinayətlərə görə verilən cəza idi. Doğrudur, ötən əsrin 90-cı illərinin əvvəllərində yenidən birləşməyə nail oldu. Amma bu dəfə də cəzasını aldı.

İndi gələk Ermənistanın Azərbaycana qarşı torpaq iddiasının üzərinə. 1987-88-ci illərdə separatçılığa başlayan ermənilər az sonra silahlanaraq Azərbaycan kəndlərinə basqınlar etdilər. Erməni faşistləri Xocalı soyqırımını törətdilər. İndi iki ölkə arasında sülh sazişi imzalansa belə, bu o demək deyil ki, törədilən cinayətləri unuduacağıq, o cinayətkarları axtarmayacağıq, onların məhkəmələrini keçirməyəcəyik. Xeyr! Necə ki hazırda Bakıda onlardan bir qrupunun məhkəməsi keçirilir, o birilərini də eyni aqibət gözləyir. Koçaryanı, Sarkisyanı və digərlərini Azərbaycan İnterpol xətti ilə beynəlxalq axtarışa verib. Nə vaxtsa sülh sazişini imzalamaqla biz Koçaryanı, Sarkisyanı bağışlamalı deyilik. Hamısı məsuliyyətə cəlb olunmalı, cəzalarını almalıdır. Azərbaycan digər tərəfdən sülh quruculuğu fəaliyyətini davam etdirir. İrəvan Bakının şərtlərini qəbul edəcəyi təqdirdə sülh sazişi imzalanmalıdır. Azərbaycan Prezidenti İlham Əliyevin “Qafqaz evi” ideyası gerçəkləşməli, nəqliyyat kommunikasiyalar işə düşməlidir. Bununla paralel olaraq Azərbaycan xalqına, dövlətinə qarşı cinayətlər törədənləri məsuliyyətə cəlb edilməsi isə ədalətin öz yerini tutması demək olacaq”.

*

Ədalətli sülhün əldə olunması savaşda udanın deyil, həm də uduzanın maraqlarına cavab verir. Ən azı ona görə ki, mübahisəyə səbəb olmuş məsələnin ədalətli həlli bir daha tərəflər arasında narazılığın yaranmayacağını təmin edir.

Dörd ildən çoxdur “nə sülh, nə müharibə” şəraitində yaşayan Azərbaycan üçün sülhün təminatı hər şeydən önəmlidir. 30 ilə yaxın müddətdə Ermənistanın torpaqlarımızı işğalının ağrı-acısını yaşayan, müharibənin bütün əzablarını görən xalqımız, qaçqın, köçkün problemi ilə üzləşən Azərbaycan dövləti bölgədə davamlı sülhün, əmin-amanlığın əldə olunması üçün bütün imkanlardan istifadə edir. Rəsmi Bakı sülh naminə aparılan müzakirələrdə, beynəlxalq təşkilatların tribunalarından özünün sülhsevər siyasətini diqqətə çatdırır. Azərbaycan Prezidenti İlham Əliyev aparılan danışıqların sülhlə başa çatmasından ötrü siyasi iradə göstərir, bölgədə əmin-amanlığın tərəfində olduğunu nümayiş etdirir.

Azərbaycan sülhə qarşı çıxanların layiqli cavabını 44 günlük Vətən müharibəsində verdi. Öz ərazisində ədaləti, ərazi bütövlüyünü bərpa etdi.

4 il 4 ay bundan əvvəl Vətənimiz uğrunda savaşa gedərkən çox sevincli, qürurlu idik. Ordu–Xalq–Lider birliyini ortaya qoymaqla üçrəngli bayrağımızı işğaldan azad etdiyimiz torpaqlarda dalğalandıranda, yəqin ki, həyatımızın ən xoşbəxt günlərini yaşayırdıq. Həm də ədalətin təntənəsinə şahidlik edirdik.

Bu gün Azərbaycan yenə ədalət tələb edir. Ədalət ədalətsizliyi yaradan şərtlər aradan qaldırılanda, onu törədənlərin hamısı mühakimə ediləndə tam olur. Biz yarımçıq deyil, tam ədalət istəyirik!

***İ.HƏSƏNQALA***
***XQ***

# Diplomatikliyə nə ehtiyac?

**(əvvəli 3-cü səhifədə)**

Digər tərəfdən, əgər Rusiya lokal xarakterli antiterror tədbirlərindən sonra Qarabağı tərk etmiş erməniləri də qaçqın kimi nəzərdə tutub onların qayıtmaları məsələsini qabardırsa, bildirməliyik ki, bunun üçtərəfli bəyanat məntiqinə qətiyyən aidiyyatı yoxdur. Çünki Ermənistan həmin sənədə əməl etsəydi, nə antiterror tədbirləri olardı, nə də Qarabağdan Ermənistana köçü yaşanar, azərbaycanlılarla ermənilər dinc yanaşı yaşayardılar. Yeri gəlmişkən, Rusiyanın düşüncəsindəki beynəlmiləl konqlamerat da elə bu idi. Alınmadı. Eləcə də Moskvanın bu konqlameratın formalaşmasından sonra Qarabağın statusu ilə əlaqədar danışıqların sonraya saxlanılmasına dair istəkləri puça çıxdı...

Rəsmi İrəvan bacardıqca çalışmışdı ki, üçtərəfli bəyanat Qarabağdakı separatçı rejim üçün sipər olsun. Rusiya sülhməramlıları da onlara bunda xeyli kömək göstərdilər. Amma kömək də bir yerə qədər idi. Çünki Ermənistan rəhbərliyi, necə deyərlər, bir əldə iki qarpız tuta – həm Qərbi, həm də Rusiyanı seçə bilməzdi. Tərəzinin Qərb gözü ağırlıq edirdi. Elə isə gələk, Rusiya XİN-in açıqlamasındakı “mədəni, tarixi və dini irsin qorunması, hərbi əməliyyatlar zamanı itkin düşənlərin axtarışı, məhbusların mübadiləsi” müddəasının üzərinə.

Yada salaq ki, ötən ilin sonlarına doğru Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova keçirdiyi ənənəvi brifinqdə erməni jurnalistin Azərbaycan tərəfinin Qarabağda, guya, yaşayış məntəqələrini dağıtmasına dair sualını, necə deyərlər, ağzında qoymuşdu. Xanım Zaxarovanın xatırlatması Qarabağın Azərbaycan ərazisi olmasına köklənmişdi. Yəni Azərbaycan öz suveren ərazisində arzuladığı işi görə bilər. O zaman biz indi nə üçün mövzunu danışıqlar gündəliyinə daxil etməliyik?

Ümumən, Ermənistanla danışıqlarda diferensiallaşma vacibdir. Yəni mövzular bir-birindən ciddi şəkildə ayrılmalıdır. Məsələn, mədəni irs hər bir halda Azərbaycanındır. Qarabağda erməni mədəni-tarixi irsi deyilən bir şey isə yoxdur. Hətta olsaydı belə, bunun Ermənistana nə dəxli? Bu gün ölkəmizdə rus pravoslav kilsələri fəaliyyətdədirsə, o demək deyil ki, onlarla bağlı hansısa məsələ Moskva ilə danışıqların predmetini təşkil etməlidir. Azərbaycan özünün multikultural xəttinə, ənənələrinə sadiqdir və bunu Rusiyada da, dünyada da gözəl bilirlər.

Hərbi əməliyyatlar zamanı itkin düşənlərin axtarışına, məhbusların mübadiləsinə gəlincə, bəli, bu da Bakı və İrəvan arasındakı müəyyən təmasların gündəliyini təşkil edə bilər. Ancaq məsələnin sırf sülh gündəminə heç bir aidiyyatı yoxdur. Sülhün konkret tezisləri və şərtləri var ki, Ermənistan onlara əməl ermək istəmir, “Azərbaycanda saxlanılan erməni məhbuslar məsələsi”ni də məhz bu səbəbdən qondarır. Mövcud durumda isə Rusiya XİN “Biz azərbaycanlı və erməni tərəfdaşlarımıza tələb olunan yardımı göstərməyə hazırıq”, – deyə mövqe bildirir. Axı göstəriləcək hansısa yardım ola da bilməz. Məhkəmə Azərbaycanın daxili işidir və ona qarışmağa heç bir dövlətin, o cümlədən Rusiyanın ixtiyarı yoxdur.

Sonda əvvəldə üzərində dayandığımız bir fikrə qayıdaq. Ola bilər, Rusiya XİN-də vurğuladıqlarımızın fərqindədirlər. Qurumun erməni mediasının sorğusuna cavabının diplomatik olduğuna dair qənaətimiz də bundan qaynaqlanır. “Əmma”ya gəlincə, hesab edirik ki, ümumən diplomatik münasibətə ehtiyac yoxdur. Rəsmi Moskva erməni mediasının sorğusunun predmeti ilə özünün onsuz da heç bir nişanəsi qalmayan vasitəçilik təsəvvürünü bir-birinə qarışdırmamalı, həssas davranmalıdır.

Ümumən, belə rəy yaradılmamalıdır ki, Bakıda məhkəməsi davam edən ermənilərlə əlaqədar durum humanitar məsələ kontekstində dəyərləndirilə bilər. Həmin şəxslər konkret cinayət əməlində ittiham olunurlar. Əgər, günahları sübuta yetirilməyəcəksə, azadlığa çıxacaqlar. Yox, əgər onlara qarşı irəli sürülmüş ittihamlar təsdiqini tapacaqsa, cəzalarını alacaqlar. Vəssalam!

***Ə.RÜSTƏMOV***
***XQ***

# Baş prokuror Beyləqanda vətəndaş qəbulu keçirib



**Martın 4-də Baş prokuror Kamran Əliyev Beyləqan rayon prokurorluğunun inzibati binasında Beyləqan, Füzuli, İmişli, Sabirabad, Saatlı, Xocavənd, Cəbrayıl rayonları və digər bölgələrdən olan vətəndaşları qəbul edib.**

Qəbulda iştirak edən 25 vətəndaşın müraciəti üzrə konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Sonra prokurorluq əməkdaşları ilə görüşən Kamran Əliyev onlara konkret tapşırıqlar verib, “Elektron prokurorluq” informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olaraq, işin daha da təkmilləşdirilməsi və səmərəliliyin artırılmasına dair təklifləri dinləyib.

***XQ***

# Terrorsuz Türkiyə yolunda yaşıl işıq

## PKK-nın silahı yerə qoyması ölkəni yeni gələcəyə aparacaq



**Türkiyədə terror problemi illərdir qardaş ölkənin başağrısına çevrilib. Ankara mövcud enerjisini bu beynəlxalq bəlaya sərf etməklə siyasi, iqtisadi və sosial hədəflərindən xeyli geri düşüb. Türkiyə iqtisadi gəlirlərinin böyük bir hissəsini terrorla mübarizəyə sərf etməyə məcbur olub. Ötən əsrin 70-80-ci illərində Türkiyə dövlətinə qarşı qurulmuş PKK terror təşkilatı 40 minə yaxın insanın ölümünə səbəb olub. Bu terror təşkilatı ASALA erməni terror təşkilatının davamıdır və təsadüfi deyil ki, PKK-lı terrorçuların içərisində erməni millətindən olanlar da kifayət qədərdir. Onlar bu gün də fəaliyyət göstərməkdədirlər.**

"Apo" ləqəbi ilə tanınan Abdullah Öcalan PKK-nın qurucularından və ilk liderlərindəndir. 1978-ci il noyabr 28-də Diyarbakırın Lice rayonunda qurulan PKK Avropa Birliyi, Amerika Birləşmiş Ştatları (ABŞ), Böyük Britaniya, Fransa, Türkiyə və bir çox başqa dövlətlər tərəfindən rəsmən terror təşkilatı elan edilib.

Öcalan 1999-cu ildə Nayrobidə Keniya təhlükəsizlik qüvvələri tərəfindən ələ keçirildikdən sonra 15 fevral 1999-cu ildə Türkiyəyə təhvil verilib. 1999-cu il aprelin 28-də Türkiyə Cəza Məcəlləsinin 125-ci maddəsinə əsasən, vətənə xəyanət maddəsi ilə "Apo" barəsində ölüm hökmü istənilib. O, 1999-cu il iyunun 29-da "silahlı terror təşkilatı yaratmaq və ona rəhbərlik etmək" ittihamı ilə edam cəzasına məhkum edilsə də, sonradan cəzası ömürlük həbslə əvəz edilib. "Apo" hazırda İmralı həbsxanasında cəzasını çəkməkdədir.

*

Ötən ilin sonlarında partiyasının qrup toplantısında çıxış edən Milliyyətçi Hərəkat Partiyasının (MHP) lideri Dövlət Baxçalı İmralı həbsxanasında olan Kürdüstan Fəhlə Partiyasının (PKK) lideri Abdullah Öcalana bir daha çağırış edərək, "terrorçu liderə qarşı təcrid aradan qaldırılarsa, gəlsin, Türkiyə Böyük Millət Məclisinin DEM (Xalqların Azadlıq və Demokratiyası) Partiyasının qrupunun toplantısında danışsın" – demiş və əlavə etmişdi ki, "terrorun tamamilə sona çatdığını, təşkilatın ləğv edildiyini bəyan etsin". D.Baxçalı, həmçinin "bununla bağlı qanuni tənzimləmələr edilməli və bundan faydalanmaları üçün yollar açılmalıdır" – deyə bildirmişdi. O qeyd etmişdi ki, "hər kəs ittifaqda olsa, əlimizi deyil, bədənimizi belə daşın altına qoymağa, üzərimizə düşəni etməyə hazırıq. Nə Qəndil, nə də Ədirnə, ünvan İmralıdan DEM-ə qədər uzanmalı, bu ciddi və tarixi terror problemi ölkənin gündəmindən tamamilə çıxarılmalıdır".

Gözlənilən an gəldi və DEM-in partiya heyəti Öcalanla son görüşdən sonra İstanbuldakı "Elite World" otelində Xalqların Azadlıq və Demokratiya Partiyasının (DEM) millət vəkillərinin keçirdiyi "Sülh və demokratik cəmiyyətə çağırış" toplantısında Öcalanın çoxdan gözlənilən açıqlaması oxundu.

Abdullah Öcalan PKK-ya və bütün terrorçu qruplara çağırış edərək, PKK-nın qurultayının keçirilməsi, təşkilatın ləğv edildiyini elan etməsi, silahların yerə qoyulması mesajlarını çatdırdı.

Bu çağırış Türkiyə cəmiyyəti tərəfindən müsbət qarşılanmışdır. Prezident Rəcəb Tayyib Ərdoğan Ədalət və İnkişaf Partiyasının (AKP) genişləndirilmiş vilayət başçıları yığıncağındakı çıxışında "Türkiyənin gələcəyində terrora yer olmadığını hər kəsin anlamasını gözləyirik. Ümid edirik ki, Xalq Birliyinin açdığı tarixi fürsət pəncərəsi şəxsi mənfəətlərə qurban verilməyəcək". Terrorla bağlı Türkiyə Böyük Millət Məclisi və siyasi aktorlar da daxil olmaqla bütün maraqlı tərəflərə müraciət edən Ərdoğan "millət olaraq terrorsuz Türkiyəni birlikdə qurmaq istəyirik" dedi. Bu zaman ana müxalifət partiyası – CHP lideri Özgür Özəl Baxçalının Öcalanı TBMM-ə gəlib, terror təşkilatını silahı yerə qoymağa çağırmasından danışarkən, "mən də əlimi qaldırıram" demişdi. Türkiyə siyasi elitasında bu məsələ ilə bağlı fərqli fikirlər səsləndirilsə də, terrorun bitməsini hər kəsin istədiyi anlaşılandır.

PKK Abdullah Öcalanın fevralın 27-də təşkilata silahı yerə qoyaraq özünü ləğvetmə çağırışı ilə atəşkəs elan etdiyini açıqlaması müxtəlif kürd qruplarında müzakirələrə səbəb olub. Atəşkəsin martın 1-dən qüvvəyə mindiyi açıqlanıb. Təşkilat, həmçinin Öcalanın çağırışının məzmunu ilə razılaşdığını və onun tələblərinə əməl edəcəyini bildirib.

Tanınmış tarixçi-araşdırmaçı Sərdar Kozan Türkiyə ictimaiyyətinin bu mövzuya münasibəti, eləcə də baş vermiş tarixi hadisə ilə bağlı XQ-nin suallarını cavablandırır.



**– Sərdar bəy, Öcalanın çağırışında daha nələr var?**

– Öcalanın bəyanatında açıq deyilib: "Hörmətli Dövlət Baxçalının etdiyi çağırış, cənab Prezidentin nümayiş etdirdiyi iradə və digər siyasi partiyaların məlum çağırışa müsbət yanaşmaları nəticəsində yaranan bu durumda silahı yerə qoymağa çağırıram və bu çağırışın tarixi məsuliyyətini öz üzərimə götürürəm". Bu o deməkdir ki, terrorçu lider bu yolla heç bir nəticəyə varılmayacağını anlamışdır. İstanbulda Öcalanın "Sülh və Demokratik Cəmiyyətə Çağırış" başlıqlı mətninin kürdcə versiyasını keçmiş Mardin Böyükşəhər Bələdiyyəsinin sədri, Əhməd Türk, türkcə variantını isə DEM Partiyası Van millət vəkili Pervin Buldan oxuyub. Bu olay Türkiyə tarixinə çox önəmli bir hadisə olaraq düşəcək.

**– Bu müraciət bütün kürd qruplarına edilib. PKK-nın onu qəbul etdiyi açıqlanmışdır, amma Suriyadakı YPG və PYD bunu qəbul etmədiyini bildirib. Bu durum nədən xəbər verir?**

– Bu, onu göstərir ki, Suriyada olan terror qruplarının "patronu" Öcalan deyil, PYD və YPG ABŞ-ın nəzarətindədir. Türkiyə diplomatik olaraq Amerika ilə bu məsələni müzakirə edəcək. Suriyanın mərkəzi hakimiyyəti də ölkəsindəki bu terror qurumlarının ləğvi istiqamətində fəaliyyət göstərir. Terrorla mübarizə Türkiyənin əsas prioritetidir. Görünür, həmin qrupların ləğv edilməsi işi Türkiyənin ordusunun, güc strukturlarının üzərinə düşəcək. Türkiyə bu işdə qərarlıdır. Terror yox ediləcək.

**– Bu proses Türkiyənin gələcək siyasətinə necə təsir edəcək?**

– Türk-kürd münasibətlərinin 1000 ildən çox tarixi var. Türklər və kürdlər öz varlıqlarını qorumaq və hegemon güclərə qarşı ayaqda qalmaq üçün könüllü bir ittifaqda olmağı həmişə zəruri hesab ediblər. Son 200 ildə imperialist qüvvələr ilk növbədə bu ittifaqı parçalamağı hədəfləyiblər. Buna qismən nail oldular. Amma zaman göstərdi ki, bu iki xalqı bir- birinə düşmən eləmək mümkün deyil.

Təsirə məruz qalan güclər, öz sinfi bazası ilə birlikdə, Türkiyəyə xidməti prioritet hesab etdilər. Bəzi kürd siyasi qruplar kənardan idarə olunmağa başlamışdı və ortaya belə bir mənzərə çıxdı. Nəhayət, kürd siyasi elitası da anlamağa başlayıb ki, keçmiş "mübarizə" üsulu ilə uğur qazanmaq olmaz . Həm də bunun özü xalqlar arasında min illər boyu var olan münasibətləri zədələyir. Əsas vəzifə bu gün çox kövrəkləşmiş tarixi münasibəti inanclardan kənar qalmadan, qardaşlıq ruhunda yenidən qurmaqdır. Demokratik cəmiyyətə ehtiyac qaçılmazdır. Cümhuriyyət tarixinin ən uzun və ən əhatəli üsyan və şiddətli hərəkatı olan PKK ləğv edilməlidir. Hər bir siyasi xadim bunun fərqindədir.

**– Bu, belə nəticənin qaçılmaz olduğu anlamına gələ bilərmi?**

– Əlbəttə, ifrat millətçi hərəkatın qaçılmaz nəticəsi ortadadır. Ayrı-ayrı milli dövlətlər, federasiyalar, inzibati muxtariyyət və mədəni həllər tarixi cəmiyyətin sosiologiyasına cavab ola bilməz. Kimliklərə hörmət, özünü ifadə etmək azadlığı, demokratik təşkilatlanma, bütün təbəqələrin əsas götürdüyü sosial-iqtisadi və siyasi strukturlar yalnız demokratik cəmiyyətin və siyasi sferanın mövcudluğu ilə mümkündür. Cümhuriyyətin ikinci əsri yalnız demokratiya ilə taclandığı zaman daimi və qardaşlıq münasibətlərinin bərqərar olmasını tələb edir. Sistem axtarışları və həyata keçirilməsi üçün demokratiyadan kənar heç bir yol yoxdur, ola da bilməz. Demokratik kompromis əsas üsuldur. Bu hadisə Türkiyə dövlətinin böyüklüyünün göstəricisidir.

**– "Terrorsuz Türkiyə" üçün Türkiyə Cümhuriyyəti bundan öncə də cəhdlər etmişdi, amma nıticəsiz qalmışdı. İndiki durumda bu prosesin uğurlu olacağına ümid etmək olarmı?**

– Məsələnin həlli üçün Türkiyə bütün dövrlərdə çalışmışdır. Son proses 2013-2015-ci illər arasında olmuşdu. Bu proses kürd probleminin sülh yolu ilə həlli məqsədi ilə başladılmışdı. O zamankı şərtlər başqa idi. Amma Türkiyə yenə də buna cəhd etmişdi. Prosesin əsas elementlərinə tərksilah, demokratik islahatlar və kürd kimliyi hüquqlarının genişləndirilməsi daxil idi. Bu danışıqlarda da PKK lideri Öcalan əsas rol oynamışdı. Lakin 2015-ci ildə münaqişənin bərpası ilə həll prosesi kənar müdaxilələr nəticəsində faktiki olaraq başa çatdı. İndiki situasiya tamam fərqlidir. Türkiyə əvvəlki Türkiyə deyil və artıq dövlətimiz regional gücdən qlobal gücə çevrilib. Həll edə bilməyəcəyi bir məsələ yoxdur. "Terrorsuz Türkiyə" yolunda bu addımın uğurlu olacağına inanıram.

*Söhbəti qələmə aldı:*
***Qafar ÇAXMAQLI,***
***XQ-nin Türkiyə müxbiri***

Günün çağırışı

# Türk və İslam dövlətlərinin ortaq media platformalarının inkişafına ehtiyac var

**Daha ədalətli bir dünya üçün çalışmaq, əlbəttə ki, mediasız olmaz. Amma bu peşənin təmsilçisi olaraq, bu gün medianın dünyanın ədaləti üçün çalışdığını söyləməkdə, təəssüf ki, çətinlik çəkirəm.**



*Vüsalə MAHİRQIZI,*
*"APA Media Group"un baş direktoru*

Bəzi hallarda medianın işi dünyada ədalətin qurulmasından daha çox, müharibələrin alovlanmasına və informasiya manipulyasiyalarına yol açır.

Bir dəfə Qərb ölkələrinin səfirlərindən biri mənə Azərbaycan mediasının Rusiya–Ukrayna müharibəsi ilə bağlı ədalətli və obyektiv mövqe ortaya qoyduğunu, hər iki tərəfin mövqeyinə yer verdiyini, bunu diqqətlə izlədiklərini və təşəkkür etdiyini bildirdi. O zaman da bildirdim ki, medianın funksiyası bunu tələb edir. Medianın işi münaqişə tərəflərindən birinin mövqeyini işıqlandırmaq, digərini isə ofsaytda saxlamaq deyil. Bu, yalnız münaqişə tərəfi olan ölkənin mediası üçün başadüşülən ola bilər.

Məncə, Rusiya–Ukrayna müharibəsi dünya mediasının, konkret olaraq beynəlxalq media anlayışı ilə işləyənlərin iflası oldu. Bu mövqe eynilə sosial mediaya da aiddir. Hətta sosial mediada əks mövqeyi paylaşanlara yer verilmirdi. Təəssüf ki, bu proses indi də davam edir.

Əgər burada medianın yanaşmasında söhbət işğalçıya münasibətdən gedirdisə, o zaman başqa örnəklərdə daha fərqli yanaşmalar da müşahidə etmişik. Rusiya–Ukrayna müharibəsində işğalçı tərəf Rusiyadır. Bəli, bu, doğrudur. Ermənistan–Azərbaycan münaqişəsində də işğalçı tərəf Ermənistan idi. Amma biz burada nəyi müşahidə edirdik? Ermənistana beynəlxalq media daha çox yer verir, faktları Ermənistanın xeyrinə saxtalaşdırırdı. Azərbaycanın haqlı mövqeyi barədə isə susurdular. Yeri gəlmişkən, bu yanaşma hələ də davam edir. Axı Ermənistan da işğalçıdı. Demək ki, yanaşma işğal, beynəxalq hüququn pozulması deyil, bu medialarin birbaşa və ya dolayısı ilə bağlı olduqları ölkələrin maraqlarıdır.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Dünya beşdən böyükdür" tezisi həm də mediaya aiddir. Dünya gücləri öz qüdrətlərini orduları, silah sənayeləri, iqtisadi inkişafları, təhsil sistemləri ilə yanaşı, günün reallığında həm də media ilə göstərirlər. Bu gün ədalətli dünya üçün informasiya monopoliyasının da dağılmasına ehtiyac var. Dünya informasiya məkanı 5-6 beynəlxalq informasiya yayıcısının məlumatları ilə idarə olunmamalıdır. Dünya ölkələri bir-birindən informasiyanı yerli informasiya mənbələri vasitəsilə almalıdırlar. Məsələn, Azərbaycan və Türkiyə mediaları bu iki ölkədə olan məlumatları nəyə görə, üçüncü ölkənin informasiya agentliyi və ya televiziyası vasitəsilə almalıdır? Əlbəttə, bu məqamdan bizim çox ciddi diqqət etməli olduğumuz məsələ budur: üçüncü ölkənin informasiya vasitəsi həmin məlumatı nə qədər manipulyativ təqdim edəcək? Sual budur.

Bu cür informasiya manipulyasiyalarının qarşısını almaq üçün Azərbaycan və Türkiyə prezidentlərinin idarəsi ilə qurulmuş Türkiyə – Azərbaycan Ortaq Media Platformasının fəaliyyəti çox vacibdir. Bu platforma iki ölkənin cəmiyyətinin bir-birindən doğru xəbər alması, informasiya manipulyasiyalarına yol verilməməsi üçün çalışır. Fikrimcə, bu fəaliyyət daha da genişləndirilməlidir, gələcəkdə iki ölkənin mediasının qarşılıqlı olaraq Türkiyə və Azərbaycan ekspertlərinə yer verməsi, daha əhatəli proqramlar və xəbərlər hazırlamasına, cəmiyyətlərimizin bir-birini daha dərindən tanıması üçün çalışmaları artırmasına ehtiyac var.

Türkiyə–Azərbaycan Ortaq Media Platformasının əhatə dairəsinin genişləndirilməsi, türk dövlətlərinin ortaq media platformasının inkişafı da qarşıda dayanan məsələlərdəndir. Biz dünyanın daha çox informasiya ilə idarə edildiyi çağda özümüzü və ulusumuzu informasiya manipulyasiyalarından qorumaq məcburiyyətindəyik. Sosial şəbəkələr, hər gün artan yazılımlar, süni zəkanın inkişafı hər nə qədər bunu çətinləşdirsə də, identifikliyi qorumağın yolu həm də informasiya təhlükəsizliyini təmin etməkdən keçir. Fikrimcə, eynilə içində olduğumuz coğrafiyanı nəzərə alaraq, gələcəkdə İslam ölkələri arasında da ortaq media platformasının inkişafına ehtiyac var. Bu platformalar bizim cəmiyyətlərimizə daha ədalətli, obyektiv və manipulyasiyadankənar xəbər təqdim etməyimizə kömək göstərər.

Həqiqət anı

# O "qorxu filmləri"ni kim çəkib?

**...İlin elə bir ayı yoxdur ki, orada hay vəhşiliyinin qanlı izləri olmasın. Milli təqvimimiz faciəvi anım günlərini nişan verən qara rəqəmlərin sıralanmasından ibarətdir. Ermənisiz, qansız-qadasız keçmiş bir ay belə tapmaq çətindir. Otuz ildir divar təqvimində yanvarı "Qanlı Yanvar" faciəsi, fevralı "Xocalı yarası", martı Azərbaycanlıların Soyqırımı Günü, apreli Kəlbəcər, mayı Şuşa və Laçının, iyunu Ağdərənin, iyulu Ağdamın, avqustu Cəbrayıl, Füzuli və Qubadlının, oktyabrı Zəngilanın işğal olunduğu, noyabrı Qarakənd üzərində helikopter faciəsinin qara səhifələri kimi çeviririk. Belə "çoxseriyalı qorxu filmi"nə dünyanın heç bir xalqının müasir tarixində rast gəlmək mümkün deyil.**

İndi Ermənistan parlamentinin deputatı, daşnak törəməsi Tiqran Abramyana necə başa salasan ki, illərlə yuxularımızı ərşə çəkən onun qövmünün nümayəndələrinin törətdiyi bu qanlı cinayətlər, faşist əməlləridir. Bu dığa Qarabağın keçmiş separatçı rejimin "rəhbərlərinin", təqsirləndirilən şəxslərin Bakıda keçirilən məhkəməsinə baxmağı əsl "qorxu filmi"nin tamaşası ilə müqayisə edir. Abramyan sosial şəbəkədə paylaşımında yazır: "Müttəhim statusunda olan ermənilər nəinki total təzyiq və psixoloji hücumlara məruz qalırlar, həm də qeyri-qanuni prosesdə iştirak etmək məcburiyyətindədirlər".

Hay deputat müttəhimlərin məhkəməyə verdiyi ifadələrdən gəldiyi "qənaətini" bu formada izhar edib: "Yerli saytların yazdıqlarına görə, general Levon Mnatsakanyan Azərbaycana qarşı müharibədə iştirakını təsdiqləyib. Amma hansısa epizodda iştirakını inkar edib. O bəyan edib ki, harada iştirak etməyibsə, buna ehtiyac yaransaydı, mütləq iştirak edərdi".

Ardınca Mnatsakanyanı yaxşı tanıdığını vurğulayan Abramyan "onun açıqlamasının altındakı mətnləri oxumaqla kifayətlənmədiyini, bir çox hallarda psixoloji durumuna nüfuz etdiyini" bildirir.

Deməli, Abramyanı qorxuya salan səbəb təqsirləndirilən Mnatsakanyana Bakıdakı təcridxanada "hansısa psixoloji təsirin göstərilməsi, ruhi durumunun şübhəli vəziyyətə gəlməsidir". O, "peşəkar parapsixoloq" kimi fərdi diaqnozunu ekrandan izlədiyi video-görüntülərin vasitəsilə müəyyən edibmiş.

Təkcə general Levon Mnatsakanyanın deyil, təqsirləndirilən digər şəxslərin də hakimin suallarına sakit, anlaqlı vəziyyətdə, psixoloji durumları qaydasında cavab vermələrini tamaşaçılarla yanaşı, məhkəmə zalında əyləşmiş onların vəkilləri də izləyirlər. Məgər onların hansısa bugünədək hüquqlarını müdafiə etdiyi şəxslərdən birinin psixi vəziyyəti ilə bağlı narahatlıq bildiribmi? Belə hal qeydə alınmayıb. Bu adamlara ki, çöldə psixoloji təsir göstərən yoxdur.

Tiqran Abramyanı qorxuya salan məhkəmədə gördükləri deyil, indi hallarına yandığı hay dostlarının Azərbaycan torpağında törətdikləri və həqiqətən də, "qorxu filmlərini" xatırladan əməllərinin üzə çıxmasıdır. Hələlik həmin filmlərdə baş rollarda çəkilənlər Femida qarşısında cavab verirlər. Çox keçməz ki, real dəhşət səhnələrinin yaradılmasında iştirak etmiş bütün "yaradıcı heyət" prosesə cəlb edilər. Onda Abramyan "film-serialın" kulminasiyasına tamaşa edəcək.

***İ.BƏDİRXANLI***
***XQ***

# Vardanyanın gizli danışıqları məhkəmədə nümayiş etdirilib

**Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə, həmçinin terrorçuluq, terrorçuluğu maliyyələşdirməyə dair maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesinin baxış iclası martın 4-də davam etdirilib.**







Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni, rus dilində tərcüməçi, habelə müdafiəsi üçün özünün seçdiyi vəkillə təmin olunub.

İclasın əvvəlində Ruben Vardanyanın müdafiəçisi Avraam Berman məhkəməyə müraciət edərək müdafiə etdiyi şəxsə hüquq və vəzifələrinin izahına dair bildirişin təqdim olunması, işin materialları, o cümlədən məhkəmə iclasının protokolları ilə tanış olmaq üçün əlavə şəraitin yaradılması, təqsirləndirilən şəxs qismində cəlbetmə haqqında qərarın rus dilinə tərcümə variantının təqdim olunmasına dair vəsatətləri təqdim edib.

Dövlət ittihamını müdafiə edən Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev vəsatətlərə münasibət bildirərək qeyd edib ki, eyni məzmunlu vəsatətə əvvəlki məhkəmə proseslərində baxılaraq müvafiq qərar qəbul olunub. Belə ki, təqsirləndirilən şəxsə həm ibtidai istintaqın, həm də məhkəmənin gedişində işin materialları ilə tanış olmaq üçün kifayət qədər vaxt verilib. Təqsirləndirilən şəxsə hüquq və vəzifələrinin izahına dair bildirişlərin, cinayət məsuliyyətinə cəlbetmə haqqında qərarın təqdim olunması işin materialları ilə təsdiq edilir. Bütün bunları nəzərə alaraq prokuror həmin vəsatətlərin baxılmamış saxlanılmasını məhkəmədən xahiş edib.

Məhkəmə iclasında iştirak edən zərərçəkmiş şəxslər ittiham tərəfinin mövqeyi ilə razılaşdıqlarını bildiriblər.

Məhkəmə yerində müşavirə keçirərək vəsatətlərə münasibət bildirib.

Zeynal Ağayev qeyd edib ki, təqsirləndirilən şəxsə ibtidai istintaq dövründə hüquq və vəzifələrinin izahına dair bildiriş təqdim olunub və bu hal işin materialları ilə təsdiqlənir. Bundan başqa, həm məhkəmənin hazırlıq iclasında, həm də məhkəmə baxışının gedişində təqsirləndirilən şəxsə hüquq və vəzifələri ətraflı izah olunub, buna dair bildirişlər məhkəmə tərəfindən də ona rəsmi şəkildə təqdim edilib. Həmçinin işin materialları ilə tanış olmaq üçün təqsirləndirilən şəxsə kifayət qədər vaxt verilib. Lakin təqsirləndirilən şəxs işin materiallarında olan sənədlər, o cümlədən məhkəmə iclasının protokolları ilə tanış olmaq istəyirsə, bununla bağlı ona yenidən şərait yaradılacaq.

Daha sonra təqsirləndirilən şəxs Ruben Vardanyana sərbəst ifadə verməsi yenidən təklif olunub. Ruben Vardanyan ifadə verməkdən imtina edib.

Bundan sonra dövlət ittihamını müdafiə edən prokurorlar təqsirləndirilən şəxsə ittiham olunduğu cinayət əməlləri üzrə suallar veriblər.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev R.Vardanyandan həmtəsisçisi olduğu, humanitar məqsədlər pərdəsi altında fəaliyyət göstərən təşkilatların təyinatı, məqsədləri, vaxtilə işğal altında olmuş ərazilərdə həyata keçirilmiş layihələr, həmin təşkilatların üzvləri ilə münasibətləri, eləcə də ictimai fəal Mirzə Dinnayinin Azərbaycan Respublikasının vaxtilə işğal altında olmuş suveren ərazisi Qarabağa qanunsuz səfər etməsi, onunla keçirdiyi görüşlər barədə suallar səslənib.

Sonra təqsirləndirilən şəxsə helikopter tipli pilotsuz uçuş aparatlarının (PUA) alınması və onları istehsal edəcək zavodun inşası üçün texniki sənədlərin əldə edilməsi barədə apardığı danışıqlar, Arman Djilavyan adlı şəxsə zavodun inşası məqsədilə müvafiq sənədlərin alınmasına dair verdiyi tapşırıqlar, bu fəaliyyəti Ermənistan Respublikası ilə razılaşdırması barədə suallar ünvanlanıb.

Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimli təqsirləndirilən şəxs R.Vardanyana "VoMa" terror təşkilatının qurucusu Vartanov Vladimir (Vova) Levanoviçlə münasibəti, aralarında vatsap vasitəsilə aparılan yazışmalar və göndərilən səsli mesajlar, təşkilat tərəfindən Ermənistanın nəzarətində olan Qarabağdakı qanunsuz silahlı birləşmələrə təlimlərin keçirilməsinin təşkili və maliyyələşdirilməsi, Vladimir Vartanovun Birinci Qarabağ müharibəsində, 2016-cı ilin Aprel döyüşlərində və İkinci Qarabağ müharibəsində Azərbaycan Respublikası ərazisində Silahlı Qüvvələrimizə qarşı hərbi əməliyyatlarda iştirak etməsi, təşkilatın təlimçiləri barədə suallar verib.

Təqsirləndirilən şəxsdən həmin təlimlərin keçirilməsinə Ermənistan tərəfindən razılığın verilib-verilməməsi, buna dair şəraitin kim tərəfindən yaradılması, təlimlərə yetkinlik yaşına çatmayan şəxslərin cəlb olub-olunmaması, o cümlədən R.Vardanyanın bu təlimləri sahibkar və ya qondarma rejimin vəzifəli şəxsi kimi təşkil etməsi və maliyyələşdirməsi soruşulub.

Daha sonra R.Vardanyandan təhlükəsizlik məsələləri üzrə ekspert adı altında fəaliyyət göstərən "27 Komitəsi" hərəkatının təsisçisi və sədri Poqosyan Vladimir Sergeyeviçlə münasibətləri, onunla "Signal" mobil tətbiqi, eləcə də digər mobil tətbiqlər və sosial şəbəkələr vasitəsilə apardığı danışıqlar və yazışmalar, aralarında işbirliyinin olub-olmaması, "düşmən" adlandırdıqları Azərbaycan dövlətini böyük itkilərə məruz qoymaq, hətta zərbə vurmaq məqsədilə "xüsusi əməliyyatlar qüvvələrinin milli mərkəzi"nin yaradılmasının Ermənistan dövlətinin planı olub-olmaması, "böyük itkilər"in nədən ibarət olması, həmin mərkəzin digər üzvləri və maliyyələşmə qaydalarına dair suallar verilib.

Bundan başqa, sözügedən "mərkəz"in qondarma quruma, yoxsa qondarma qurumun Müdafiə Nazirliyinin faktiki olaraq Ermənistan dövlətinə tabe olduğu kimi, eyni qaydada Ermənistana tabe olub-olmadığı soruşulub.

Ardınca Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramov təqsirləndirilən şəxs R. Vardanyana Rusiya Federasiyası ərazisində fəaliyyət göstərən "AKVA" şirkətinin məsul şəxsləri ilə danışıqlar aparmaqla qondarma rejim üçün zenit-raket komplekslərinin (ZRK) alınması, eləcə də bu qurğuları istehsal edəcək müəssisənin inşası üçün vəsait toplanması, özünü Qarabağda yaşayan erməniəsilli şəxslərə "humanitar yardım göstərən" sahibkar kimi təqdim edən, bir müddət guya yalnız sosial-iqtisadi məsələlərə cavabdehlik daşıyan "dövlət naziri" kimi hərbi təyinatlı qurğuların istehsalı müəssisəsini yaratmaqda məqsədi, Azərbaycanın vaxtilə işğal altında olmuş suveren ərazilərində fəaliyyət göstərən qanunsuz silahlı birləşmələri və qrupları silah-sursatla təmin etməkdə niyyəti, hərbi təyinatlı istehsal müəssisəsinin qurulması istiqamətində apardığı danışıqları Ermənistanla razılaşdırması, onlar tərəfindən bu planın reallaşdırılması üçün hər hansı vəsaitin və ya digər əmlakın verilib-verilməməsi barədə suallar verilib.

Bundan sonra dövlət ittihamçısı Fuad Musayev Ruben Vardanyanın Ermənistan ərazisindən Azərbaycanın vaxtilə işğal altında olmuş Qarabağ bölgəsinə daxil olub məskunlaşdıqdan sonra Ermənistan ərazisindən bir neçə dəfə digər ölkələrə getməsi, sonra isə yenidən Ermənistana qayıdıb keçmiş qondarma rejimin olduğu əraziyə daxil olmasına baxmayaraq, hansı səbəbdən ona məxsus pasportda yalnız Ermənistana girişinə və oradan çıxmasına dair qeydin aparılması, özünü müstəqil dövlət kimi təqdim edən qondarma qurumun yerləşdiyi ərazilərə keçid etdikdə hər hansı sənəd təqdim edib-etməməsi, pasportunda buna dair qeydin aparılmaması, habelə bu keçidlərin başqa hansısa formada rəsmiləşdirilib-rəsmiləşdirilməməsi barədə suallar ünvanlayıb.

Təqsirləndirilən şəxsə Qarabağ ərazisində müxtəlif yaş kateqoriyalarından olan şəxslər üçün hərbi təlimlərin keçirilməsi, bu məqsədlə hərbi düşərgələrin yaradılması, təlimçilərin şəxsiyyəti, təlim planları, təsisçisi olduğu "Biz – dağlarımızıq" adlı təşkilata "Ruben Vadanyan Foundation", "Dilijan Community Center", "Aznavour Foundation", digər təşkilatlar, fondlar və fiziki şəxslərdən bilavasitə terrorçuluqla bağlı təlimləri maliyyələşdirmək məqsədilə vəsaitlərin toplanması, həmin vəsaitlər hesabına müxtəlif idman yarışlarının və xüsusi düşərgələrdə təlimlərin keçirilməsi, buna dair müxtəlif şəxslərlə aparılan danışıqlar, o cümlədən Aik Ovakimian adlı şəxsə yazdığı "məni çoxu ilk gündən günahlandırır ki, guya mən qan və qurbanlar olmasını istəyirəm", "son üç ayda hazırladığımız 120 nəfər barədə bir saniyə belə şübhə etmirəm, ancaq bu, dənizdə bir damladır" kimi və digər mesajlar, həmçinin bu təlimlərin Ermənistanın razılığı ilə keçirilməsi barədə suallar verilib.

Daha sonra dövlət ittihamçısı Vüsal Abdullayev təqsirləndirilən şəxs R.Vardanyana "Biz - dağlarımızıq" təşkilatı və digər yardım aksiyaları adı altında pul vəsaitlərinin toplanması, bu vəsaitlər hesabına müxtəlif odlu silah, döyüş sursatları, partlayıcı maddələr, hərbi texnikanı əldə edərək Ermənistandan qanunsuz şəkildə Qarabağa gətirilməsinin məqsədi, bu silahlardan nədə istifadə etmək niyyəti, silahların gətirilməsinin kim tərəfindən təşkil edilməsi, həmin hərəkətləri həyata keçirmək üçün Ermənistan dövlətindən hansı dəstəyi alması, silah-sursatın kimin balansında olması, sosial-iqtisadi məsələlərə cavabdeh "dövlət naziri"nin ofisində və bağ evində hansı səbəbdən bu qədər hərbi təyinatlı avadanlığın olmasına dair cavab istayib.

Eyni zamanda, Qarabağda olmuş qanunsuz silahlı birləşmələrin rəhbərlərinin və üzvlərinin adlı siyahısı sadalanaraq təqsirləndirilən şəxs R.Vardanyana həmin şəxslərlə münasibətləri, onlara aylıq muzd ödəməsi, pul vəsaitlərinin hansı qaydada və kim tərəfindən verilməsi, ümumiyyətlə, muzdun ayrılması qaydasına dair suallar ünvanlanıb.

R.Vardanyana pilotsuz uçuş aparatlarının (PUA) alınması üçün teleqram üzərindən əlaqə saxladığı Artur Alaverdiyan adlı şəxslə münasibətləri, PUA-ları almaqda məqsədi, onları hansı maliyyə vəsaitləri hesabına almaq niyyətində olması, digər şəxs və ya təşkilatlardan PUA-ların alınması üçün vəsaitlərin toplanması barədə suallar verilib.

Nəhayət, dövlət ittihamçısı Təranə Məmmədova təqsirləndirilən şəxs R.Vardanyana Azərbaycan Respublikasının xarici ölkələrdə olan diplomatik korpusunun nümayəndələrinə qarşı terror aktları törədilməsi üçün "Nemezis-2" terror əməliyyatının başlanılmasına təşəbbüs göstərməsi, həmin terror əməllərinə hazırlıq görməsi, əməliyyatın hansı səbəbdən məhz "Nemezis-2" adlandırılması, bu əməliyyatın başlanılması təşəbbüsünü irəli sürməkdə məqsədi və terror əməliyyatlarını konkret olaraq kimlərə qarşı həyata keçirməyi planlaşdırdığı, azərbaycanlı diplomatlara qarşı terror aktlarını törətməklə vermək istədiyi mesaj, terror əməliyyatının həyata keçirilməsi planları barədə kimlərlə məsləhətləşmələr aparması, bu əməllərin reallaşdırılması istiqamətində konkret olaraq hansı tədbirlər görməsi, bu məqsədlə kimlərə tapşırıqlar verməsi və buna nə qədər maliyyə vəsaitinin sərf olunması və ya sərf edilməsinin planlaşdırılması soruşulub.

Təqsirləndirilən şəxs Ruben Vardanyan ona verilmiş sualların heç birini cavablandırmayıb.

Məhkəmə baxışı zamanı Ruben Vardanyanın qeyd olunan məsələlərlə bağlı vatsap, "Signal" və teleqram tətbiqləri üzərindən şəxsən apardığı səsli danışıqlar və yazışmalar, tərtib etdiyi sənədlər, foto və videogörüntülər ona verilən suallarla əlaqədar məhkəmə zalında nümayiş etdirilib.

Məhkəmənin növbəti iclası martın 11-nə təyin olunub.

***XQ***

# Ombudsman hərbi cinayətdə təqsirləndirilənlərə baş çəkib

**Azərbaycanın İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva Bakıda saxlanılan hərbi cinayətdə təqsirləndirilən erməniəsilli şəxslərə baş çəkib.**

Başçəkmə zamanı bir çox təqsirləndirilən şəxs, o cümlədən R.Vardanyan, A.Arutunyan, A.Qukasyan, B.Saakyan, D.Babayan və digərləri Ombudsman tərəfindən fərdi qaydada qəbul edilib. Konfidensial qəbul zamanı həmin şəxslərin müraciətləri dinlənilib, hüquqlarının təmini vəziyyəti yerində öyrənilib.

Milli Preventiv Qrupun ixtisasca həkim üzvünün də iştirak etdiyi başçəkmə zamanı fərdi qaydada dinlənilən və tibbi müayinə olunan şəxslər, o cümlədən R.Vardanyan və B.Saakyan saxlandıqları dövrdən onlara humanist münasibət göstərildiyini, hər hansı bir ayrı-seçkiliyə və pis rəftara məruz qalmadıqlarını, normal saxlanma şəraiti və tibbi xidmətlə təmin olunduqlarını, Ombudsman və Beynəlxalq Qızıl Xaç Komitəsi tərəfindən dəfələrlə qəbul edildiklərini bildirərək növbəti qəbula görə təşəkkür ediblər.

Qəbul edilmiş şəxslərə hüquqları üzrə müraciət mexanizmləri ilə bağlı qanunvericilik aktları, Ombudsmanın "916" Çağrı Mərkəzi vasitəsilə müraciət imkanlarına dair məlumatlandırıcı nəşrlər təqdim olunub.

**XQ**

# Moskvada Ümummilli liderin abidəsi qoyulacaq

**Moskvada ölkəmizin Rusiyadakı səfirliyinin yaxınlığındakı xiyabanda Azərbaycanın Ümummilli lideri Heydər Əliyevin abidəsinin təməlqoyma mərasimi keçirilib.**



Xatirə lövhəsində deyilir: "Burada iki dəfə Sosialist Əməyi Qəhrəmanı, görkəmli dövlət və siyasi xadim, Nazirlər Sovetinin Baykal-Amur magistral yolunun tikintisi və inkişafı Komissiyası sədrinin abidəsi ucaldılacaq".

Tədbirdə Azərbaycanın Rusiyadakı səfiri Rəhman Mustafayev, Moskva şəhərinin meri Sergey Sobyanin, Rusiya Baş nazirinin müavini Vitali Savelyev, Baykal-Amur magistralı tikintisinin veteranları, SSRİ Nəqliyyat Nazirliyinin keçmiş əməkdaşları və başqaları iştirak ediblər.

Heydər Əliyev SSRİ Nazirlər Sovetinin Baykal-Amur magistralının tikintisi və inkişafı üzrə Komissiyasının sədri vəzifəsini tutub və bu strateji əhəmiyyətli layihənin inkişafına böyük töhfə verib. Abidənin Moskvada ucaldılması Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin Sovet İttifaqı qarşısında, Baykal-Amur magistral xəttinin tikintisində və inkişafında xidmətlərinə verilən qiymətin rəmzidir.

***XQ***

# "Heydər Əliyev və azərbaycançılıq məfkurəsi"

**Martın 4-də Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının və YAP Yasamal rayon təşkilatının birgə təşkilatçılığı ilə "Heydər Əliyev və azərbaycançılıq məfkurəsi" mövzusunda tədbir keçirilib.**



YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev bildirib ki, azərbaycançılıq müstəqil Azərbaycan dövlətinin və xalqımızın milli ideologiyasıdır. Ulu öndər Heydər Əliyevin irəli sürdüyü azərbaycançılıq ideologiyası vaxtilə dövlətimizə qarşı müxtəlif istiqamətlərdən yönələn təhdidlərin qarşısının alınmasında mühüm amil olub.

YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə Ulu öndərin hələ sovet dövründə Azərbaycana rəhbərlik edərkən azərbaycançılıq məfkurəsinin bütün həmvətənlərimizin arasında yayılmasına, bu ideyanın geniş ictimai dəyər qazanmasına çalışdığını, 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra bu ideologiyanı daha da gücləndirdiyini qeyd edib. BDU-nun professoru, tarix elmləri doktoru Nuru Məmmədov deyib ki, Ulu öndər azərbaycançılıq ideologiyasını dövlətçilik ideologiyası səviyyəsinə yüksəldib. YAP Veteranlar Şurasının sədr müavini Sədaqət Qəhrəmanova isə azərbaycançılıq ideologiyasının milli-mənəvi dəyərlərin qorunması və təbliği baxımından müstəsna əhəmiyyət daşıdığını vurğulayıb.

***XQ***

# Azərbaycan riyaziyyatçısının 40 illik uğuru




**Təxminən 40 ildən çoxdur ki, mən "Navier-Stokes" tənlikləri üçün qoyulmuş "Dirixle" məsələsinin zəif həllərinin yeganəliyi üzərində işləyirdim. Bu tənliklər hidrodinamikanın əsas riyazi modeli olduğundan və həyatda axınlar hər yerdən olduğundan onun öyrənilməsi vacib məsələlərdən biridir.**

Bu sözləri riyaziyyatçı-alim, professor Kamal Soltanov AMEA-da keçirilən "Navye-Stoks bərabərliyi" tənliyi barədə təqdimatda deyib. Alim qeyd edib ki, bu tənliklərlə bağlı problem Kley İnstitutunun qoyduğu minilliyin 7 problemindən biridir. Dünyada bu problem alimlər tərəfindən araşdırılmaqdadır.

"Navye-Stoks bərabərliyi" tənlikləri üçün qoyulmuş "Dirixle" məsələsinin zəif həllərinin mövcudluğu 3 ölçülü durum üçün 1932-ci ildə Leray tərəfindən, daha sonra 1934-cü ildə Hopf-Leray tərəfindən göstərilib və həllər fəzası təyin edilib.

***XQ***

# Sığorta bazarında yüksəliş

## *Yığım da, ödənişlər də ilbəil çoxalır*

**Mərkəzi Bankdan redaksiyamıza verilən məlumata görə, bu ilin yanvarında ölkədəki sığorta şirkətlərinin xətti ilə 164 milyon manat (ötən ilin eyni dövrü ilə müqayisədə 17,6 faiz çox) sığorta haqqı yığılıb. Hesabat ayında, eyni zamanda, sığorta şirkətlərinin xətti ilə 47,6 milyon manat (2024-cü ilin eyni dövrünə nisbətdə 22,8 faiz çox) sığorta ödənişi edilib.**



Sığorta bazarının zərərlilik göstəricisi də artıb. Belə ki, ötən ilin ilk ayı ərzində toplanmış hər 100 manat sığorta haqqının 27,8 manatı ödənişə yönəldilibsə, cari ilin eyni dövründə bu rəqəm 29 manata yüksəlib.

Bütün bunlar Azərbaycanın sığorta bazarında inkişaf dinamikasını aydın göstərir. Bu sektorun konkret sahələrinə gəldikdə isə əvvəlcə könüllü sığorta bazarında mövcud vəziyyətə nəzər salaq. Belə ki, Azərbaycan Mərkəzi Bankının məlumatına görə, cari ilin yanvar ayında ölkədə fəaliyyət göstərən sığorta şirkətlərinin topladıqları könüllü sığorta haqlarının həcmi 140,6 milyon manata (ötən ilin eyni dövrü ilə müqayisədə 22,3 milyon manat və ya 18,9 faiz çox) yüksəlib. Belə ki, 2024-cü ilin ilk ayında Azərbaycanda fəaliyyət göstərən sığorta şirkətlərinin topladıqları könüllü sığorta haqlarının həcmi 118,3 milyon manat olub.

Sözügedən dövrdə bu sığorta növü üzrə ödənişlərin həcmi 37,5 milyon manata (illik müqayisədə 7 milyon manat, yaxud da 23 faiz çox) yüksəlib. Ötən ilin yanvar ayında respublikada fəaliyyət göstərən sığorta şirkətləri tərəfindən ödənilmiş könüllü sığorta ödənişlərinin həcmi 30,5 milyon manata çatıb. Ötən ay bu sığorta növü üzrə toplanılmış hər 100 manat sığorta haqqından 26,7 manat (illik müqayisədə 0,9 manat çox) sığorta ödənişi edilib. Keçən ilin müvafiq dövründə isə bu məbləğ 25,8 manat olub.

Xatırladaq ki, bu ilin yanvar ayında Azərbaycandakı sığorta şirkətlərinin xətti ilə 163,7 milyon manat (ötən ilin eyni dövrü ilə müqayisədə 17,6 faiz çox) sığorta haqqı yığılıb. Eyni zamanda, bu ilin yanvar ayında Azərbaycandakı sığorta şirkətlərinin xətti ilə 47,6 milyon manat (əvvəlki ilin eyni dövrü ilə müqayisədə 22,8 faiz çox)sığorta ödənişi edilib.

Azərbaycanda fəaliyyət göstərən sığorta şirkətlərinin cari ilin yanvar ayında topladıqları icbari sığorta haqqlarının həcmi isə 23,1 milyon manat (ötən ilin eyni dövrü ilə müqayisədə 2,3 milyon manat və ya 11 faiz çox) olub. Belə ki, 2024-cü ilin ilk ayında Azərbaycanda fəaliyyət göstərən sığorta şirkətlərinin topladıqları icbari sığorta haqqlarının həcmi 20,8 milyon manat təşkil edib.

Bəhs olunan dövrdə bu sığorta növü üzrə ödənişlərin həcmi 10,1 milyon manat (illik müqayisədə 1,9 milyon manat, yaxud da 1,9 faiz çox) olub. Ötən ilin yanvar ayında Azərbaycanda fəaliyyət göstərən sığorta şirkətlərinin ödədikləri icbari sığorta ödənişlərinin həcmi 8,2 milyon manata çatıb.

Ötən ay bu sığorta növü üzrə toplanılan hər 100 manat sığorta haqqından 43,8 manat (illik müqayisədə 4,2 manat çox) sığorta ödənişi edilib. Ötən ilin müvafiq dövründə bu məbləğ 39,6 manat təşkil edib.

Xatırladaq ki, bu ilin yanvar ayında ölkədəki sığorta şirkətlərinin xətti ilə 163,7 milyon manat (ötən ilin eyni dövrü ilə müqayisədə 17,6 faiz çox) sığorta haqqı yığılıb. Eyni zamanda, bu ilin yanvar ayında Azərbaycandakı sığorta şirkətlərinin xətti ilə 47,6 milyon manat (əvvəlki ilin eyni dövrü ilə müqayisədə 22,8 faiz çox) sığorta ödənişi edilib.

Azərbaycanda əmlak sığortası üzrə ödənişlərdə də müsbət nəticələr əldə olunub. Belə ki, cari ilin yanvar ayında ölkədə fəaliyyət göstərən sığorta şirkətlərinin əmlak sığortası üzrə sığorta haqlarının həcmi 25,5 milyon manat (ötən ilin eyni dövrü ilə müqayisədə 106 min manat və ya 0,4 faiz çox) olub. Belə ki, 2024-cü ilin ilk ayında Azərbaycanda fəaliyyət göstərən sığorta şirkətləri tərəfindən əmlak sığortası üzrə sığorta haqlarının həcmi 25,4 milyon manat təşkil edib.

Bəhs olunan dövrdə əmlak sığortası üzrə sığorta ödənişlərinin həcmi 3,4 milyon manat (illik müqayisədə 692 min manat, yaxud da 25,5 faiz çox) olub. Ötən ilin yanvarında isə əmlak sığortası üzrə sığorta ödənişlərinin həcmi 2,7 milyon manat təşkil edib.

Qeyd edək ki, ötən ay əmlak sığortası üzrə toplanılmış 100 manat sığorta haqqı üçün sığorta ödənişi 13,4 manat (illik müqayisədə 2,7 manat çox) olub. Ötən ilin eyni dövründə bu məbləğ 10,7 manat təşkil edib.

Xatırladaq ki, bu ilin yanvar ayında Azərbaycandakı sığorta şirkətlərinin xətti ilə 163,7 milyon manat (ötən ilin eyni dövrü ilə müqayisədə 17,6 faiz çox) sığorta haqqı yığılıb. Eyni zamanda, bu ilin yanvar ayında Azərbaycandakı sığorta şirkətlərinin xətti ilə 47,6 milyon manat (əvvəlki ilin eyni dövrü ilə müqayisədə 22,8 faiz çox) sığorta ödənişi edilib.

Nəhayət, cari ilin yanvar ayında respublikanın həyat sığortası üzrə fəaliyyətə diqqət yetirək. Qeyd edək ki, bu dövrdə sığorta haqları 55,6 milyon manata yüksəlib. Azərbaycan Mərkəzi Bankının məlumatına görə, bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 15,4 milyon manat və ya 38,3 faiz çox olub. Xatırladaq ki, ötən ilin yanvar ayında Azərbaycanda həyat sığortası üzrə sığorta haqları 40,2 milyon manat olub.

Bəhs olunan dövrdə bu sığorta növü üzrə ödənişlərin həcmi 29,1 milyon manat (illik müqayisədə 7,5 milyon manat, yaxud da 34,7 faiz çox) təşkil edib. 2024-cü ilin ilk ayında Azərbaycanda həyat sığortası üzrə sığorta ödənişlərinin həcmi 21,6 milyon olub.

Xatırladaq ki, bu ilin yanvar ayında Azərbaycandakı sığorta şirkətlərinin xətti ilə 163,7 milyon manat (ötən ilin eyni dövrü ilə müqayisədə 17,6 faiz çox) sığorta haqqı yığılıb. Eyni zamanda, bu ilin yanvar ayında Azərbaycandakı sığorta şirkətlərinin xətti ilə 47,6 milyon manat (əvvəlki ilin eyni dövrü ilə müqayisədə 22,8 faiz çox) sığorta ödənişi edilib.

# Orta Dəhlizin beynəlxalq daşımalarda çəkisi artır




**Dünən Bakıda "Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu" Beynəlxalq Assosiasiyası (TBNM BA) Hüquqi Şəxslər Birliyinin ümumi yığıncağının iclası keçirilib.**

Toplantıda assosiasiyaya üzv dövlətlərin dəmiryol administrasiyalarının rəhbərləri, nəqliyyat və logistika şirkətlərinin yüksək səviyyəli rəsmiləri daxil olmaqla, ümumilikdə, 10 ölkədən nümayəndə heyəti iştirak edib.

Çıxış edənlər Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta Dəhliz) regional nəqliyyat bağlantısının əsas arteriyalarından biri kimi yüksəlişdə olduğunu vurğulayaraq qeyd ediblər ki, ötən müddətdə TBNM BA-ya üzv dövlətlər arasında sıx əməkdaşlıq çərçivəsində yük əməliyyatlarının idarə olunması üçün kompleks tədbirlər, o cümlədən müasir analitik informasiya sistemlərinə inteqrasiya və yüklərin real vaxt rejimində izlənməsi xidmətlərinin yaradılması həyata keçirilib. Bununla yanaşı, Sinqapurun "Global DTC" şirkətinin Orta Dəhliz üçün "Digital Trade Corridor" multimodal platforması və "Fast Customs" platformasını təqdim etməsi ilə əməliyyatların şəffaflığı artırılıb və nəzarət mexanizmləri gücləndirilib. Bakı – Tbilisi – Qars dəmiryol xəttinin yük ötürmə gücünün illik 1 milyon tondan 5 milyon tona çatdırılması və bu xətt üzrə yük əməliyyatlarının bərpa edilməsi xüsusilə qeyd olunub.

İclas iştirakçıları bildiriblər ki, əsas məqsəd yüklərin təhlükəsizliyini təmin etməklə vahid tarifləri razılaşdırmaqla və yük axınının sürətini artırmaqla daşıma sisteminin səmərəliliyini artırmaqdır ki, bu da bütün tərəfdaşların tələbatını qarşılayacaq. Bu yanaşma Orta Dəhliz ölkələrinə uzunmüddətli perspektivdə uğur qazanmağa imkan verəcək.

TBNM BA Hüquqi Şəxslər Birliyinin TBNM-in inkişafı üzrə işçi qrupunun 2025-ci il üçün təsdiqlənmiş tarif dərəcələri barədə məlumatı dinlənildikdən sonra 2025-ci ildə Orta Dəhlizlə yükdaşıma planı və onun icra planı təsdiqlənib. Eyni zamanda, TBNM BA Hüquqi Şəxslər Birliyinin Çinin Sian şəhərində nümayəndəliyinin açılması barədə qərar qəbul olunub.

Sonda iclasın protokolu, "Xəzər dənizi limanları arasında fider bağlantısının təşkili haqqında" və "Fider gəmilərin yüklənməsinin təmin edilməsi haqqında" sazişlər imzalanıb.

Tədbir işini "Xəzər dənizi vasitəsilə Orta Dəhliz" forumu ilə davam etdirib. Forumda dənizlə yükdaşımaların səmərəli təşkili, bu istiqamətdə görülə biləcək işlər barədə fikir mübadiləsi aparılıb.

# Paytaxt ətrafında yeni avtovağzal

**Martın 4-dən etibarən bölgələrə sərnişindaşımanı təmin edən yeni nəqliyyat məkanı fəaliyyətə başlayıb. Bu barədə Bakı Beynəlxalq Avtovağzal Kompleksi məlumat yayıb.**

Bildirilib ki, "Azerbaijan Ground Service" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən "Abşeron" Ticarət Mərkəzinin ərazisində avtovağzal xidməti təşkil edilir. Bundan da məqsəd ticarət mərkəzi və ətraf ərazilərdə sərnişin daşımaları sahəsində nizamlı və qanunauyğun fəaliyyətin təmin edilməsidir. İstifadəyə verilən məkandan sərnişinlərin əsasən ölkənin cənub və qərb bölgələrinə səfərləri təşkil ediləcək. Səfəröncəsi bütün avtobuslar texniki, sürücülər isə tibbi müayinədən keçiriləcək. Xətlərə çıxan avtobuslara real vaxt rejimində nəzarət olunacaq.

İnformasiya panelləri və təhlükəsizlik sistemləri ilə təchiz edilən ərazidə sərnişinlər üçün rahat gözləmə zalları, dayanacaqlar və iaşə obyektləri yaradılıb. Yeni xidmətin təşkili sərnişin məmnunluğunun daha da artırılmasına xidmət edəcək. Vətəndaşlar biletləri "biletim.az" portalı üzərindən onlayn qaydada və kassalardan əldə edə bilərlər.

# Transxəzər Fiber Optik Kabel Xəttinin çəkilişi gerçəkləşir

**Avropa ilə Asiya arasında Azərbaycan vasitəsilə rəqəmsal dəhlizin yaradılmasını nəzərdə tutan "Rəqəmsal İpək Yolu" layihəsinin mühüm komponenti olan Transxəzər Fiber Optik Kabel Xəttinin tikintisi üzrə növbəti mərhələyə başlanılır.**



Azərbaycan və Qazaxıstanın Baş nazirləri Əli Əsədov və Oljas Bektenovun iştirakı ilə Xəzər dənizinin dibi ilə sualtı fiber-optik kommunikasiya xətlərinin tikintisinə dair müqavilənin təsdiq edilməsi haqqında sənəd imzalanıb. Sənədi "AzerTelecom" şirkətinin Direktorlar Şurasının sədri Emil Məsimov və "Kazakhtelecom" şirkətinin Direktorlar Şurasının sədri Bagdat Musin imzalayıblar.

Region üçün strateji əhəmiyyət daşıyan Transxəzər Fiber Optik Kabel Xətti Layihəsi çərçivəsində Sumqayıt (Azərbaycan) və Aktau (Qazaxıstan) şəhərləri arasında Xəzər dənizinin dibi ilə 380 km uzunluğunda fiber-optik kabel xətti çəkiləcək. Bu, çoxterabitli məlumatların ötürülməsini və 400 terabit/s-ə qədər yüksəksürətli internet bağlantısının qurulmasını təmin edəcək.

Tikinti prosesi sahilyanı ərazilərin və dəniz dibinin qiymətləndirilməsi, yüksəkkeyfiyyətli, davamlı kabellərin layihələndirilməsi və istehsalı, habelə onların daşınması və quraşdırılması da daxil olmaqla bir neçə mərhələdə həyata keçiriləcək. "AzerTelecom" və "Kazakhtelecom" şirkətləri tikinti işlərini 2026-cı ilin sonuna qədər yekunlaşdırmağı planlaşdırır.

Transxəzər Fiber Optik Kabel Xətti müxtəlif ölkələr, o cümlədən Azərbaycan, Gürcüstan, Türkiyə, Qazaxıstan və Türkmənistan ərazilərindən keçəcək rəqəmsal telekommunikasiya dəhlizi olan "Rəqəmsal İpək Yolu" layihəsinin önəmli hissəsidir. Bu rəqəmsal infrastruktur məlumatların ötürülməsində yüksək zolaq genişliyi və minimal gecikməni təmin edən ən optimal və qısa marşrut olmaqla ölkələr arasında regional əməkdaşlığa və dayanıqlı inkişafa təkan verəcək.

***XQ***

## Azərbaycan – Qazaxıstan aqrar layihələri

**Azərbaycan və Qazaxıstan kənd təsərrüfatı sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi, birgə layihələrin icra edilməsi və nəzərdə tutulan planların həyata keçirilməsi barədə razılığa gəliblər. Bu barədə Qazaxıstan Kənd Təsərrüfatı Nazirliyi açıqlama yayıb.**



Nazirliyin məlumatına görə, bununla bağlı razılıq kənd təsərrüfatı üzrə işçi qrupunun ilk iclasında əldə olunub. Videokonfrans formatında keçirilmiş iclasda iki ölkənin kənd təsərrüfatı nazirlərinin müavinləri Elçin Zeynalov və Ermek Kenjehanulı iştirak ediblər. Qeyd olunub ki, görüşdə aqrar sektorda ikitərəfli əməkdaşlığın inkişafının əhəmiyyəti vurğulanıb, işçi qrupun yaradılmasının qarşılıqlı fəaliyyətin gücləndirilməsinə və əməkdaşlığın konkret istiqamətlərinin müəyyənləşdirilməsinə yönəldiyi qeyd olunub.

Tərəflər kənd təsərrüfatı məhsulları ticarətinin genişləndirilməsini müzakirə ediblər. Bununla yanaşı, Qazaxıstandan Azərbaycana kənd təsərrüfatı heyvanlarının damazlıq materiallarının tədarükü perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb. Görüş iştirakçıları, həmçinin kənd təsərrüfatı bitkilərinin toxumlarının mübadiləsində, elmi konfranslarda iştirakda, eləcə də iki ölkənin aqrar universitetləri arasında birgə təhsil proqramlarının və ikili diplom təhsilinin inkişafında maraqlı olduqlarını bildiriblər.

"2024-cü ildə bu seqmentdə əmtəə dövriyyəsi 2023-cü illə müqayisədə 5,6 faiz artaraq 78,6 milyon ABŞ dollara çatıb. Ötən il Qazaxıstanın kənd təsərrüfatı məhsullarının ixracı 64,2 milyon ABŞ dolları təşkil edib. 2024-cü ildə Bakı taxıl terminalı vasitəsilə Qazaxıstan taxılının Azərbaycana tədarükü 1,5 milyon tona çatıb", – deyə məlumatda bildirilib.

## Nəqliyyata yeni güzəştlər

**Nəqliyyat sektorunda dövlət idarəetməsinin daha çevik və səmərəliyi məqsədilə "Nəqliyyat haqqında" Qanuna dəyişiklik edilməsi ilə bağlı yeni qanun layihəsi hazırlanıb. Layihədə "Azərbaycan Dəmir Yolları" (ADY) və onun strukturuna daxil olan qurumların öz fəaliyyət istiqamətləri üzrə müəyyən işlərin görülməsi üçün lisenziya və icazələrin alınmasından azad ediləcəyi nəzərdə tutulub.**



Lisenziya və icazə tələb olunmayan fəaliyyət növlərinin siyahısının isə qanun qəbul edildikdən sonra təsdiqlənəcəyi qərara alınıb. "Nəqliyyat haqqında" Qanunda nəzərdə tutulan dəyişiklik inzibati prosedurların sadələşdirilməsinə, nəqliyyat sektorunda dövlət müəssisələrinin daha operativ fəaliyyət göstərməsinə və vahid idarəetmə prinsiplərinin tətbiqinə xidmət edir. Qeyd edilir ki, analoji güzəştlər daha əvvəl "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC, "Azərbaycan Avtomobil Yolları" Dövlət Agentliyi və Azərbaycan Respublikası Kosmik Agentliyi ("Azərkosmos") üçün də tətbiq edilmişdi. Yeni dəyişikliklərin nəqliyyat və kommunikasiya sektorunda dövlət müəssisələrinin fəaliyyətinin daha səmərəli və sürətli icra edilməsinə imkan yaradacağı gözlənilir.

## Karbamid istehsalında süni intellekt

**Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) vitse-prezidentinin müavini Teymur Quliyev Milli Məclisin Təbii Ehtiyatlar, Energetika və Ekologiya Komitəsində keçirilən ictimai dinləmədə Abşeron ərazisində yerləşən karbamid zavodunda süni intellektdən istifadə olunmaqla enerji səmərəliyi proqramlarına start verildiyini bildirib.**

Teymur Quliyevin sözlərinə görə, pilot layihə kimi həyata keçirilən proqram çərçivəsində tətbiq olunan texnologiyalar inkişaf etdirildikdən sonra onun digər zavodlarda da istifadəsi diqqətdə saxlanılacaq.

Xatırladaq ki karbamid zavodu Sumqayıt Kimya Sənaye Parkının ərazisində yerləşir. Müəssisə 2019-cu il yanvarın 16-da istifadəyə verilib, il ərzində 435 milyon kubmetr təbii qazdan xammal kimi istifadə edilməklə 650-660 min ton karbamid istehsal etmək gücündədir. İstehsal həcminin 70 faizi ixrac üçün nəzərdə tutulub.

***Səhifəni hazırladılar:***
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

Ətraf mühit və dayanıqlı inkişaf

# Ermənistanın Azərbaycana qarşı ekoloji terroru davam edir

## *Bu ölkənin təbiətə zərbəsi bəşəri cinayətdir*



**Birləşmiş Millətlər Təşkilatının (BMT) Dayanıqlı İnkişaf Məqsədləri ekoloji və sosial-iqtisadi problemlərin həlli üçün hərtərəfli çərçivə təqdim edir. BMT-yə üzv dövlətlər buna əsaslanaraq təmiz hava, təhlükəsiz içməli su və sanitariya kimi məsələləri sağlamlığın ətraf mühit amilləri kimi dəyərləndirir. Eyni zamanda, BMT belə bir ətraf mühiti əsas insan hüququ kimi tanıyır. Lakin Ermənistan saysız ekoloji cinayətlər törətməklə BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin əleyhinə çıxış edir.**

İşğalçı ölkə daha çox transsərhəd su axarlarına qarşı ekoloji cinayətlər törətməklə həm də 2014-cü ildə qüvvəyə minən BMT-nin Transsərhəd Çaylar Konvensiyasının tələblərini kobud şəkildə pozur. Qeyd edək ki, bu konvensiyanın əsas məqsədi transsərhəd su axarlarından ədalətli və davamlı istifadəni gerçəkləşdirməkdir. Ümumiyyətlə, adıçəkilən sənəd su ehtiyatlarının sosial-iqtisadi və ekoloji inkişaf üçün risk yaratdığı təqdirdə, təsirə məruz qala biləcək yaşayış yerləri ilə ünsiyyət qurmağı, bu coğrafiyada yaşayan insanların rəylərini diqqətdə saxlamağı nəzərdə tutur.

Buna baxmayaraq, təəssüf ki, Ermənistan hökuməti regionun şirin su ehtiyatına təsir göstərə biləcək dağ-mədən sənayesinin təşkilində qonşu kəndlərdə yaşayan gürcü, azərbaycanlı və o cümlədən ermənilərin indiyədək rəylərini, fikirlərini nəzərə almayıb, onları ətraf mühitin qiymətləndirilməsi prosesinə cəlb etməyib.

Ekspertlərin bildirdiklərinə görə, hazırda Ermənistan ərazisində 28-dək metal mədəni istismar edilir və iqtisadi fəal əhalinin təxminən 9 min 200 nəfəri dağ-mədən sahəsində çalışır. Bu sektorda fəaliyyət göstərənlərin böyük əksəriyyəti isə işğalçı ölkənin Lori və Sünik regionlarının payına düşür. Müqayisə üçün qeyd edək ki, ölkədə ümumi istehsal olunan mədən məmulatlarının 70-80 faizi yalnız Qacaran şəhərində yerləşən "Zangezur Copper-Molybdenum Combine" şirkəti tərəfindən istehsal edilir. Mədən sənayesində çalışan əhalinin, təxminən, yarısı (4 min nəfər) adı çəkilən şirkətdə çalışır. Məhz sosial-iqtisadi amillər Ermənistan siyasi hakimiyyətinin ətraf mühitlə bağlı qərarlarına ciddi təsir göstərir. Əks halda, mədənlərin fəaliyyətinin dayandırılması gündəmə gələ bilər ki, bu da siyasi xaosa səbəb olar bilər.

Ermənistan bu gün dövlət gəlirlərini təbii resursların istismarı və satışı üzərində qurulan primitiv iqtisadi modelə əsasən qarşılayır. Bu prosesdə mühüm rol oynayan dağ-mədən sənayesi yalnız ölkənin deyil, həm də qonşu dövlətlərin ekosisteminin sıradan çıxmasına şərait yaradır. Şübhəsiz ki, bu prosesdə ən böyük zərər çəkən ölkə məhz Azərbaycandır. Aparılan tədqiqatlar deməyə əsas verir ki, Ermənistanın bölgələrindən keçərək ölkəmizə daxili olan çay sistemlərində suyun keyfiyyəti, məişətdə istifadəsi və irriqasiyada tətbiqi beynəlxalq standartlara uyğun deyil. Kür və Araz kimi sərhədyanı çayların birbaşa və ya dolayı yolla çirkləndirilməsi həm də bütün Xəzər hövzəsinin ekologiyasına ciddi təhdid yaradır. Bu isə problemin artıq qlobal miqyasa keçdiyini göstərir.

Ermənistan uzun illər ərzində beynəlxalq ekoloji norma və standartları kobud şəkildə pozaraq dağ-mədən sənayesində apardığı qanunazidd işlərlə ətraf mühitdə ciddi ekoloji böhran yaradıb. Davam edən mədən əməliyyatları nəticəsində ekosistemin korlanması təkcə Ermənistanın ətraf mühiti üçün təhdid deyil, həm də qonşu ölkələrə böyük təhlükə yaradıb. Ekoloji zərərin transsərhəd xarakteri regionda və ondan kənarda yaşayan icmaların sağlamlığını və rifahını riskə atıb. Bütün bunlara görə də işğalçı ölkədə beynəlxalq ekoloji norma və standartları, region əhalisinin hüquqlarını pozmaqla aparılan dağ-mədən sənayesi işlərinin dayandırılması zərurəti yaranıb.

Qeyd edək ki, Ermənistanın Qacaran şəhərindəki Zəngəzur mis-molibden və Qafandakı dağ-mədən kombinatlarının ağır metal tərkibli mədən tullantıları Oxçuçayı və Araz çayını çirkləndirir. Xatırladaq ki, Zəngəzur mis-molibden kombinatının səhmlərinin 60 faizi Almaniyanın "Cronimet Mining GmbH" şirkətinə məxsusdur. Burada heç bir ekoloji norma gözlənilmədən il ərzində, təxminən, 20 milyon ton filiz emal olunur. Müəssisənin mədən tullantıları hovuzu olan 270 milyon kvadratmetrlik Artsevanik su anbarı bütün region üçün təhdid sayılır.

Qafan dağ-mədən kombinatı isə 2019-cu ildən Böyük Britaniyanın "Chaarat Gold International Limited" şirkətinin tərkibində fəaliyyət göstərir və hazırda "Chaarat Kapan" adlanır. İl ərzində burada orta hesabla 1,3 milyon ton filiz emal edilir. Qafan dağ-mədən kombinatının tərkibində 4,6 milyon kvadratmetr ərazini əhatə edən Gütqum (Qeqanuş) mədən tullantısı anbarı region üçün böyük təhlükə mənbəyi hesab edilir.

Əkərək (Aqarak) Mis-Molibden Kombinatının da ağır metal tərkibli mədən tullantıları Kərçivançay (Karçevançay) vasitəsilə Araza axıdılaraq bu çayı zəhərləyir. ABŞ-ın "Comsup Commodities" şirkəti müəssisənin bütün səhmlərini alaraq onun tam payçısıdır. İl ərzində burada, təxminən, 4 milyon ton filiz emal olunur. Kombinatın Davazam tullantı anbarında toplanan 36,8 milyon kubmetr təhlükəli tullantı suyu transsərhəd Araz çayına axıdılır.

Ermənistanın Lori vilayətindəki Axtala mədənində il ərzində, təxminən, 5 min ton mis və qurğuşun istehsal edir. Mədənin tullantı sularında qeydə alınan mis, qurğuşun və sink kimi insan sağlamlığına və ətraf mühitə zərərli ağır metallar Kürə tökülən Tona (Debed) çayını çirkləndirir.

Qafandakı Manqan zavodu nəinki Ermənistanda, eləcə də dünyada bu tip ən böyük manqan müəssisələrindən biridir. Zavod manqan filizi, manqan dioksidi və digər manqan məhsulları istehsal edir, illik hasilatı, təxminən, 1,5 milyon tondur. Manqan filizinin çıxarılması və emalı zamanı hava və suya ağır metallar, toz və digər çirkləndiricilər buraxılır. Bu çirkləndiricilər tənəffüs problemləri, nevroloji xəstəliklər və xərçəng də daxil olmaqla bir sıra sağlamlıq problemləri yaradır. Müəssisə, həmçinin Cənubi Qafqaz regionu üçün vacib içməli su mənbəyi olan yaxınlıqdakı Bərgüşad çayını dəhşətli dərəcədə çirkləndirir.

Onu da deyək ki, işğal dövründə Ermənistan hakimiyyəti tərəfindən Azərbaycanla sərhəddə yerləşən Kəlbəcərin Zod yatağı qeyri-qanuni olaraq "GeoProMining" şirkətinin istismarına verilib. 2009-cu ildə burada 320,5 min ton, 2010-cu ildə 490 min ton, 2011-ci ildə 880 min ton həcmində hasil edilən filizin emalı Dəvəli (Ararat) qızıl kombinatında reallaşdırılıb. Nəticədə mədən yaxınlığındakı Zod (Sotk) çayı mis, dəmir, kadmium və molibden kimi ağır metallarla çirkləndirilib.

Çirkləndirilən Zod (Sotk) çayı da Kürə axıdılmaqla milyonlarla insanın həyatı böyük təhlükə ilə yaradıb və 2018-ci ildə Avropa İnsan Hüquqları Məhkəməsi adıçəkilən mədənin regionu çirkləndirdiyinə görə, Ermənistan tərəfindən ekoloji tarazlıq hüquqlarının pozulmasına dair qərar da çıxarıb.

Avropa İnsan Hüquqları Məhkəməsi 2019-cu il 14 fevral tarixli qərarı ilə Şınıx (Şnoq) və Tuğut (Teqout) kəndlərinin məhkəməyə müraciət etmiş sakinlərinin torpaqlarında qanunsuz mədən sənayesi istismarını təsbit edib, bununla bağlı Ermənistan hökumətindən zərər dəymiş kəndlilərə 69 min 400 avro dəyərində təzminat ödənməsi tələb olunub.

Göyçə ərazisində yerləşən Daşdəm (Daşdam) qızıl mədənində il ərzində, təxminən, 10 min unsiya qızıl hasil olunmaqla bərabər, yerli su təchizatı davamlı olaraq çirklənir. Mütəxəssislər bildirirlər ki, mədənin çirkab sularında arsen və civə kimi insan sağlamlığına və ətraf mühitə zərərli ağır metallar əsas içməli su mənbəyi olan Bərgüşad (Vorotan) çayını da zəhərləyir. Xatırladaq ki, Bərgüşad çayı Araza tökülür. Mədən isə Kanadanın "Lydian International" şirkəti tərəfindən idarə olunur.

Ellər (Qotayq) mis, sink və qurğuşun istehsal edən metallurgiya müəssisəsidir. Zavod Arpaçayını mis, qurğuşun və kadium kimi insan sağlamlığına mənfi təsir göstərən ağır metallarla çirkləndirir. Müəssisə kükürd dioksidi, azot oksidləri və bərk hissəciklər də daxil olmaqla, böyük miqdarda hava çirkliliyi yaradır. Bu çirklənmə insan sağlamlığına mənfi təsir göstərərək tənəffüs problemləri, ürək xəstəlikləri və digər ağır xəstəliklərə gətirib çıxarır. Zavod tullantı sularını əsas içməli su mənbəyi olan Arpaçaya axıdır. Müəssisədə yaranan, tərkibi ağır metallarla zəngin olan böyük miqdarda bərk tullantılar torpağı çirkləndirir və yeraltı sulara sızır.

Göyçə (Geqarkunik) Mis əritmə zavodu ildə, təxminən, 100 min ton mis istehsal edir. Ermənistanın "GeoProMining" şirkətinə məxsus bu müəssisə atmosferə çoxlu miqdarda kükürd dioksidi və digər çirkləndiricilər atır ki, bu da havanın çirklənməsinə və turşu yağışlarına gətirib çıxarır. Zavod tullantı sularını əsas içməli su mənbəyi olan Arpaçayına axıdır. Arpaçay isə öz növbəsində çirkləndirici maddələri Araza daşıyır. Çirkab suları Arpaçayda su canlılarını məhv edir. Göyçə Mis əritmə zavodu ətraf mühit və insanlar üçün böyük təhlükə mənbəyi sayılır.

### Ekspert rəyi



**Amin MƏMMƏDOV,**
**"Environmental Protection First" Koalisiyasının həmtəsisçisi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında İctimai Şuranın sədri**

Ermənistanın dağ-mədən sənayesi Cənubi Qafqaz bölgəsində ciddi ekoloji təhdid halına gəlib. Bununla bağlı Azərbaycanın vətəndaş cəmiyyətinin fəalları, qeyri-hökumət dəfələrlə beynəlxalq təşkilatlara müraciət ünvanlayıb. Müraciətdə Ermənistanın beynəlxalq ekoloji norma və standartları kobud şəkildə pozduğu, bu ölkənin dağ-mədən sənayesində aparılan işlərin ciddi regional və qlobal ekoloji böhrana yol açdığı bildirilib. Ermənistanın beynəlxalq öhdəliklərə əməl etməməsi nəticəsində vəziyyət həqiqətən də kritik həddə çatıb.

Bu fikrin təsdiqi olaraq diqqəti bir fakta yönəltmək istərdim. Belə ki, 2023-cu ilin yay aylarında Arazdəyəndə metallurgiya zavodunun tikilməsi ilə bağlı məlumat yayıldı. Bununla bağlı Azərbaycanın qeyri-hökumət təşkilatları tərəfindən birgə etiraz bəyanatı hazırlandı. Göstərilən səylərin nəticəsində zavodun tikintisi təxirə salındı. Bundan sonra Azərbaycan vətəndaş cəmiyyəti tarixi Azərbaycan torpaqlarında mövcud durumu öyrənməyi davam etdirdi.

Ötən ilin avqust ayında "Azərkosmos" tərəfindən "Environmental protection first" Koalisiyasına təqdim edilən materiallar əsasında məlum olub ki, Ermənistanın Azərbaycanla sərhədə yaxın 20-dən çox bölgəsində əlvan metallar çıxarılır. Bu prosesə əsasən beynəlxalq investorlar cəlb olunur. Nəticədə Qafqazın ekologiyasına ciddi ziyan vurulur. Həmin şirkətlərin əksəriyyəti qlobal səviyyədə ciddi qəbul edilmir. Ona görə bu şirkətlər məsuliyyəti dərk etməli, Qafqazın ekologiyasına ziyan vuracaq layihələrdən çəkinməlidirlər.

Böyük Qayıdış proqramı sayəsində keçmiş məcburi köçkünlər Ermənistanla yaxın ərazilərə köçürlər. Ona görə də biz əhalinin məruz qaldığı ekoloji təsirlər haqqında araşdırmalarımızı davam etdiririk. Ermənistanın dağ-mədən sənayesini həyata keçirdiyi ərazilər mütləq monitorinq edilməlidir. Bu monitorinqdə Azərbaycan tərəfindən mütəxəssislərin iştirakı da vacibdir. Ermənistan öz üzərinə götürdüyü öhdəliklərə əməl etməlidir.

Ermənistanın və bu ölkədə işləyən xarici şirkətlərin dünyada qəbul olunmuş ekoloji norma və standartlar gözlənilmədən apardıqları ekosid fəaliyyəti dərhal dayandırılmalıdır, Ermənistanın bütün bölgəni zəhərləməsinin qarşısı alınmalıdır. Ermənistan əhalisi və region ölkələrinin ictimaiyyəti onlardan gizlədilənlər barədə mütləq xəbər tutmalıdır.

Azərbaycan QHT-lərinin Ermənistanın dağ-mədən sənayesinin ekoloji fəsadlarına qarşı açdığı cəbhə dünyanın ən müxtəlif ölkələrindəki ekoloji təşkilatlar tərəfindən alqışlanıb. Biz davamlı dəstək mesajları alırıq. 2024-cü ilin mayında Keniyada BMT-nin Vətəndaş Cəmiyyəti Forumunda, sentyabrında ABŞ-da BMT-nin Gələcəyin Sammiti toplantısında, noyabrında COP29-da biz bu barədə geniş iş aparmışıq. Ermənistanın hərəkətlərindən bir çox ekofəallar və beynəlxalq ekspertlər dəhşətə gəlib.

***"XQ"nin analitik qrupu***

**Gürcüstan parlamentinin Hüquq Məsələləri Komitəsi ABŞ Xarici Agentliklərin Qeydiyyatı Aktına (FARA) oxşar qanun layihəsini birinci oxunuşda təsdiqləyib. Qanunun icraedici orqanı kimi Rajden Kupraşvilinin rəhbərlik etdiyi Korrupsiyaya Qarşı Mübarizə Bürosu seçilib. Bu barədə hakim "Gürcü arzusu– Demokratik Gürcüstan" Partiyasının deputatı Arçil Qorduladze bildirib. Onun sözlərinə görə, ABŞ-da xarici agentliklərin qeydiyyatı aktını Ədliyyə Nazirliyinin rəhbərliyi həyata keçirir: "Gürcüstanda isə belə bir vəzifə yoxdur. Hazırkı reallıqları nəzərə alaraq, biz təklif edirik ki, bu qanunun icra orqanı publik hüquqi şəxs – Korrupsiyaya Qarşı Mübarizə Bürosu olsun. Bu qurum onun hər bir müddəasının icrasını və nəzarəti təmin etsin".**

# Gürcüstan "xarici agentlər"i şəffaflaşdırır

## *Məqsəd kimin arxasında haranın dayandığını aşkar etməkdir*



Qorduladze, həmçinin deyib ki, xarici agent kimi qeydiyyatdan keçmək barədə məlumatın verilməməsi və qeydiyyatdan yayınma 10 min lari məbləğində cərimə və ya 5 ilədək həbslə nəticələnəcək.

Yada salaq ki, FARA-nın Gürcüstandakı hazırkı alternativi "Xarici təsirin şəffaflığı haqqında" Qanundur. Sənəddə təşkilatların öz maliyyələri haqqında deklarasiyaları nəzərdə tutulub. Buraya maliyyələşmənin 20 faizindən çoxunu xaricdən alan təşkilatlar daxildir. Bu qanun fiziki şəxslərə, hətta sonradan qeyri-hökumət təşkilatlarını maliyyələşdirən şəxslərə şamil olunmur. Sadəcə olaraq ildə bir dəfə müvafiq reyestr xidmətinə maliyyə hesabatı verilməlidir. Məqsəd vətəndaş cəmiyyəti institutlarının vəsaitləri haradan, hansı məqsədlər üçün aldıqlarını izləməyə imkan yaratmaq və hər bir aktorun arxasında kimin dayandığını müəyyən etməkdir. Belə ki, bəzi partiyaların paralel olaraq həm də qeyri-hökumət təşkilatları var. Onlar QHT-nin adından kənardan maliyyə alıblar və həmin vəsaitləri siyasi məqsədlər üçün istifadə ediblər. Bu isə Gürcüstan qanunvericiliyinə ziddir.



Onu da qeyd edək ki, qanun qəbul olunarkən müxalifət, qeyri-hökumət təşkilatları və kollektiv Qərb Gürcüstan hakimiyyətini tənqid edərək, onun Avropa dəyərlərinə zidd olduğunu bildiriblər. Gürcüstanın Avropa İttifaqına üzvlük prosesi, bu ölkə diplomatları üçün vizasız rejim dayandırılıb. Bundan əlavə, ABŞ-ın sabiq dövlət katibi Antoni Blinken "Xarici təsirin şəffaflığı haqqında" Qanunun qəbul edilməsi ilə əlaqədar Gürcüstan hökumətinə 95 milyon dollardan çox yardımın dayandırıldığını açıqlamışdı. Həmçinin Gürcüstan hökumətini "Xarici təsirin şəffaflığı haqqında" Qanunu və digər "problemli qanun layihələrini" geri götürərək "demokratik yola qayıtmağa" çağırmışdı. Bu, baş verməDikdə isə müxalifətin etiraz aksiyalarına dəstək verilmiş, parlament seçkilərinin nəticələri tanınmamışdı.

Lakin Tbilisi qanun layihəsini gerı çağırmadı və indi görürük ki, bir qədər də irəli gedərək yeni qanun layihəsi hazırlayıb. Yuxarıda qeyd edildiyi kimi, sənəd birinci oxunuşda qəbul olunub. Onu da qeyd edək ki, bu sənəd "Xarici təsirin şəffaflığı haqqında" Qanundan daha geniş sahəni əhatə edir. KİV-i və QHT-lərin birbaşa və ya dolayı yolla xaricdən maliyyələşməsinə qadağa qoyur. Bundan sonra, telekanallar və mətbuat orqanları xarici dövlətdən pul vəsaiti və ya əmlak dəyəri olan maddi dəstək ala bilməyəcəklər. Eyni zamanda, xarici dövlət tərəfindən yayım xidmətlərinin alınması, o cümlədən proqramların hazırlanması, yayımının birbaşa və ya dolayısı yolla maliyyələşdirilməsi qadağan ediləcək. Bu sahənin birgə maliyyələşdirməsi də dayandırılacaq. Həmçinin, telekanallarda sosial reklamın yerləşdirilməsinə də ciddi nəzarət olunacaq.

Layihənin qəbulundan sonra Kommunikasiya Tənzimləmə Komissiyasına televiziya və radioları xəbərdarlıq etmək və cərimələmək səlahiyyəti veriləcək. Bundan başqa, əgər komissiya media qurumunun etik standartları pozduğunu müəyyən edərsə, əvvəlcə xəbərdarlıq göndərəcək və pozuntunun aradan qaldırılması üçün vaxt verəcək. Müvafiq addım atılmasa, media qurumu cərimələnəcək.

Yada salaq ki, sənəddə xarici dövlət dedikdə, dövlət hakimiyyəti sisteminə daxil olan subyekt, fiziki şəxs (xarici vətəndaş), habelə xaricdə yaradılmış hüquqi şəxs, hər hansı təşkilat və ya birlik nəzərdə tutulur. Amma "Xarici təsirin şəffaflığı haqqında" Qanun fiziki şəxslərə, hətta sonradan qeyri-hökumət təşkilatlarını maliyyələşdirən şəxslərə şamil olunmur.

Bu barədə, Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili deyib ki, müxalifətin medianın xaricdən maliyyə almasına qarşı reaksiyası onların partiyalarının bu yolla qazanc əldə etdiyini göstərir. Parlament sədrinin sözlərinə görə, müxalifətin "təbliğat vasitələrinin xarici hökumətlər tərəfindən maliyyələşdirildiyi" barədə hələlik ictimaiyyətə məlumat verilməyib. Məsələn, müxalifətdəki Dəyişiklik Koalisiyasının lideri Nika Qvaramiya 2019-cu ildə yaradılmış "Mtavari Arkhi" telekanalının həmtəsisçisidir. 2024-cü ildə Qvaramiya siyasətə qoşulmaq qərarına gəldiyi üçün telekanalın baş direktoru vəzifəsindən istefa verib. Mamuka Xazaradzeyə gəlincə, o və onun "Gürcüstan naminə "Lelo" Partiyası müxalif "TV Pirveli" kanalının "patronu" hesab olunur. Onlar xarici maliyyə mənbələrindən böyük məbləğdə maliyyə yardımları alıblar. "Ona görə də bu məsələyə baxmaq vacibdir. Çünki bu fakt təsdiqlənərsə, Gürcüstanda keçirilən parlament seçkilərinə kənardan qanunsuz müdaxilənin növbəti sübutu olacaq", – deyə Papuaşvili bildirib.

Xarici ölkələrdən ayrılan maliyyə vəsaiti əsasında fəaliyyət göstərən QHT-lər üçün yeni məhdudiyyətlər tətbiq ediləcək. Bu barədə parlament məlumat yayıb. Bildirilib ki, parlamentin reqlamentinə nəzərdə tutulan dəyişikliklərə əsasən, qanunvericilik orqanında ictimai qərarların qəbulunda qeyri-hökumət təşkilatlarının (QHT) iştirakının məcburiliyinə dair maddə ləğv edilir. Layihəni təqdim edən parlamentin Prosedur məsələləri və qaydalar komitəsinin sədri Davit Matikaşvili, xüsusilə, xaricdən maliyyələşən bir çox QHT-nin ölkənin milli mənafelərini deyil, maliyyə aldıqları dövlətlərin və təşkilatların maraqlarını müdafiə etdiklərini vurğulayıb. O, xarici maliyyə ilə fəaliyyət göstərən bəzi QHT-lərin milli dövlətçiliyə və demokratiyaya ziyan vurduqlarını qeyd edib. Komitə sədri bu məsələlərin "USAID qalmaqalı" fonunda ortaya çıxdığını bildirib. Yeni qanun layihəsinə əsasən, QHT-lər parlamentdə yalnız özlərinin maraqlı olduqları məsələlərin müzakirəsində iştirak edə biləcəklər. Bundan əlavə, layihədə Mərkəzi Seçki Komissiyası (MSK) üzvlərinin seçilmə prosedurana dəyişiklik də öz əksini tapıb. Dəyişikliyə görə, parlament üzvlərinin ən azı beşdə üçü tərəfindən dəstəklənmiş namizəd MSK-ya üzv seçilə bilər.

Məlum olur ki, xaricdən maliyyələşən QHT-lər ölkənin maraqlarına ziyan vururlar. Maliyyə mənbələri kimi USAID-lə yanaşı ABŞ-nin Milli Demokratiya Fondunun (NED) da adı çəkilir. Bildirilir ki, NED-in fəaliyyəti Gürcüstan üçün zərərli idi. Bunu Baş nazir İrakli Kobaxidze Ozurqetidə jurnalistlərə açıqlamasında deyib.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Şəhid anaları üçün iftar məclisi



**Martın 4-də Heydər Əliyev Fondunun dəstəyi ilə müqəddəs Ramazan ayı münasibətilə iftar süfrəsi təşkil olunub.**

Arzu Əliyeva iftar məclisində iştirak edib. Ölkəmizin müxtəlif rayonlarından şəhid valideynlərinin, müharibə iştirakçılarının, ictimaiyyət nümayəndələrinin dəvət olunduğu



iftar mərasimində "Qurani-Kərim"dən ayələr oxunub, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə şəhid olan qəhrəman Vətən oğullarının ruhuna dualar edilib.

İftar məclisində çıxış edənlər Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı



İlham Əliyevin rəhbərliyi ilə Vətən oğullarının xalqımızın və dövlətimizin firavanlığı, əmin-amanlığı naminə qəhrəmanlıqlarından danışıblar. Çıxışlar zamanı, həmçinin dövlətin şəhid ailələrinə, müharibə iştirakçılarına göstərdiyi diqqət və qayğıdan məmnunluq ifadə olunub, bugünkü məclisin də bunun bariz nümunələrindən biri olduğu vurğulanıb.

"Fire Land Group"un "Mənim oğlum qəhrəmandır" layihəsinin Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin dəstəyi ilə keçirilən budəfəki tədbiri 8 Mart - Beynəlxalq Qadınlar Günü ərəfəsinə təsadüf etdiyindən şəhid analarına hədiyyələr təqdim olunub. Daha sonra tanınmış incəsənət xadimləri də öz ifaları ilə şəhid analarını təbrik ediblər.

Qeyd edək ki, "Mənim atam qəhrəmandır" və "Mənim oğlum qəhrəmandır" layihələri artıq 5 ildir həyata keçirilir. Bu layihələr çərçivəsində Azərbaycanın müxtəlif yerlərində şəhid ailələri ilə birgə tədbirlər təşkil olunur.

***XQ***

# Azərbaycan multikulturalizmi canlı dostluq məktəbidir

**Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM) "Müxtəliflik və bərabərlik: İnklüziv gələcəyin qurulması" adlı XVI Beynəlxalq Multikulturalizm Məktəbinə start verib. Martın 10-dək davam edəcək məktəb Bakı şəhəri ilə yanaşı, Quba və Qusar rayonlarında da fəaliyyət göstərəcək.**




Bu barədə XQ-yə məlumat verən mərkəzin şöbə müdiri Yadigar Məmmədli bildirdi ki, bu dəfəki qış məktəbində Azərbaycan, Rusiya, Bolqarıstan, Braziliya, Serbiya, Rumıniya, Özbəkistan, Qazaxıstan, Gürcüstan, İraq, Moldova, Türkiyə, Yaponiya, Polşa, Cənubi Koreya, Zimbabve, Çin, Yəmən, Pakistan, Mərakeş və Mozambikdən olan 25 tələbə iştirak edir.

İştirakçılar əvvəlcə Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edərək Ulu öndərin məzarı önünə tər güllər düzüblər. Şəhidlər xiyabanı da ziyarət edilib.

Sonra məktəb iştirakçıları Quba rayonuna yola düşüblər. Burada keçirilən məşğələlərdə dinləyicilərə Azərbaycandakı multikultural mühit, tolerant əhval-ruhiyyə, etnik-dini müxtəliflik, ölkəmizdə müxtəlif xalqların nümayəndələrinin, fərqli konfessiyaların dinc, yanaşı yaşaması haqqında ətraflı məlumat veriləcək.

"Azərbaycanda dini müxtəliflik və ənənəvi birgəyaşayış", "Azərbaycan cəmiyyətinin formalaşmasında multikulturalizm faktoru", "Müxtəliflik və Konstitusiya – Azərbaycanda multikultural cəmiyyətin inkişafının aspektləri" mövzularında məruzələri Azərbaycan İlahiyyat İnstitutunun şöbə müdiri Anar Qafarov, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin şöbə müdiri İrina Kunina, AZƏRTAC-ın şöbə müdiri Esmira Tağıyeva təqdim edəcəklər.

İştirakçılar üçün "Öz xalqını təqdim et" movzusunda musiqili axşamlar da təşkil olunacaq. Dinləyicilər isə öz xalqlarının mədəniyyəti, adət ənənələri ilə bağlı məlumat verəcəklər.

Quba və Qusar rayonlarına ekskursiyaların marşrutu  Soyqırımı Memorial Kompleksindən, yəhudilərin yaşadıqları Qırmızı qəsəbədən, müxtəlif xalqların dini ibadətgahlarından və tarixi abidələrdən keçəcək.

***R.TAHİR***
***XQ***

# "Bir səfərin izi ilə – Böyük Britaniya"

***Bakı Media Mərkəzinin prezidenti Arzu Əliyeva filmin təqdimatında iştirak edib***

**Martın 4-də Nizami Kino Mərkəzində Ümummilli lider Heydər Əliyevin Böyük Britaniya Krallığına rəsmi səfərlərinə həsr olunmuş "Bir səfərin izi ilə – Böyük Britaniya" sənədli filminin təqdimatı olub.**



Filmin təqdimatında Bakı Media Mərkəzinin prezidenti Arzu Əliyeva iştirak edib.

Ekran əsərinin nümayişindən əvvəl çıxış edən layihə rəhbəri, tanınmış səyyah və jurnalist Azər Qərib bildirib ki, tamaşaçıları Ümummilli lider Heydər Əliye-



vin səfər etdiyi Böyük Britaniyanın tarixi şəhərləri – London və Edinburqa aparan film rəsmi səfərin qeyri-rəsmi tərəflərini göstərir. O qeyd edib ki, filmdə, eyni zamanda, Ulu öndərin Azərbaycanla Böyük Britaniya arasında dostluq əlaqələrinin formalaşmasında oynadığı xüsusi rol barəsində tarixi faktlar təqdim olunur.



Filmin çəkilişləri London və Edinburq şəhərlərində aparılıb. Bu, Ümummilli lider Heydər Əliyevin səfərlərinə həsr olunmuş "Bir səfərin izi ilə" filmlər toplusundan artıq dördüncü filmdir. Birinci film Ulu öndərin İtaliya səfərinə, ikinci film Yaponiya səfərinə, üçüncü film Çin səfərinə, dördüncü film isə Böyük Britaniya səfərinə həsr olunub. Layihə çərçivəsində Heydər Əliyevin müxtəlif xarici səfərləri və onların tarixi əhəmiyyəti işıqlandırılır.



"Bir səfərin izi ilə" filmlər toplusu Ulu öndər Heydər Əliyevin beynəlxalq səviyyədə göstərdiyi fəaliyyəti, Azərbaycanın dünya dövlətləri ilə əlaqələrini gücləndirmək üçün gördüyü işləri və ölkəmizin beynəlxalq nüfuzunu artırmaq üçün atdığı addımları əks etdirir.

İdeya müəllifi Azər Qərib olan filmin yaradıcı heyətinə redaktor Ayaz Mirzəyev, prodüser Əsgər Qəribzadə, operator Əli Əliyev, montaj üzrə mütəxəssis Elmar Tariyeloğlu daxildir.

Film milli aviadaşıyıcı "Azərbaycan Hava Yolları"nın (AZAL), "bp-Azərbaycan" şirkəti və "CinemaPlus" kinoteatrlar şəbəkəsinin dəstəyi ilə ərsəyə gəlib.

***XQ***

# Dünya sülhə və nizama möhtacdır

## *Bakıda "Daha ədalətli bir dünya mümkündür" movzusunda media müzakirəsi*

**Bakıda Türkiyə Prezidenti Administrasiyasının Kommunikasiya İdarəsi və "Stratcom Public Forum"un təşkilatçılığı, ölkəmizin media qurumları təmsilçilərinin iştirakı ilə "Daha ədalətli bir dünya mümkündür" movzusunda  toplantı keçirilib.**




Məclisdə əvvəlcə Türkiyə Prezidenti Administrasiyasının Kommunikasiya İdarəsinin rəhbəri Fəxrəddin Altunun onlayn çıxışı səsləndirilib. O, BMT-nin fəaliyyətindəki problemlərdən danışaraq bildirib ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın beynəlxalq aləmdə geniş əks-səda doğurmuş "Dünya beşdən böyükdür" bəyanatı BMT-də ciddi islahata ehtiyac olduğunun mötəbər ifadəsidir.

Qardaş ölkə rəsmisi daha sonra qeyd edib ki, Türkiyə Prezident Administrasiyasının Kommunikasiya İdarəsi 20 fərqli ölkədə "Stratcom Public Forum" çərçivəsində təşkil edilən tədbirləri dəstəkləyir: "BMT-nin fəaliyyətindəki problemlər dünyada sülhün bərqərar edilməsini mürəkkəbləşdirir. Ölkəmizin təşkilatçılığı ilə keçirilən tədbirlər ayrı-ayrı cəmiyyət nümayəndələri arasında dialoqu dəstəkləyir. Bugünkü Bakı müzakirəsinin daha ədalətli dünya qurulması istiqamətindəki tədbirlərə təkan verəcəyinə inanırıq".

Açılış mərasimində toplantının hədəfinin BMT-nin dünya düzənində rolunun yüksəldilməsi ilə bağlı müzakirə aparmaq olduğunu  söyləyən Türkiyənin Azərbaycandakı səfirliyinin media müşaviri Alptekin Cihangir İşbilir bildirib ki, beynəlxalq sistem qlobal sülhü təmin etməkdə çətinliklərlə qarşılaşıb: "Beynəlxalq təşkilatların əsas vəzifəsi qlobal sülhü və təhlükəsizliyi təmin etmək olsa da, elə bir hal yaranıb ki, onlar qarşıdurmaları qızışdırmağa, gərginliyin artmasına xidmət edirlər. Dünya sistemində islahatlara, dəyişikliklərə ehtiyac var".



"APA media qrup"un baş direktoru Vüsalə Mahirqızı ədalətli dünyanın qurulmasında medianın rolundan danışıb: "Bəzi hallarda medianın dünyada ədalətin qurulmasından daha çox, müharibələrin alovlanmasına və informasiya manipulyasiyalarına yol açması təəssüf doğurur". Türkiyə Maarif Vəqfinin Azərbaycan üzrə təmsilçisi Sərdar Gündoğan Türkiyə ilə Azərbaycan arasında təhsil sahəsindəki əlaqələrdən bəhs edib.

Məclisin davamında Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin şöbə müdiri Cavid Vəliyev beynəlxalq münasibətlər sistemində dövlətlərin siyasətindən danışaraq qeyd edib ki, dünya siyasətinin kökündə ədalət, hüquq və diplomatiya dayanır: "Bu baxımdan Azərbaycan–Türkiyə dostluq və qardaşlıq əlaqələri beynəlxalq aləm üçün bir nümunədir". Türkiyəli professor Nurəddin Acır isə bildirib ki, beynəlxalq aləmdə haqsızlıqla ən çox Türk və İslam dünyası üzləşir: "Türk dövlətləri  nə qədər güclü olarsa, dünyada sülh də o qədər möhkəm olar".

Konfrans panel müzakirələrlə davam edib, sonda iştirakçıların sualları cavablandırılıb.

***T.RÜSTƏMLİ,***
***N.ƏHMƏDOV***
***XQ***

5 Mart Bədən Tərbiyəsi və İdman Günüdür

# Azərbaycan beynəlxalq aləmdə idman dövləti kimi tanınır



**Bu gün idmançılarımızın peşə bayramıdır. Onlar bu əziz bayrama öz istedadları, fədakarlıq və qələbəyə böyük inamları sayəsində parlaq uğurlarla gəliblər. İdman təkcə rəqibləri geridə qoyaraq birinci olmaq deyil, həm də sağlamlıq, gözəllik və ruh yüksəkliyi deməkdir. İdman, eyni zamandaVətən, xalq və dövlət qarşısında böyük məsuliyyət deməkdir.**

Ölkəmizdə gənc nəslin vətənpərvərlik ruhunda yetişdirilməsində idmanın böyük rolu var. Bu mühüm amili nəzərə alaraq Azərbaycan dövləti bu sahəyə davamlı olaraq böyük diqqət və qayğı göstərir. Prezident İlham Əliyevin 2005-ci il 4 mart tarixli sərəncamına əsasən, hər il 5 mart günü Azərbaycanda Bədən Tərbiyəsi və İdman Günü kimi qeyd olunur.

Azərbaycan dövlətinin idman siyasəti tarixi ənənənərə söykənir. Xatırladaq ki, dahi siyasətçi Heydər Əliyev müstəqil Azərbaycanda milli dövlətçiliyimizin təməllərini qurarkən ölkəmizdə idmanın inkişafına xüsusi önəm verirdi. 1995-ci il martın 5-də ulu öndər Heydər Əliyev Bakı İdman Sarayında dünya və Avropa çempionatlarının qalibləri və mükafatçıları ilə görüşü zamanı xüsusi demişdir ki, idman təkcə yarışlar və medallar deyil, həm də gənclərin sağlam həyat tərzi deməkdir.

Son illər idmançılarımızın beynəlxalq yarışlarda uğurları durmadan artır. Azərbaycanın üçrəngli bayrağı ən uca zirvələrə yüksəlir. Bu gün müstəqil Azərbaycan bütün dünyada həm də idman dövləti kimi tanınır. Bu, həqiqətən qürurverici uğurdur! Eyni zamanda, idmançılarımız Vətənin, torpağın ağır, çətin günündə həmişə ön sıralarda olublar.

Son 20 ildə Azərbaycanın əksər bölgələrində Oimpiya Mərkəzlləri, ən yüksək tələblərə cavab verən stadionlar inşa edilmişdir. Bu istiqamətdə görülən titanik işlər öz müsbət nəticələrini, verməli idi və verdi də! Belə ki, Azərbaycan idmançılarının beynəlxalq idman yarışlarında bir-birindən parlaq uğurları başlandı. Təkcə 2008-ci ildə Pekin Olimpiya Oyunlarında idmançılarımız 7 medal qazandılar və dünyanın 200-dən çox ölkəsi arasında 38-ci yeri tutdular.

Azərbaycanda ən yüksək beynəlxalq standartlara cavab verən idman infrastrukturu yaradılıb. Bakı Olimpiya Stadionu, Tofiq Bəhramov adına Respublika Stadionu, Bakı Su İdmanı Sarayı, Bakı İdman Sarayı, "Baku Crystall Hall", Bakı Tennis Akademiyası, Heydər Əliyev adına İdman Arenası, "Bakcell Arena", Bakı Atıcılıq Mərkəzi, Bakı Ekspo Mərkəzi və digər idman kompleksləri və s. bu sahədə görülən nəhəng işlərdən soraq verir.

Azərbaycan, eyni zamanda, ən yüksək səviyyəli idman yarışlarına ev sahibliyi edib. Onların bir neçəsinin adını saya bilərik: Yeniyetmə cüdoçuların Avropa çempionatı, bədii gimnastika üzrə 27-ci dünya çempionatı, sərbəst güləş və yunan-Roma güləşi üzrə 24-cü dünya çempionatı, görmə qüsurlu paralimpiyaçı cüdoçular arasında Avropa çempionatı, bədii gimnastika üzrə 25-ci Avropa çempionatı, qılıncoynatma üzrə gənclər və kadetlər arasında dünya çempionatı, gənclər arasında boks üzrə dünya çempionatı və s.

2015-ci ildə ilk Avropa Oyunlarının Bakıda keçirilməsi böyük nailiyyət kimi idman tariximizə düşüb. 17 gün ərizində dünya bu elitar idman yarışında xalqımızın tolerantlığı, sülhsevərliyi, qonaqpərvərliyinin bir daha şahidi oldu. Əslində, "Bakı-2015" ilk Avropa Oyunları təkcə qitədə deyil, dünya miqyasında mötəbər idman tədbiri kimi tarixin yaddaşına yazıldı. Cəmi 2 il sonra, ölkəmizdə yenidən böyük uğurla təşkil olunan İslam Həmrəyliyi Oyunlarında Azərbaycan birinci yerə çıxaraq bir daha gücünü göstərdi

Dünyanın ən qədim və gözəl şəhərlərindən olan Bakı "Formula-1" yarışlarına da böyük uğurla ev sahibliyi edir. 1950-ci ildən etibarən hər il keçirilən bu tədbirin möhtəşəmliyini təmin etmək üçün paytaxtımızda lazımi şərait yaradılıb. Bu nüfuzlu yarışın planetin 190 ölkəsində yarım milyondan çox azarkeşi var. Azərbaycan "Formula-1"i ən yüksək səviyyədə təşkil etməyi bacaran ölkələrin ilk sırasındadır.

Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyev ölkə idmançılarının ən yaxın dostu hesab olunur. Yeri gəlmişkən, dövlət başçımız 2024-cü il dekabrın 24-də ölkə idmanının yekunlarına həsr olunmuş mərasimdə demişdir: "2024-cü il də Azərbaycan idmanı üçün uğurlu olmuşdur. Azərbaycan idmançıları beynəlxalq yarışlarda ölkəmizi ləyaqətlə təmsil etmişlər, 1700-ə yaxın medal qazanılmışdır. Bu, onu göstərir ki, idmanımız inkişaf edir, yeni nəsil idmançılar yetişir və beləliklə, Azərbaycan idman dövləti kimi öz gücünü müxtəlif beynəlxalq yarışlarda təsdiqləyir".

Xatırladaq ki, bu il Azərbaycan MDB Oyunlarına ev sahibliyi edəcək. Bunun üçün 14 şəhər seçilib və əsas oyunlar Gəncə şəhərində keçiriləcək. Gəncə şəhəri MDB Oyunlarının mərkəzi olacaq. Məlumdur ki, Gəncədə yeni stadion inşa edilir və Oyunlara qədər istismara verilməlidir. Eyni zamanda, bir neçə ay bundan əvvəl Gəncədə ölkəmizin ən böyük Olimpiya İdman Kompleksi açılmışdır. Hətta Bakı şəhərində bu boyda və bu qədər funksional standartlara cavab verən Olimpiya Kompleksi olmamışdır.

Xalqımız dünya idman arenalarında başımızı uca edən idmançılarımızla fəxr edir. Azərbaycan idmançıları peşəkar və vətənpərvərdirlər. Onlar hər dəfə ən məsul yarışlarda qələbə uğrunda əzmlə mübarizə aparmaqla, milyonlarla Azərbaycan vətəndaşına hədsiz sevinc hissləri bəxş etməyə çalışırlar. Bayramınız mübarək, əziz idmançılar!

***Məsaim ABDULLAYEV***
***XQ***

# Yarışlarda qələbələr ölkəmizi məşhurlaşdırır

**Azərbaycanın idman ictimaiyyətinin, bütünlükdə xalqımızın 5 Mart – Bədən Tərbiyəsi və İdman Gününü böyük təntənə ilə qeyd etməsi təsadüfi deyil. Məhz müstəqillik dövründə Olimpiya hərəkatının qabaqcıl ölkələri sırasında layiqli yer tutmuş Azərbaycanda bu gün yüksək qələbələr qazanan çox güclü, eyni zamanda sağlam və vətənpərvər gənc nəsil yetişir. Elə bir nəsil ki, beynəlxalq arenalarda bayrağımızı ən yüksək zirvələrdə dalğalandırır, adlarını dünya idmanı tarixinə qızıl hərflərlə yazdırırlar.**



"Xalq qəzeti" olaraq, dünyaya səs salmış qələbələrimizlə bağlı idman ictimaiyyətinin nümayəndələri ilə görüşüb, bu əlamətdar gün üçün fikirlərini öyrəndik.

**Milli Olimpiya Komitəsinin vitse-prezidenti, Olimpiya çempionu Zemfira Meftahətdinova bildirdi ki, Azərbaycanın çox şanlı idman tarixi vardır:**

1997-ci ildə Prezident İlham Əliyevin Milli Olimpiya Komitəsinin rəhbəri seçilməsi ölkəmizdə Olimpiya hərəkatının başlanğıcını qoymuşdur. Dövlətimizin başçısının ardıcıl səyləri, uğurlu idman siyasəti nəticəsində Azərbaycan dünyanın ən nüfuzlu idman ölkəsinə çevrilib. Dünya xalqlarının və ölkələrinin bir-birinə tanıdılması, təbliğ olunması baxımından əvəzsiz rol oynayan Olimpiya oyunlarında əldə edilən nailiyyətlər dövlətimizin gücünü dünyaya nümayiş etdirir. Azərbaycanın son Olimpiadada "Paris-2024"də 2 qızıl, 2 gümüş və 3 bürünc medalla dünyanın ən güclü 30 ölkəsinin arasında yer alması komandamız üçün çox yaxşı nəticədir.

Güclü idman ölkəsi kimi tanınan Azərbaycanda mükəmməl idman infrastrukturu qurulub. Bakıda, həmçinin ölkəmizin bütün regionlarında müasir standartlı Olimpiya İdman kompleksləri fəaliyyət göstərir. İdmanın maddi-texniki bazasının yüksək səviyyədə qurulması ölkəmizdə beynəlxalq nüfuzlu yarışların keçirilməsi üçün geniş imkanlar yaradıb.

Bütün bu nailiyyətlər Azərbaycanda əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş idman siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilməsi sayəsində əldə olunub. İdmanın inkişafı istiqamətində həyata keçirilən tədbirlər, idmançılara göstərilən diqqət və qayğı, müasir standartlara cavab verən mükəmməl idman infrastrukturu gələcəkdə daha böyük nailiyyətlərin qazanılması üçün möhkəm zəmin yaradır. 5 Mart – Bədən Tərbiyəsi və İdman Günü xalqımız üçün əlamətdar günlərdən biridir. Bu münasibətlə xalqımızı ürəkdən təbrik edirəm. Uğurlarımız həmişə bol olsun!

Son illər cüdo komandamız böyük nailiyyətləri ilə dünya miqyasında diqqət mərkəzindədirlər. Ötən Olimpiadada 2 cüdoçumuz bütün rəqiblərini məğlub edərək fəxri kürsünün ən yüksək zirvəsində yer aldı. Hazırda Olimpiya çempionu Hidayət Heydərov dünya reytinqində liderliyini qoruyur.

**Azərbaycan Cüdo Federasiyasının icraçı vitse-prezidenti Rəşad Rəsullu məhz ölkəmizin öz müstəqilliyini qazandıqdan sonra bu qədər nailiyyət əldə etdiyini bildirdi:**



– Müstəqil Azərbaycanda əldə edilən nailiyyətlər Bu gün bu əlamətdar günü təkcə idman ictimaiyyəti qeyd etmir. Azərbaycanın dünyada qazandığı böyük qələbələr xalqımızın milli qürur mənbəyidir. Ümummilli lider Heydər Əliyev demişdir: "İdman kimi Azərbaycanın müstəqilliyinin rəmzlərini nümayiş etdirən ikinci bir vasitə yoxdur". Paris



Olimpiadasında cüdoçularımızın şərəfinə 2 dəfə Azərbaycan bayrağı yüksəklərə qaldırıldı, Dövlət Himnimiz səsləndirildi. Xalqımız qəhrəman idmançılarımızla fəxr edir, qürur duyur. Məhz bu böyük qələbələr dövlət tərəfindən idmana, idmançılarımıza göstərilən diqqət və qayğı nəticəsində mümkün olub.

Sevindirici haldır ki, yeniyetmə və gənclər arasında Avropa, Dünya çempionatlarında qələbələrimizin sayı getdikcə artır. Bu, o deməkdir ki, növbəti Olimpiya Oyunlarında daha böyük nəticələr üçün əsas yaranıb. Artıq "Los-Anceles-2028" Yay Olimpiya Oyunlarının heyəti üçün işə başlamışıq. Əminik ki, Azərbaycanın idman nailiyyətləri daha böyük vüsət alacaq və qələbələrimiz davamlı olacaq.

Ötən il Albaniyada keçirilən dünya çempionatında yunan-Roma güləşi üzrə millimizin tarixi uğurunu belə bir əlamətdar gündə böyük minnətdarlıq hissi ilə xatırlayırıq. Üç qızıl medalla komanda hesabında aşkar fərqlə dünya çempionu olan və titulunu qoruyan yığmamızın böyük qələbəsi xalqımıza qürur hissi yaşatdı. **Yarışda qızıl medal qazanan güləşçilərimizdən biri, karyerasında 4-cü dəfə dünya çempionu olmaqla Azərbaycan güləş tarixində ilkə imza atan Eldəniz Əzizli bu uğurun böyük zəhmət hesabına qazanıldığını bildirdi:**

– Biz idmançılar şanslıyıq ki, Azərbaycan kimi qabaqcıl idman ölkəsində yaşayırıq. Ölkəmiz qalib dövlət kimi dünyada böyük şöhrət qazanıb. Döyüşə yalnız qələbə üçün çıxırıq. Ötən il 4-cü dəfə dünya çempionu olduğum zaman, həm də komandamızın uğurlu çıxışına çox sevindim. 4-cü dəfə dünya çempionu olmaqla Azərbaycan güləş tarixində yeni rekorda imza atdım. Azərbaycan bayrağı yüksəklərdə dalğalanıb, himnimiz səsləndikcə böyük qürur hissi keçirdik. Bu uğurların əldə edilməsində bizə dövlət tərəfindən göstərilən diqqət və qayğının mühüm əhəmiyyəti var. İdmançı növbəti hədəflərini də açıqladı:

– Bu ilin aprel ayında Slovakiyada keçiriləcək Avropa çempionatında iştirak edəcəyəm. Qitə çempionatında 2-si qızıl olmaqla 7 dəfə mükafatçı olmuşam. Sentyabr ayında isə bizi daha bir nüfuzlu yarış gözləyir. Xorvatiyada keçiriləcək dünya çempionatına qızıl medal üçün yollanacağam. Şanslarımı yüksək qiymətləndirirəm. 3 ildir ki, dalbadal dünya çempionu oluram. Hədəf 5-ci dünya çempionluğudur.

Azərbaycan sağlam gəncliyi və sağlam gələcəyi olan bir dövlətdir. İdmana diqqət və qayğı sayəsində nailiyyətlər əldə etməklə yanaşı, həm də əhalinin asudə vaxtının səmərəli təşkilinə, gələcək nəslin sağlam yetişməsinə nail oluruq. Gənc nəslin hərbi-vətənpərvərlik tərbiyəsində, fiziki hazırlığında, bir çox yüksək keyfiyyətlərə yiyələnməsində mühüm rol oynayan idman bu gün xalqımızın həyat tərzinə çevrilib.

***Leyla QURBANOVA***
***XQ***

Futbol tariximizdən



# "Neftçi"nin kapitan Əsgəri

**17 il ərzində (1979–1988) SSRİ çempionatlarının güclülər dəstəsində 222 oyun keçirib, 1 qol vurmuş Əsgər Abdullayev arxa xətdə böyük əzmkarlığı və döyüşkən ruhuna görə fədakar müdafiəçi adlandırılmağa layiq idi. Bu cəsur gənc topu şərəfini qoruduğu komandanın qapısında görməmək üçün hər şeyə hazır görünürdü. Məhz buna görə də ötən əsrin 80-ci illərinə qayıdıb, tezliklə, martın 27-də 65 yaşını qeyd edəcək SSRİ idman ustası Ə.Abdullayevin böyük futbolda keçdiyi yola, ötəri də olsa, bir daha nəzər salıb, görək yadımızda nələr qalıb.**

Yazımızın səbəbkarının Sovet İttifaqı çempionatlarının güclülər dəstəsində 222 oyunun iştirakçısı olub, 1 qol vurduğunu mərhum həmkarım Abas Əzimovun 2007-ci ildə nəşr etdirdiyi "Neftçi"–70 kitabından öyrəndim. Bundan sonra "1" rəqəmi ilə çox maraqlandım və tənbəllik etməyib, Əsgərin ilk və sonuncu qolunu məhz nə vaxt, hansı oyunda, kimin qapısına vurduğunu öyrənmək istədim. Axtarış bir qədər çox vaxt aparsa da, uğurla başa çatdı. Bu zaman həm də oyun haqqında hakim protokolunun köməyi ilə xeyli əlavə məlumat da aldım.

Həmin qol 1987-ci il iyulun 29-da 50-ci SSRİ çempionatının "Jalgiris"–"Neftçi" görüşündə qeydə alınmışdır. Vilnüsün "Jalgiris" mərkəzi stadionunda keçirilmiş oyunda hesabı 30-cu dəqiqədə meydan sahiblərinin hücumçusu Pankratyev açmış, moskvalı hakim Sergey Xusainovun final işarəsinə 2 dəqiqə qalmış isə hücumçu dostlarının köməyinə gələn Əsgər komandasını məğlubiyyətdən xilas etmişdir – 1:1.

"Neftçi" tribunalardan 11 min azarkeşin izlədiyi görüşdə belə heyətdə oynamışdır: Aleksandr Jidkov, Mustafa Bilalov, Əsgər Abdullayev, Arzu Mirzəyev (Mehman Allahverdiyev, 64), Andrey Fedorovski, Nazim Süleymanov, Yunis Hüseynov (Novruz Əzimov, 88), Şakir Qəribov, İqor Ponomaryov, Maşallah Əhmədov, İsgəndər Cavadov.

Yubiley çempionatında 16 komanda çıxış etmiş, bakılılar yekun cədvəlində 28 xalla 9-cu yeri tutmuşlar. Qızıl medallar isə 42 xal toplayan Moskvanın "Spartak" komandası futbolçularına təqdim olunmuşdur.

İnanın, bu məlumatdan sonra Abdullayevin SSRİ çempionatlarının güclülər dəstəsində vurduğu qol – hücuma qoşulan müdafiəçinin fərqləndiyi epizod o vaxt Litva paytaxtından canlı yayımlanan görüşün 88-ci dəqiqəsində "Neftçi" futbolçularının sevincli anlarını dərhal gözlərim qarşısında canlandırdı.

Top "Jalgiris"in qapısından keçən kimi bizimkilər qolun müəllifinə tərəf qaçaraq, onu qucaqlayıb, əlləri üstə qaldırıb, bir qədər irəli, meydanın mərkəzinə tərəf apardılar. Hamının sevinci hədsiz idi. Gözlənilmədən hücuma qoşulan Əsgər komandasını məğlubiyyətdən xilas etmiş və ona çox mühüm 1 xal qazandırmışdı. "Neftçi" Baltikyanı respublikadan Xəzər sahillərinə əliboş qayıtmayacaqdı.

Bir çox oyunda komandanı meydana kapitan kimi çıxarması Abdullayevin kollektivdə yüksək nüfuzunu, liderlik bacarığını təsdiq edirdi. Komanda yoldaşları da onun məsləhətlərini həmişə diqqətlə dinləyib, ümidlərini doğrultmağa çalışırdılar.

Kapitan bir futbolçu kimi çıxışlarını başa vurduqdan sonra məşqçilik fəaliyyətinə başlayıb, bir neçə komandanın "sükanı arxasında" dayanmış, Azərbaycan milli kollektivini də çalışdırmışdır. Bu komandada ən böyük uğuruna 2004-cü il Avropa çempionatının seçmə mərhələsində o zaman Serbiya və Çernoqoriya adlanan, indi isə Çernoqoriya, Monteneqro kimi tanıdığımız ölkənin komandası ilə oyunlarda nail olmuşdur. Millimiz hər iki görüşün gedişində hesabda geri düşsə də, əsl döyüşçü xarakteri göstərmişdir.

Rəqiblər əvvəlcə hazırda Çernoqoriyanın ən böyük şəhəri və paytaxtı Podqoritsada qarşılaşmışlar. Meydan sahibləri 2:0 hesabı ilə irəli çıxmış, amma Qurban Qurbanovun iki dəqiq zərbəsindən sonra tərəflər heç-heçəyə "razılaşmışlar" (2:2).

Bakıda, "Şəfa" stadionunda oynanılmış matçda da Azərbaycan kollektivi möhkəm iradə və böyük əzmkarlıq göstərmişdir. Yenə ilk qola Serbiya və Çernoqoriya sevinmiş, amma sonra Qurbanov penalti ilə hesabı bərabərləşdirmiş, Fərrux İsmayılov da öz növbəsində gözəl baş zərbəsi ilə oyunun taleyini komandamızın xeyrinə həll etmişdir – 2:1.

Onda 2003-cü ilin isti bir yay axşamı, iyunun 11-i idi. Əsgər Abdullayev, onun oyunçuları, azarkeşlər, bütün idman ictimaiyyətimiz xoşbəxtcəsinə gözəl bir gün yaşayırdılar…

Bu gün isə Azərbaycan 5 mart Bədən Tərbiyəsi və İdman Gününü bayram edir. Əsgər Məmməd oğlu Abdullayevin 65 illik yubileyinin bu əlamətdar hadisənin qeyd olunduğu aya, üstəlik də, erkən bahara təsadüf etməsi "Neftçi"mizin fədakar Əsgərinə taleyin töhfəsidir.

**O, barlı-bərəkətli baharda doğulmuşdur. Baharın bəzəyi isə futboldur!**

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

Qayıdışın addımları

# Ağdərəlilər də ağ günlərinə qovuşurlar







**(əvvəli 1-ci səhifədə)**

Görən kimi də ilk baxışdan vurulmuşdum. Elə bil uca Tanrı bu yerləri – başı buludlardan nəm çəkən zirvələri, dərin dərələri, şırıl-şırıl axan Tərtərçayı bir başqa sevgilə yaradıb. Odur ki, indi, qışın oğlan çağında sərt enişli, dik yoxuşlu, dolanbac yollarla yenidən Ağdərəyə, rayonun uzaqdan ilk baxışda Şuşanı andıran, sıldırım qayalarla əhatələnmiş Həsənriz kəndinə getmək məndə sevinc dolu duyğular oyadır.

Fəxrlə, qürurla düşünürəm ki, rəşadətli ordumuzun şanlı qələbələri sayəsində mənfur düşmən işğalından azad edilmiş Ağdərə də Qarabağın və Şərgi Zəngəzurun hər yerində olduğu kimi, yenidən qurulur, doğma sakinlərinin qayıdışı ilə tarixi yurd yerlərimizə həyat qayıdır. Həsənrizə səfərimin məqsədi də elə bu xoş məramla bağlıdır. Axı bu gün, mart ayının 3-də müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin tapşırığına əsasən, 91 nəfər ağdərəlinin 32 illik Vətən həsrəti sona çatır, 25 ailəlik köç karvanı ilk dəfə olaraq Həsənriz kəndinə istiqamət götürüb. Bu gündən etibarən daha bir əzəli yurd yerimizdə evlərin işıqları əbədi yanacaq, ocaqları qalanacaq. Uzun illərin ayrılığından sonra ilk dəfə sabah (bu gün – M.R.) Həsənrizdə od çərşənbəsi keçiriləcək, novruz tonqalları qalanacaq!

Sevindiricidir ki, bu, keçmiş məcburi köçkünlərin Ağdərəyə artıq ikinci qayıdışıdır. Məlum olduğu kimi, hələ Azərbaycan Ordusunun Qarabağda erməni separatçılarına qarşı keçirdiyi birgünlük antiterror tədbirlərindən də əvvəl, 2023-cü il martın 16-da rayonun Talış kəndinə ilk köç baş tutmuşdu.

...Yolların xüsusilə qalın meşələrin içindən keçən hissələrində qalın qar olmasına, bəzi yerlərdə hətta buz bağlamasına rəğmən, Həsənrizə nəzərdə tutduğumuzdan tez çatıram. Öyrənirəm ki, köç karvanı da tezliklə burada olacaq. Fürsətdən istifadə edib kənddə aparılmış bərpa-quruculuq işləri ilə, sakinlər üçün yaradılmış şəraitlə tanış oluram. Hər yerdə görülən işlər göz oxşayır. Evlər yaşayış üçün tam hazır vəziyyətə gətirilib, məktəb binası, tibb məntəqəsi əsaslı təmir olunub. Kənd daimi elektrik enerjisi, içməli su və təbii qazla təmin edilib. Bir sözlə, barlı-bərəkətli torpaqları olan Həsənrizdə yaşamaq, işləmək, bu yerləri inkişaf etdirmək üçün hər cür şərait yaradılıb.

Tezliklə köç karvanı da yeni ünvanına çatdı. Ailələrə mənzillərin açarlarının təqdim edilməsi mərasimində Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Elçin Yusubov, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin rəsmiləri, mətbuat nümayəndələri və digər şəxslər iştirak edirdilər. Sakinlər qarşısında çıxış edən E.Yusubov müqəddəs Ramazan ayında və xalqımızın novruz çərşənbələrini qeyd etdiyi bugünlərdə Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq Həsənriz kəndinə baş tutan ilk köç münasibətilə təbriklərini çatdırdı. Qeyd etdi ki, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramına əsasən, yenidən qurulan Həsənrizə respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələr bundan sonra da mərhələli şəkildə köçürüləcək. Ümumilikdə isə kənddə 500-ə qədər fərdi yaşayış evinin bərpası nəzərdə tutulub. Xüsusi nümayəndə dövlətimizin bundan sonra da Həsənriz sakinlərinin yanında olacağını, onların qayğılarının və məşğulluq məsələlərinin diqqətdə saxlanılacağını vurğuladı.

Çıxış edən keçmiş məcburi köçkünlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür etdilər. Onlar, həmçinin torpaqlarımızı işğaldan azad edən Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirdilər, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət dilədilər. Sonda kəndə köç edən ailələrə mənzillərinin açarları təqdim edildi, onlar sonsuz sevinc və qürur içində yeni evlərinə doğru üz tutdular.

Biz də həsənrizlilərin sevincinə qoşularaq fürsətdən istifadə edib onların təəssüratlarını öyrəndik. İlk söhbət etdiyimiz sakin Dağyunus Nəbiyev bildirdi ki, Ağdərəyə qayıtmaq, burada daimi məskunlaşmaq onun ən böyük arzusu olub:

- Ailəmiz Ağdərədən didərgin düşəndə mənim cəmi 6 yaşım vardı. Yenidən qurulan, gözəl Həsənrizin ilk sakinlərindən biri olduğum üçün qürur duyuram. Yaşadığımız həsrət dolu günlər geridə qaldı. Daha bundan sonra doğma kəndimizdə yeni təmir olunmuş evimdə rahat yaşayacam. Buna görə də sevincimin həddi-hüdudu yoxdur. Bu gündən daha məcburi köçkün deyiləm və mənim kimi, həmkəndlilərimin də ən böyük arzusu reallığa çevrilib. Çox şükür, Allaha!

Növbəti həmsöhbətimiz Aynurə Həsənova ibtidai sinif müəllimidir, neçə illərdir körpə fidanlarımıza dərs deyir. Dədə-baba yurduna qayıdışın sevinci içindədir. Deyir, mənim üçün fəxrdir ki, Həsənrizin ilk sakinlərindənəm və bundan sonra buradakı yaraşıqlı məktəbdə sevimli şagirdlərimin vətənpərvər ruhda böyüməlari, xalqımıza, dövlətimizə layiqli övladlar kimi tərbiyə almaları üçün çalışacam. Aynurə müəllimin oğlu İzzət də söhbətimizə qoşulur. Bildirir ki, uzun illər Goranboy rayonunun Qaraçinar kəndində məskunlaşmışdıq. Ata-baba yurdumuza qayıtdığımız üçün çox qürurluyam. Bu yerləri ilk dəfə görsəm də mənə əzizdir, doğmadır. Baxdıqca insanın ürəyi açılır.

**53 yaşlı Elmar Süleymanov:**

– Uzun illər respublikamızın müxtəlif bölgələrində yaşamışıq. Vətənin hər yeri bizim üçün əzizdir, ancaq insanın doğulduğu torpaq bir başqa şirin olur. Allaha çox şükürlər olsun ki, doğma yurda qayıtmaq, yenidən bu yerlərdə yaşamaq mənə qismət oldu. Evimizlə tanış olmuşuq. Gözəl təmir edilib. Fürsətdən istifadə edib əziyyət çəkənlərin hamısına bütün sakinlər adından minnətdarlığımı bildirmək istəyirəm.

Valideynlərinin yanında dayanmış balaca Ayxanın da üzü gülür. Yaxınlaşıb söhbətə başlayırıq. Deyir, ilk dəfədir gördüyüm bu yerlər indiyədək ailəmizlə yaşadığımız Bərdədən daha gözəldir. Həm havası yaxşıdır, həm mənzərəsi. Doğrudan da, Həsənrizin istər təmiz havası, istərsə də hər istiqamətdə göz işlədikcə uzanan gözəlliklərə, başı qarlı dağlara açılmış əsrarəngiz mənzərəsi insanı elə ilk baxışdaca özünə valeh edir. Ayxan artıq yeni məktəbini də görüb və dediyinə görə, kənardan görünüşü xoşuna gəlib. Ən qısa vaxtda məktəbin daxili ilə də tanış olacağı, burada özünə yeni dostlar tapacağı günü səbirsizliklə gözləyir.

**Balaca Ayxanla sağollaşıb Həsənrizin hələlik ən yaşlı sakini olan, 1938-ci il təvəllüdlü Roza Əzizovaya yaxınlaşıram. Həyəcandan əlləri kimi, səsi də titrəyə-titrəyə deyir ki, sevincini sözlə ifadə etməkdə çətinlik çəkir:**

– 87 yaşım var. Torpaqlarımız düşmən işğalından azad ediləndən sonra ilk dəfədir doğma yurdumuza gəlmişəm. Kaş səhhətim imkan verə, bu yerləri qarış-qarış gəzəm. Ay oğul, fikir verdiniz, neçə gündü qar-qayamət idi, amma bu gün elə bil yaz havasıdı. Sanki təbiət də gəlişimizə sevinir. Bütün yol boyu dua edib Allahdan şəhidlərimizə rəhmət diləmişəm. Allah Prezidentimizə cansağlığı, uzun ömür versin, ordumuzu qorusun! Bir də dua etmişəm ki, Allah xalqımızın birliyini heç zaman pozmasın! Amin!

Mən də Roza ananın dualarına qoşulub ürəkdən "amin!" deyirəm. Nə xoş ki, həsrətin bitdiyi ünvanlar sırasına Ağdərə rayonunun Həsənriz kəndi də qoşuldu. Nə xoş ki, bu tarixi anları həsənrizlilərlə birlikdə yaşamaq mənə də qismət oldu! Axı doğma sakinlərinin Ağdərəyə qayıdışı təkcə onların deyil, hamımızın sevinci, fərəhidir. Sözsüz, bu günlər də şanlı zəfər tariximizin növbəti qızıl hərflərlə yazılmış səhifələrinə çevriləcək. Növbəti dəfə gözün aydın, Vətən!

***Mahir RƏSULOĞLU,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***

**Ağdərə**

BEYNƏLXALQ HƏYAT

# ABŞ-ın hərbi yardımı dayandırması Ukraynanı çətin duruma salacaq

**ABŞ-Ukrayna münasibətləri beynəlxalq gündəmin bir nömrəli mövzusu olaraq qalır. Ötən cümə günü Ağ evin Oval kabinetində ABŞ prezidenti Donald Tramp ilə Ukrayna prezidenti Volodimir Zelenski arasında baş verən qalmaqallı mübahisədən sonra hamını bir sual maraqlandırır: Vaşinqton Kiyevə hərbi yardımlarını davam etdirəcəkmi? ABŞ mətbuatı Ağ evin "kötüyü" işə saldığını, yəni bütün yardımların dayandırıldığını iddia edir. Nə qədər paradoksal səslənsə də, dünya Qərbin Qərbə qarşı olduğu bir mərhələyə qədəm qoyur.**



ABŞ prezidenti Donald Tramp Bakı vaxtilə səhər saatlarında Konqresdə çıxış edəcək və orada Ağ ev sahibinin Ukraynaya yardımın göstərilməsi ilə bağlı yanaşma dəyişikliyini elan edəcəyi gözlənilir. Əslində, prosesin artıq başlandığı iddia olunur. Belə ki, ABŞ mətbuatı Ukraynaya yardımların dayandırılması barədə əmrin verildiyini yazır. ABŞ Müdafiə Nazirliyinin adı açıqlanmayan rəsmisinin sözlərinə görə, "Tramp ölkə liderlərinin sülhə xoş niyyət nümayiş etdirdiyini müəyyən edənə qədər Birləşmiş Ştatlar Ukraynaya bütün hazırkı hərbi yardımı dayandırır". Hazırda Ukraynada olmayan bütün Amerika hərbi texnikasının, o cümlədən təyyarə və gəmilərdə tranzitdə olan və ya Polşada tranzit zonalarda gözləyən silahların tədarükü dayandırılır. KİV Trampın müdafiə naziri Pit Heqsetə "bu fasiləni həyata keçirməyi" tapşırdığı iddia edir.

Ağ ev məsələ ilə bağlı hələlik rəsmi açıqlama vermir. Hətta ABC News xəbər verir ki, Kiyevin ABŞ-ın özəl silah korporasiyaları ilə bağladığı müqavilələrə əsasən, yaxın bir neçə il ərzində Amerika silahlarının Ukraynaya axını davam edəcək. Televiziya kanalı bildirir ki, bu müqavilələrin bir çoxu artıq ödənilmişdir və Donald Tramp administrasiyası nəzəri olaraq müdaxilə edə bilsə də, tədarükün həyata keçirilməsini pozmamasına dair hələlik heç bir əlamət yoxdur. Bundan başqa, Ukraynanın baş naziri Denis Şmıqal da bildirdi ki, martın 3-dən etibarən ABŞ-dan silah tədarükü davam edir və heç bir silahın dayandırılması barədə məlumat yoxdur.

Bununla belə, KİV-də yayılan sözügedən iddia dünyada, xüsusilə də Avropada ciddi tənqid olunur və Ukraynaya yardım məsələsində daha fəal və real addımlar atılmasına çağırışlar edilir. Məsələn, ABŞ-ın Ukraynaya yardımı dayandırmaq qərarına cavab olaraq Almaniyanın "Yaşıllar" partiyasının lideri Françiska Brantner Ukraynaya planlaşdırılan 3 milyard avroluq yardım paketinin təcili qəbul edilməsinə çağırır. Bundestaq bundan əvvəl Ukraynaya əlavə yardım haqqında qərar qəbul edə bilməmişdi, lakin xanım Brantner hesab edir ki, ABŞ-ın qərarından sonra hərəkətə keçmək vaxtıdır: "İndi Şoltsun (Olaf Şolts-kansler-red.) maliyyə naziri nəhayət, Bundestaqa təklif təqdim etməlidir ki, Ukraynaya çoxdan planlaşdırılan üç milyard avroluq yardım ayrılsın".

Vaşinqtonun məlum addımını tənqid edən Fransa hökuməti bəyan edir ki, ABŞ-ın Ukraynaya hərbi yardımı dayandırmaq qərarı sülhü "daha da uzaqlaşdırır". Avropa İşləri üzrə kiçik nazir Benjamin Odda mətbuata açıqlamasında bildirir ki, "Ukraynaya silah tədarükünü dayandırmaq qərarı sülhü uzaqlaşdırır, çünki bu, yalnız təcavüzkarın əlini yerdə, yəni Rusiyada gücləndirəcəkdir". Nazir təəssüf edir ki, Ukraynaya yox, sonuncuya təzyiq göstərilməlidir.

Polşa Xarici İşlər Nazirliyi də Donald Tramp administrasiyasının Ukraynaya hərbi yardımı dayandırmaq qərarının müttəfiqlərlə məsləhətləşmədən qəbul edildiyini bildirir. Nazirliyin nümayəndəsi Pavel Vronski "The Guardian" qəzetinə müsahibəsində vurğulayır ki, vəziyyət çox ciddidir və mühüm siyasi əhəmiyyətə malikdir: "Onun böyük siyasi əhəmiyyəti var – bu qərar heç bir məlumat olmadan, nə NATO müttəfiqləri ilə, nə də Ukraynanı onun mübarizəsində dəstəkləməkdə iştirak edən Rammstein format qrupu ilə məsləhətləşmədən qəbul edildi".

Danimarkanın müdafiə naziri Troels Lund Poulsen isə ABŞ-ın Ukraynaya yardımını dayandırmasını çox ciddi vəziyyət adlandırır və qeyd edir ki, ukraynalıların amerikalılardan tamamilə asılı olduğu məqamlar var. Nazirin sözlərinə görə, bu, qonşusu Rusiya ilə 3 ildən artıqdır ki, müharibə vəziyyətində olan Ukrayna üçün böyük əhəmiyyət kəsb edəcək: "Bu, döyüş meydanına təsir edəcək və ən azı ukraynalıların müdafiə qabiliyyətinə təsir göstərəcək. Elə məqamlar var ki, ukraynalılar tamamilə amerikalılardan asılıdırlar". Danimarkalı nazir bildirir ki, Ukraynanın güclü beynəlxalq dəstəyə ehtiyacı var və buna görə də Avropa daha çox və daha sürətli işlər görməlidir: "Avropadan daha çox sürət tələb olunur və biz yaxın bir neçə gün ərzində Avropada qərar verməliyik ki, Ukrayna müdafiə sənayesinə Ukraynadakı ianələr üçün əlavə milyardlarla avro ayrılsın".

Bəs okeanın o tayından endirilən zərbələrin təsirindən oyanmağa çalışan Avropa silahlanma və Ukrayna məsələsində konkret hansı addımlar atmağı planlaşdırır? Ötən gün Avropa Komissiyasının (AK) rəhbəri Ursula Fon der Lyayen mətbuat konfransında Avropa İttifaqını yenidən silahlandırmaq planı təklif etdiyini bildirdi və əlavə etdi ki, layihənin dəyəri 800 milyard avrodur. Onun sözlərinə görə, indi söhbət Avropanın təhlükəsizliyinin təhdid altında olmasında və daha çox iş görülməli olmasında deyil: "Həqiqətən, biz bu sualların cavablarını artıq bilirik. Bizim üçün əsl sual, vəziyyətin tələb etdiyi kimi, Avropanın qətiyyətlə hərəkət etməyə hazır olub-olmamasıdır. Avropanın isə sürətlə hərəkətə keçməyə hazır olub-olmamasıdır".

Bundan başqa, xanım Lyayen Ukraynanı dəstəkləmək üçün Avropanı yenidən silahlandırmaq zərurəti ilə bağlı əvvəlki bəyanatını təkrarladı. Ona görə də AK rəhbəri Aİ sammiti öncəsi "Köhnə dünya"nı yenidən silahlandırmaq məqsədilə hazırlanmış beş mərhələdən ibarət planı Avropa liderlərinə göndərdiyini açıqladı. Aİ icra orqanı rəhbərinin sözlərinə görə, Avropa Komissiyası həmçinin Aİ ölkələri üçün hava hücumundan müdafiə sistemlərinin və Ukrayna üçün silahların istehsalına 150 milyard avro kredit cəlb etmək niyyətindədir.

Bir sözlə, Avropa "azad dünya"nın lideri saydığı ABŞ-a qarşı olduğunu bildirir və Ukraynaya dəstək göstərəcəyini vurğulayır. Bununla belə, Qərb mediası yazır ki, Tramp Zelenskini hərbi yardımı dayandırmaqla minerallarla bağlı sövdələşmədəki təhlükəsizlik zəmanətlərini ləğv etməyə məcbur edəcək. Bu iddia ilə "Nyu-York Tayms" qəzeti çıxış edir. Ağ Ev "ümid edir" ki, Ukrayna prezidenti "tezliklə bu qərara gələcək". Nəşrin yazdığına görə, Tramp hələ də mineral sövdələşmənin mümkün qədər tez bağlanmasını "ümidlə istəyir", "lakin o, simasını itirməyə hazır deyil və Zelenskidən cümə günü Oval kabinetdəki qalmaqala görə üzr istəməsini istəyir".

Ukrayna isə ABŞ-dan silah tədarükünün dayandırılmasından qorxmadığını açıqlayır. Ukraynanın Baş naziri Denis Şmıqal ölkənin müdafiə sənayesi kompleksini əhəmiyyətli dərəcədə gücləndirdiyini və hərbi ehtiyacların əhəmiyyətli hissəsini müstəqil şəkildə ödəməyə qadir olduğunu vurğulayır. RBK-Ukraynanın xəbərinə görə, Şmıqal vurğulayır ki, iki il ərzində ölkədə artilleriya istehsalı 3 dəfə, zirehli transportyorların istehsalı 5 dəfə, tank əleyhinə silahların istehsalı 2 dəfə, döyüş sursatlarının istehsalı isə 2,5 dəfə artmışdır. Hazırda Ukrayna zəruri silahların üçdə birini müstəqil şəkildə istehsal edir və məqsəd ən azı 50 faizə çatmaqdır. Maliyyə Nazirliyinin məlumatında 2025-ci ildə Müdafiə Qüvvələrinin ehtiyacları üçün 2,2 trilyon qrivnadan çox vəsaitin ayrıldığını bildirir. Belə çıxır ki, hətta ABŞ-dan silah tədarükünün dayandırılması kontekstində də Ukrayna özünün müdafiə qabiliyyətini artırmaqda davam edir. Amma nə vaxtaqədər?

***Səbuhi MƏMMƏDOV***
***XQ***


## "Azəroksigen"ASC səhmdarlarının nəzərinə!

30 aprel 2025-ci il saat 14.00-da "Azəroksigen"ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir. Toplantı yerinin əlverişsiz şəraitdə olduğunu nəzərə alaraq, yığıncaq onlayn qaydada keçiriləcəkdir.

İclasa qoşulma qaydası yığıncaq iştirakçılarına göndərilən bildirişlərdə qeyd ediləcəkdir.

Ümumi yığıncağın gündəliyi:

1.Cəmiyyətin 2024-cü il üzrə maliyyə-təsərrüfat fəaliyyəti haqqında icra orqanın hesabatı.

2.Cəmiyyətin müşahidə şurasının üzvlərinin və sədrinin seçilməsi.

3.Cəmiyyətin icra orqanının seçilməsi.

4.Cəmiyyətin təftiş komissiyasının yaradılması.

Əlaqə telefonu (+994) 50 268 45 59.

## "Xətai Çörək" ASC səhmdarlarının nəzərinə!

30 aprel 2025-ci il saat 15.00-da "Xətai Çörək" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir. Toplantı yerinin əlverişsiz şəraitdə olduğunu nəzərə alaraq, yığıncaq onlayn qaydada keçiriləcəkdir.

İclasa qoşulma qaydası yığıncaq iştirakçılarına göndərilən bildirişlərdə qeyd ediləcəkdir.

Ümumi yığıncaqın gündəliyi:

1. Cəmiyyətin 2024-cü il üzrə maliyyə-təsərrüfat fəaliyyəti haqqında icra orqanın hesabatı.

Əlaqə telefonu (994) 50 268 45 59.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 49 (30743) 5 mart 2025-ci il, çərşənbə



# "Qənimətlər parkı"nda "Çempionlar xiyabanı"



**5 Mart Bədən Tərbiyəsi və İdman Günü münasibətilə ağacəkmə aksiyası keçirilib.**

Milli Olimpiya Komitəsinin təşkilatçılığı ilə keçirilən aksiya Dənizkənarı Milli Parkın "Ağ şəhər" ərazisində yerləşən "Qənimətlər parkı"nda təşkil olunub.

MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə, baş katibi Azər Əliyev, Azərbaycanın Olimpiya çempionları və titullu idmançılarının iştirak etdiyi aksiya zamanı "Çempionlar xiyabanı" salmaq məqsədilə parkın ərazisində 100 ədəd ağac əkilib.

# Kikboksinqçimizə 4 illik cəza



**Azərbaycan kikboksinqçisi Elşad Şahbazov diskvalifikasiya edilib.**

Bu barədə Azərbaycan Milli Antidopinq Agentliyinin rəsmi saytında məlumat verilib. Avropa Oyunlarının iştirakçısından götürülən test nümunəsində qadağan edilmiş maddə və ya onun metabolitləri və ya markerlərinin mövcudluğu aşkarlanıb. Nəticədə Şahbazov 4 illik (48 ay) cəzalandırılıb. Onun diskvalifikasiya müddəti 2023-cü ilin 25 noyabrından hesablanmağa başlayıb.

Qeyd edək ki, Şahbazov Krakovda keçirilən Avropa Oyunlarında mübarizə aparıb.

# Avropada 14 şahmatçımız mübarizə aparacaq



**Martın 15-26-da Rumıniyanın Eforie Nord şəhərində keçiriləcək kişilər arasında şahmat üzrə Avropa çempionatına qeydiyyat başa çatıb.**

Azərbaycanın 14 təmsilçisi yarışda iştirak üçün müraciət edib. Aydın Süleymanlı, Məhəmməd Muradlı, Nicat Abasov, Read Səmədov, Əhməd Əhmədzadə, Misrəddin İsgəndərov, Xəzər Babazadə, Vüqar Manafov, Şiroğlan Talıbov, Xaqan Əhməd, Elmar Atakişiyev, Şahin Vəliyev, Süleyman Süleymanlı və Ümid Aslanov Avropa çempionatında iştirak edəcəklər. Yarışda, ümumilikdə, 401 şahmatçı çıxış edəcək.

Turnirin reytinq favoriti Boqdan-Daniel Diakdır (Rumıniya), Aleksey Sarana (Serbiya) siyahıda ikinci, Yorden van Foreest (Niderland) isə üçüncüdür.

*L.AZAD*
*XQ*



# Palçıq vulkanları – təbii kəşfiyyatçılar

## *Onlar bizə yerin dərin qatlarının sirlərini pıçıldayır*



**Uzun illər turizm sahəsində çalışan tanışım bir dəfə dedi ki, əcnəbi turistləri ölkəmizdə ən çox maraqlandıran məkanlardan biri də palçıq vulkanlarıdır. Düzünü desəm, bu fikir mənə bir az qəribə gəldi. Görünür, bu unikal təbiət hadisəsini öz gözləri ilə görüb müşahidə aparmağın özəl məqamları var.**

Həmin tanışım belə bir məlumat da verdi ki, Azərbaycan planetimizdə palçıq vulkanlarının geniş yayıldığı region kimi tanınır. Dünyada mövcud olan 2 minə yaxın palçıq vulkanlarının 350-dən çoxu məhz ölkəmizdə yerləşir. Yeri gəlmişkən, palçıq vulkanları daha çox Bakı, Abşeron yarımadasında, Xəzər dənizi akvatoriyasında yayılmışdır.

Beləcə məndə palçıq vulkanları barədə məlumat toplayaraq onları oxucularla bölüşmək arzusu yarandı. Öyrəndim ki, palçıq vulkanları Yerin dərin qatlarındakı palçıq, qaz və su qarışığını yerə sızdıran nadir geoloji hadisədir. Onların özəlliyi bundadır ki, bu vulkanlar ənənəvi olaraq ərimiş lavanı yox, köpürən palçıq hissələrini püskürür.

Yerin altındakı qaz və maye cibləri yuxarıya doğru hərəkət etdikcə, özləri ilə palçıq və çöküntüləri də itələyib üzə çıxarırlar. Bu proses isə sonda insanı ovsunlayan bir görüntünün yaranmasına səbəb olur. Bu prosesi Abşeronun bir neçə guşəsində müşahidə edərək təbiətin möcüzələrinə heyranlığımı gizlədə bilmədim.

Bəli, qeyd etməyə dəyər ki, palçıq vulkanlarının sayına, növlərinə və aktiv fəaliyyətinə görə dünyada Azərbaycan ərazisinə bənzəyən ikinci bir məkan yoxdur. Ölkəmizdəki palçıq vulkanlarının aktivliyi daim dəyişir, onlar arasında müntəzəm olaraq püskürənləri olur. Azərbaycan həm də yeraltı və sualtı palçıq vulkanları ilə məşhurdur və Xəzər dənizi 140-dan çox sualtı obyektə "evsahibliyi" edir. Təkcə Bakı arxipelaqı ərazisində unikal landşaft formalaşdıran vulkan mənşəli 8 ada mövcuddur.

Ölkəmizdəki vulkanlar arasında yer səthinə neft axıdanları da var. Karbohidrogenlərlə birbaşa əlaqəli olan palçıq vulkanlarını dərin kəşfiyyat quyularına da bənzətmək olar. Çünki vulkanlar da müəyyən dərinliklərdə neft yataqlarının olduğunu göstərir, yerin təkində neft və qaz təbəqələrinin hərəkəti haqqında fikirlərin yaranmasına səbəb olur. Vulkanlar neft və qaz bölgələrinin üzərini örtərək daha üst təbəqələrdə qazabənzər metanın toplanmasına şərait yaradır.

Mineral duzlar, üzvi maddələr və mikroelementlərlə zəngin olan vulkan palçığı insan orqanizminə yaxşı təsir göstərməklə müalicəvi xassələrə malikdir. Bu palçıqdan dayaq-hərəkət aparatı, oynaqlar, onurğa, periferik əsəb sistemi, dəri, mədə-bağırsaq traktatı, şəkər diabeti, ateroskleroz və boyun osteoxondrozu kimi xəstəliklərin müalicəsində, daha sonra ginekologiyada, urologiya və kosmetologiyada uğurla istifadə edilir.

Tam qətiyyətlə Azərbaycanı palçıq vulkanları diyarı adlandırmaq olar və bu vulkanlar bizim həm milli, həm də təbii sərvətimizdir. Təəssüf ki, son onilliklərə qədər Bakı və Abşeron yarımadasında yerləşən palçıq vulkanlarına antropogen təsirlərin artması nəticəsində onların əraziləri dağıdılır, orada intensiv inşaat işləri aparılır, vulkanların püskürmə ehtimalı olan zonalarında yaşayış binaları inşa olunurdu.

Palçıq vulkanlarının əhəmiyyətini nəzərə alaraq bu təbiət sərvətlərinin gələcək nəsillərə çatdırılması və respublikamızın təbii irsinin geniş miqyasda təbliğ olunması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 15 avqust tarixli sərəncamı ilə "Bakı və Abşeron yarımadasının palçıq vulkanları qrupu Dövlət Təbiət Qoruğu" (DTQ) yaradılmışdır. Bundan sonra Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2011-ci il 29 sentyabr tarixli sərəncamı ilə 12 min 323 hektar sahədə 43 palçıq vulkanının ərazisi qoruq elan edilmişdir. DTQ-un əsas vəzifəsi vulkanik landşaftın, təbiət komplekslərinin və obyektlərinin təbii vəziyyətini qoruyub saxlamaq, elmi tədqiqatlara yardım etmək məqsədilə ekoloji monitorinqi həyata keçirməkdir.

Sonda belə bir faktı da qeyd etməyə dəyər ki, Abşeron rayonu ərazisində Bakıdan saat yarım məsafədə Palçıq Vulkanları Turizm Kompleksi yaradılıb ki, burada çox sayda bir-birindən fərqli eksponatlar nümayiş etdirilir. Kompleksdə yerli və əcnəbi turistlərin istirahət etmələri üçün hər cür şərait yaradılıb.

*M.HACIXANLI*
*XQ*

# Xankəndidə Od çərşənbəsi

**İşğaldan azad edilən bütün ərazilərdə olduğu kimi, Xankəndi şəhərində də həyat öz axınına düşüb.**



Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa Tikinti və İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, uzun illərdən sonra Xankəndi şəhərində insanlar dünən milli adət-ənənəmizə uyğun olaraq Od çərşənbəsini qeyd ediblər.

Axşam saatlarında şəhərin girişində bayram tonqalı yandırılıb. Sakinlər tonqal ətrafına toplaşaraq şənləniblər. Mərasim uşaqlar üçün daha maraqlı olub. İnsanlar tonqalın üzərindən hoppanaraq öz niyyətlərini dilə gətiriblər.

Qeyd edək ki, işğaldan azad olunan ərazilərdə bayramlar təntənə ilə keçirilir. Xankəndi şəhərində də Novruz bayramı münasibətilə böyük konsert proqramı təşkil ediləcək.

*XQ*

# Ay görünməz olacaq...

**Bu ilin ilk Ay tutulması martın 14-də baş verəcək və bu tam Ay tutulması olacaq. Bakı Dövlət Universitetinin (BDU) fizika fakültəsinin astrofizika kafedrasından mətbuata verilən məlumata görə, tutulma yerli vaxtla saat 09:09:33-də başlayıb, saat 12:47:48-də sona çatacaq.**

Tutulma hadisəsi 3 saat 38 dəqiqə çəkəcək. Tam tutulma isə saat 10:26:06-da başlayıb, saat 11:31:26-da sona çatacaq. Tutulmanın maksimumu saat 10:59:56-da baş verəcək. Tam tutulmada Ay 65 dəqiqə qırmızı-narıncı rəngdə görünəcək. Bu zaman, xüsusilə tutulma üfüqdə baş verdikdə Günəş şüaları Ayın səthinə birbaşa deyil, Yer atmosferindən keçərək düşür.

Bu nadir hadisə ən yaxşı Şimali və Cənubi Amerikada görünəcək. Ümumilikdə tam tutulma hadisəsi Sakit okean, Amerika, Qərbi Avropa, Qərbi Afrikada müşahidə olunacaq. Bu tutulma zamanı Ay üfüqdən aşağıda olduğu üçün Azərbaycandan müşahidə olunmayacaq.

*XQ*

# Gəl, gəl, a yaz günləri!

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, martın 5-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**



Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq. Mülayim cənub-qərb küləyi əsəcək, gündüz bəzi yerlərdə arabir güclənəcək, axşam şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 0-3°, gündüz 9-14° isti olacaq. Atmosfer təzyiqi 769 mm civə sütunundan 762 mm civə sütununa enəcək, nisbi rütubət gecə 70-80, gündüz 55-60 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 0-5°, gündüz 11-16° isti, dağlarda gecə 5-10° şaxta, gündüz 3-8° isti olacaq. Gecə və səhər bəzi dağlıq rayonlarda yollar buz bağlayacaq.

*Q.QASIMOV*
*XQ*

✓ ***2025-ci il fevralın 4-də ümumi yığıncağın qərarı ilə İmişli rayonunda fəaliyyət göstərən "Şirinqum", "Boztəpə", "Elat", "R-2", "Əliqulular", "Qala" və "Buludlu" Sudan İstifadəedənlər Birlikləri birləşərək, "Boztəpə-1" Sudan İstifadəedənlər Birliyini təsis etmişlər. Ünvan – İmişli rayonu, Əliqulular kəndi.***

✓ ***"RNQ GROUP" MMC-nin nizamnaməsi əsasında fəaliyyət göstərən MMC-nin direktoru Quliyev Səfiyar Duman oğlunun şəxsində Rəfiyev Elçin Bədrəddin oğlu ilə 2018-ci il avqustun 7-də bağlanmış pilot layihə müqaviləsi itdiyi üçün etibarsız sayılır.***

# ALLAH RƏHMƏT ELƏSİN

Şirvan şəhərindən İlqar Abbasov Mir Şahin Ağayevə atası

**MİR DİLAVƏR AĞAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Şirvan şəhərindən İlqar Abbasov Rafiq Cəlilova qardaşı

**RÖVŞƏN CƏLİLOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Pirallahı rayonundan Vasif İmanov Real TV-nin baş direktoru Mir Şahin Ağayevə, atası

**MİR DİLAVƏR AĞAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru, professor Ceyran Mahmudova və universitetin professor – müəllim heyəti professor

**NİYAZİ MEHDİNİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Dünyamalı Məmmədov, Rafiq Abışov, İsa Allahverdiyev, Arif Nəcəfov və Ədalət Salman Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Cəlilova qardaşı

**RÖVŞƏN CƏLİLOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin maliyyə və audit kafedrasının müdiri, professor Əvəz Ələkbərov Real TV-nin baş direktoru Mir Şahin Ağayevə atası

**MİR DİLAVƏR AĞAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin maliyyə və audit kafedrasının müdiri, professor Əvəz Ələkbərov Arif və Fərhad Qaraşovlara əzizləri

**AYXAN QASIMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3366
SİFARİŞ 479
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV

Çapa imzalanmışdır 00:00